Xalqın qəzeti!

# Xalq qəzeti

№ 206 (30900) 26 sentyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## "Ağ Ev" üzünü Cənubi Qafqaza çevirib



Səhifə ⇨ 5

# Azərbaycan qlobal çağırışları təşəbbüskarlıqla cavablandırır

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib. AZƏRTAC Dövlətimizin başçısının çıxışını təqdim edir.**

**(ardı 2-ci səhifədə)**

## BMT "beşlər"in aləti olmaqdan qurtulacaqmı?

*Beynəlxalq təhlükəsizlik sistemi üçün böhrandan çıxış yolları axtarılır*




**BMT Baş Assambleyasının 80-ci sessiyası beynəlxalq münasibətlər sistemində qlobal çağırışların, yeni güc balanslarının və çoxqütblülük tendensiyasının müzakirə olunduğu mühüm bir tribunaya çevrilmişdir. XXI əsrdə beynəlxalq təhlükəsizlik, iqlim böhranı, enerji keçidi, qida və su resurslarının idarə edilməsi, habelə regional münaqişələr və dövlətlərin suverenlik məsələləri dünya gündəminin mərkəzindədir. Müasir problemlər BMT-nin təsisat kimi effektivliyi və onun islahat ehtiyaclarını aktuallaşdırır.**

**(ardı 6-cı səhifədə)**

## Şarl Mişelin sülh mesajı



Səhifə ⇨ 8

## Paşinyanın komandası keçmişdə ilişib qalmamalıdır!

*Saxta məhbus məsələsinin beynəlxalq platformalara çıxarılması sülhə kölgə salır*



**Sentyabrın 23-də Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulun təşkil edildiyi məlumdur. O da məlumdur ki, həmin qəbulda Prezident Tramp Azərbaycan–Ermənistan sülhünə xüsusi diqqət çəkmişdi. Mövcud xüsusda onunla dövlətimizin başçısı arasında kiçik dialoq da yaşanmışdı. ABŞ lideri Prezident İlham Əliyevdən sərhəd xəttində gərginliyin olub-olmaması, atəş səslərinin eşidilib-eşidilməməsi barədə soruşmuşdu. Ölkəmizin rəhbərinin cavabı isə bu olmuşdu: "Xeyr, xeyr. Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu".**

**(ardı 6-cı səhifədə)**

# Vətən müharibəsinə aparan Qələbə müjdəli yol



**2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti genişmiqyaslı hərbi təxribatları nəticəsində başlanan və 44 gün davam edən Vətən müharibəsindən 5 il ötür. Xalqımız üçün "Olum, ya ölüm" məsələsinin həll olunduğu bu savaşda möhtəşəm Qələbə qazanılması Azərbaycanın hərb tarixinin ən böyük Zəfəri olmaqla, çağdaş tariximizdə də yeni bir mərhələnin başlanğıcı sayılır.**

Bu Qələbə təcavüzkar Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoydu, milli dövlətçiliyimizin gücünü, xalqımızın iradəsini, əzmini bütün dünyaya nümayiş etdirdi. Həm hərb, həm siyasət, həm də diplomatiya meydanında əldə edilmiş bu tarixi Zəfər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu qat-qat artırdı, Cənubi Qafqaz regionunda, bütövlükdə, dünyada yeni reallıqlar yaratdı.

**(ardı 12-ci səhifədə)**

## ABŞ şirkətlərinin ölkəmizə genişmiqyaslı marağı



**Belə görüşlərin qarşı tərəflərin müraciəti əsasında baş tutması isə heç şübhəsiz, ölkəmizə olan marağın, iqtisadiyyatımızın cəlbediciliyi ilə bağlıdır. Dövlətimizin başçısının sentyabrın 24-də Nyu-Yorkda qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşündə infrastruktur sahəsində beynəlxalq tərəfdaşlıq imkanları və bu sahəyə yönələn birgə investisiyaların regional iqtisadi əlaqələrin genişləndirilməsində rolu müzakirə edilib.**

**(ardı 11-ci səhifədə)**

# Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib

## Prezident İlham Əliyevin çıxışı

(əvvəli 1-ci səhifədə)

– Xanımlar və cənablar.

Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam.

Otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizi Ermənistanın hərbi işğalı altında qaldı. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi cinayətlər nəticəsində bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin salındı. Onların fundamental insan hüquqları kobud şəkildə pozuldu. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olundu. Təəssüf ki, bu qətnamələr heç vaxt icra edilmədi. Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən heç bir sanksiyaya məruz qalmadığı üçün qətnamələrə nümayişkaranə şəkildə məhəl qoymadı.

1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu isə öz missiyasını yerinə yetirə bilmədi. Onun həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar.

Otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu. Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi. Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı. Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi.





2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü.

Azərbaycan Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi. Biz beynəlxalq hüquqa əsaslanan beş təməl prinsip irəli sürdük, sülh müqaviləsi layihəsini təqdim etdik. Daha sonra layihə mətni üzrə 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən danışıqlar prosesi bizim təşəbbüsümüzlə başladı. Müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi.

Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladılar. Həmin gün Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar. ABŞ Prezidenti Donald Tramp da buna şahid qismində imza atdı. Bundan əlavə, Azərbaycan və Ermənistan artıq sülh prosesinə aidiyyəti olmayan köhnəlmiş mexanizm kimi ATƏT-in Minsk qrupunun və əlaqədar strukturlarının bağlanması üçün birgə müraciət ünvanladılar. Beləliklə, sentyabrın 1-də ATƏT bu strukturların birdəfəlik bağlanması barədə qərar qəbul etdi.

Regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP).

Vaşinqton Sammiti, həmçinin Azərbaycan–ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır.

Eyni zamanda, Prezident Trampın 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəliş şəklində Azərbaycana qarşı tətbiq olunmuş sanksiyaların icrasını dayandırması qərarı da tarixi addımdır. ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi.

Ümumilikdə avqust ayında ABŞ-a səfərim zamanı əldə edilmiş razılaşmalar tarixi əhəmiyyət daşıyır.

Azərbaycan–ABŞ münasibətlərində yeni səhifə açdığına, münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək qərarına və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə dəstəyinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edirəm.

Azərbaycan 2020-ci ildə Vətən müharibəsində Qələbədən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma proqramına start verdi. Ermənistan işğal dövründə yüzlərlə şəhər və kəndimizi yerlə-yeksan etdi, 65 məscidi məqsədli şəkildə dağıtdı. Hərbi cinayətkarlar tərəfindən 30 ilə yaxın müddətdə idarə olunan Ermənistanın siyasəti bu idi. Biz isə yerlə-yeksan edilmiş kənd və şəhərləri yenidən qururuq. "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq 50 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır.

Postmünaqişə dövründə Azərbaycanın qarşısında duran ən ağır humanitar problemlərdən biri də Ermənistan işğalı dövründə yerləşdirilmiş minaların yaratdığı təhlükədir. 2020-ci ilin noyabrından bu günədək 400-dən çox azərbaycanlı mülki şəxs və hərbçi mina partlayışları nəticəsində həlak olub və ya ağır yaralanıb. Bu geniş mina təhdidi köçkünlərin təhlükəsiz qayıdışına və bərpa layihələrinin həyata keçirilməsinə əngəl törədir.

Eynilə, 1990-cı illərin əvvəllərindən bəri Ermənistanın təcavüzü və işğalı zamanı itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli taleyi xüsusi diqqət və tədbir görülməsini tələb edir.

Xanımlar və cənablar, qlobal çağırışlara gəldikdə, biz inanırıq ki, cavab tədbirləri inklüziv, ədalətli və ümumbəşəri olmalıdır.

Azərbaycan bir çox təşəbbüslərlə dayanıqlı həll variantlarının təşviqinə aydın sadiqliyini göstərdi.

Ötən il iqlim fəaliyyəti, yaşıl keçid və maliyyəyə ədalətli çıxış məsələlərində mühüm nəticələr əldə olunmuş COP29-a ev sahibliyi etməkdən qürur duyduq. COP29-un ev sahibi kimi bütün tərəflərin, xüsusən də inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməklə, iddialı və balanslı nəticələrə yönəlmiş danışıqlara rəhbərlik etdik.

COP29-da qəbul edilmiş, Bakı Maliyyə Hədəfi kimi də tanınan Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) qlobal iqlim maliyyəsində tarixi mərhələdir. Bu öhdəlik 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin dövlət mənbələrindən inkişaf etməkdə olan ölkələrə illik 100 milyard ABŞ dolları məbləğində ilkin iqlim maliyyələşdirmə hədəfini hər il ən azı 300 milyard ABŞ dollarına çatdırmağı nəzərdə tutur. Azərbaycan, həmçinin Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq, karbon bazarları üçün uzun müddətdir gözlənilən çərçivəni uğurla yekunlaşdıraraq, Paris Sazişinin qəbulundan doqquz il sonra onun tam fəaliyyətə başlamasını təmin etdi. İqlim dəyişikliyinə məruz qalan həssas icmalara vacib dəstək verən İtki və Zərərlərə Cavab Fondunun tam fəaliyyət göstərməsi üçün COP29-da bir neçə əsas saziş imzalandı.

Yaşıl keçidə ciddi şəkildə sadiq qalmaqla yanaşı, qarşımıza real olmayan hədəflər qoymamalıyıq. Dünya bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşaya bilməz.

Enerji təhlükəsizliyi sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəlidir. Azərbaycan bu məqsədlərin qlobal səviyyədə irəlilədilməsində fəal rol oynamaqda davam edir. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq.

Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir. Bundan əlavə, son vaxtlar Azərbaycan və Suriya enerji təchizatı, infrastrukturun inkişafı və münaqişədən sonra yenidənqurma işlərinə diqqət yetirərək ikitərəfli tərəfdaşlığı gücləndirib. Bu ilin avqust ayından Azərbaycan Türkiyə ərazisindən Suriyaya təbii qaz tədarük etməyə başlayıb və bununla da ölkənin elektrik enerjisi çatışmazlığını əhəmiyyətli dərəcədə azaldıb.

Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

Şərq–Qərb və Şimal–Cənub dəhlizləri kimi bağlantı layihələri ölkəmizdən keçir. 2022-ci ildən bəri Orta Dəhlizlə yükdaşımalarda təqribən 90 faiz artımın şahidi olmuşuq. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib.

Rəqəmsal bağlantılar sahəsində əməkdaşlıq üçün böyük potensial mövcuddur. Azərbaycan "Rəqəmsal İpək Yolu" kimi əhəmiyyətli layihə vasitəsilə rəqəmsal transformasiya təşəbbüsünü irəlilədir. Bu layihəyə Azərbaycanın əsas regional rəqəmsal mərkəzə çevrilməsinə şərait yaradacaq Xəzər dənizinin dibi ilə qabaqcıl fiber-optik kabel şəbəkəsinin qurulması planları da daxildir.

Azərbaycan neft və qaz sektorundan əlavə, iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, islahatlar və şəffaflıq vasitəsilə investisiya mühitinin yaxşılaşdırılmasına diqqət yetirməklə mühüm iqtisadi artıma nail olub. Yoxsulluğun və işsizliyin tarixi minimum həddə – 5 faizə endirilməsi ölkəmizin daha bir nailiyyətidir.

Bu yaxınlarda iki aparıcı beynəlxalq reytinq agentliyi ("Moody's" və "Fitch") Azərbaycanın reytinqini artırdı. Çox güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas güclü tərəflər kimi göstərilməklə, Azərbaycana sərfəli investisiya dərəcəsi verildi. Bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, güclü fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir. Xarici borcumuz ÜDM-in cəmi 6,5 faizini təşkil edir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır.

2022-ci ildə Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Görüşündə Xəzər dənizində ətraf mühitin pozulması məsələsini qaldırdım. Bu gün vəziyyət daha acınacaqlıdır. Xəzər dənizi sürətlə azalır. Əsas səbəb iqlim dəyişməsi deyil. Gözlənilməz nəticələri olan ekoloji faciəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir. Azərbaycan, həmçinin həmin problemin həlli üçün BMT ilə də sıx əməkdaşlığa hazırdır.

Xanımlar və cənablar, Azərbaycan qlobal səviyyədə humanitar yardım səyləri ilə qürur duyur. Biz təbii fəlakətlərdən, münaqişələrdən və səhiyyə sahəsində böhranlardan zərər çəkən ölkələrə yardım göstəririk. Azərbaycan COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində 80-dən çox ölkəyə qoruyucu avadanlıqlar, tibbi cihazlar və vaksinlər ianə edib və maliyyələşdirib.

Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır.

Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərdə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq.

Təşəkkür edirəm.



# Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb

**Sentyabrın 25-də BMT-nin mənzil-qərargahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş ilə görüşüb.**

Əvvəlcə dövlətimizin başçısı BMT-nin fəxri qonaqlar kitabını imzaladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş birgə foto çəkdirdilər.

Baş katib Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarı vəzifəsində Azərbaycana səfərini xatırlayan Antonio Quterreş həmin vaxt ölkəmizdə qaçqın və məcburi köçkünlərin ağır vəziyyəti ilə yerində tanış olduğunu dedi. O, bütün bu məsələlərin artıq keçmişdə qaldığını sevinc hissi ilə vurğulayaraq, Azərbaycan hökuməti tərəfindən məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaları ilə əlaqədar böyükmiqyaslı layihələr həyata keçirdiyini qeyd etdi.



BMT-nin Baş katibi COP29-un Azərbaycanda uğurla keçirilməsi və beynəlxalq iqlim gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlər münasibətilə də dövlətimizin başçısını təbrik etdi və bu tədbirin yüksək səviyyədə keçirilməsi ilə bağlı təşəkkürünü çatdırdı.

Antonio Quterreş BMT ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edərək, hazırda ölkəmizin bu təşkilatın digər regionlarda fəaliyyətini dəstəklədiyinə görə minnətdarlığını bildirdi, beynəlxalq böhranların aradan qaldırılmasında Azərbaycanla BMT arasında əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu qeyd etdi.

Azərbaycanın çoxtərəfli diplomatiyada fəal roluna toxunan BMT-nin Baş katibi Qoşulmama Hərəkatında ölkəmizin uğurlu sədrliyini də vurğuladı, Azərbaycanın artıq donor ölkə olaraq BMT-nin müxtəlif institutlarının fəaliyyətinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi.

BMT-nin Baş katibi ölkəmizin regional əməkdaşlıq layihələrinin inkişafındakı, həmçinin Mərkəzi Asiya ilə regional nəqliyyat bağlantılarının yaradılmasındakı rolunu qeyd etdi.



Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət daşıdığını vurğuladı. İki ölkə arasındakı münasibətlərin və regiondakı vəziyyətin tamamilə dəyişdiyini deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və Ermənistan müstəqilliklərini əldə edəndən bəri regionda sülh olmayıb. Hazırda isə bölgədə sülh mövcuddur. Hər iki ölkənin sülh şəraitində yaşamağa öyrəşdiklərini vurğulayan Prezident İlham Əliyev bunun həm Azərbaycan, həm də Ermənistan üçün mühüm və tarixi önəm kəsb etdiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı da öz növbəsində işğaldan azad olunmuş ərazilərimizdə görülən genişmiqyaslı bərpa və quruculuq işlərini qeyd etdi. Bu xüsusda Prezident İlham Əliyev 53 mindən artıq keçmiş məcburi köçkünün öz doğma torpaqlarına qayıtdığını, Azərbaycanın "Böyük Qayıdış" Proqramına uyğun olaraq genişmiqyaslı bərpa və quruculuq işlərini həyata keçirdiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın donor kimi COVID-19 zamanı 80-dən çox ölkəyə yardım göstərdiyini qeyd etdi və bundan sonra da regional, həmçinin beynəlxalq sülh gündəliyini dəstəkləyərək bu işə öz töhfəsini verəcəyini dedi.

2026-cı ildə ölkəmizdə BMT-nin Ümumdünya Şəhərsalma Forumu kimi böyük tədbirinin keçiriləcəyinə toxunan Prezident İlham Əliyev vurğuladı ki, bu tədbir Azərbaycanın şəhərsalma, xüsusən də postmünaqişə şəraitində şəhərsalma sahəsində əldə etdiyi zəngin təcrübəsinin beynəlxalq ictimaiyyətlə bölüşməsi üçün yaxşı fürsət yaradır.

# Milli Məclis Sədrinin Pakistan Senatı Sədri ilə telefon danışığı




**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova ilə Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilani arasında telefon danışığı olub.**

Dialoq zamanı Azərbaycan və Pakistan arasında strateji münasibətlərin dostluq və qardaşlıq prinsipləri əsasında uğurla inkişafından razılıq ifadə olunub. İki ölkə arasında əlaqələrin dərinləşməsində Prezident İlham Əliyevin Pakistana səfərlərinin, Pakistanın Baş nazirlərinin Azərbaycana səfərlərinin və imzalanmış sənədlərin xüsusi rolu vurğulanıb.

Tərəflər dost və qardaş ölkələrimiz arasında əlaqələrin ruhuna uyğun olaraq, parlamentlərimiz arasında da səmərəli münasibətlər qurulduğunu qeyd edərək, qanunvericilik orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində sıx əməkdaşlıq etdiklərini ifadə ediblər. Qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***XQ***

# Kəmaləddin Heydərov İordaniya heyətini qəbul edib

**Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığı İctimai Təhlükəsizlik Baş İdarəsinin Əməliyyatlar və Təlim üzrə Baş direktor müavini briqada generalı Məhəmməd Mahmud Əl-Öməri-nin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Qonaqları səmimiyyətlə salamlayan nazir K.Heydərov ölkələrimiz arasında qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq münasibətləri çərçivəsində fövqəladə halların idarə edilməsi və mülki müdafiə sahəsində əlaqələrin genişləndirilməsinin hər iki tərəf üçün faydalı olduğunu vurğulayıb. Nazir ölkəmizdə fövqəladə hallarla mübarizə və mülki müdafiə sahəsində görülən işlərdən danışıb, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətinə toxunub. Əminlik ifadə edilib ki, hazırki səfər zamanı keçirilən görüşlər və aparılan müzakirələr qurumlar arasında müxtəlif istiqamətlər üzrə əlaqələrin inkişafına əlavə təkan verəcək.

Səmimi görüşə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Məhəmməd Mahmud Əl-Öməri iki ölkənin fövqəladə hallarla mübarizə və mülki müdafə sahəsində cavabdeh qurumları arasında münasibətlərin genişləndirilməsindən məmnunluq ifadə edib, müxtəlif istiqamətlər üzrə əməkdaşlığın dərinləşməsinin qarşılıqlı faydasını vurğulayıb.

# Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Məmmədzadə Kənan Kamil oğlu – polkovnik-leytenant

Sanıyev Xalid Bəhmən oğlu – polkovnik-leytenant

Şahmaliyev Vaqif Şaiq oğlu – polkovnik-leytenant

Ağayev Vüsal Mirzağa oğlu – kapitan

Mövlamov Füzuli Saleh oğlu – kapitan

Musayev Mirvahid Mirələm oğlu – kapitan

Şaliyev Şahin Eldar oğlu – kapitan

Əliyeva Məsumə Teymur qızı – baş leytenant.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 25 sentyabr 2025-ci il

# Türkmənistanın Prezidenti Zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

**Hörmətli Sərdar Qurbanquliyeviç!**

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Türkmənistanı ənənəvi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, ikitərəfli münasibətlərimiz ortaq soy-kök və milli-mənəvi dəyərlər ilə bir-birinə sıx bağlı olan qardaş xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

***Hörmətlə,***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 24 sentyabr 2025-ci il

# Azərbaycan Gürcüstanla dost ölkə və strateji tərəfdaşdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə zəng edib.**

Dövlətimizin başçısı Baş nazir İrakli Kobaxidzeni ad günü münasibətilə təbrik edib, ona cansağlığı və fəaliyyətində yeni uğurlar arzulayıb.

İrakli Kobaxidze göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon söhbəti əsnasında Azərbaycan Prezidenti və Gürcüstanın Baş naziri ölkələrimiz arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakter daşıdığını qeyd edib, əməkdaşlığın müxtəlif sahələrdə inkişafına dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

# Nazirlər Kabinetinin geniş iclası



**Sentyabrın 25-də Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun rəhbərliyi və hökumət üzvlərinin iştirakı ilə "Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2026-cı il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"nə həsr olunmuş geniş iclas keçirilib.**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, "2026-cı il dövlət və icmal büdcə layihələri və növbəti 3 ilin icmal büdcəsinin göstəriciləri və 2026-cı il və növbəti üç il üzrə sosial-iqtisadi inkişaf proqnozları" aidiyyəti qurumlar tərəfindən Nazirlər Kabinetinə təqdim edilib və müzakirə olunub.

Baş nazir Əli Əsədov növbəti ilin dövlət büdcəsi layihəsinin əsas göstəriciləri barədə ətraflı məlumat verib.

Maliyyə naziri Sahil Babayevin "Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı 3 ilin icmal büdcəsinin göstəriciləri haqqında", iqtisadiyyat naziri Mikayıl Cabbarovun "Azərbaycan Respublikasının 2026-cı il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında" və əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin "2026-cı il üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələri barədə" məruzələri dinlənilib.

Baş nazir qarşıda duran əsas vəzifələri və tapşırıqları iclas iştirakçılarının diqqətinə çatdırıb.

Sonda "Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı 3 ilin icmal büdcəsinin göstəriciləri" və "Azərbaycan Respublikasının 2026-cı il və növbəti 3 il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" barədə layihələrin "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi barədə qərar qəbul olunub.

***XQ***

*XRİTDX işçilərinin peşə bayramı*

# Azərbaycanın informasiya məkanı etibarlı qorunur



**XXI əsr həm də informasiya məkanında ciddi rəqabət dövrüdür. Dövlətlərin gücü artıq kibermüdafiə potensialı ilə ölçülür. İnformasiyanın qorunması, rabitə şəbəkələrinin etibarlılığı və milli təhlükəsizliklə bağlı verilən qərarların elektron mühitdə müdafiəsi yeni dövrün əsas şərtlərindəndir.**

Azərbaycan da bu reallığı nəzərə alaraq öz milli kibermüdafiə qalxanını formalaşdırıb. Bu missiyanı həyata keçirən əsas qurumlardan biri Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətidir (XRİTDX). Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra informasiya təhlükəsizliyi məsələsi dövlətçiliyin dayaqlarından biri kimi ön plana çıxdı. 1994-cü ildən etibarən əsası qoyulan xüsusi rabitə strukturu tədricən inkişaf edərək müasir dövrün çağırışlarına cavab verən möhkəm bir xidmətə çevrildi.

Ulu öndər Heydər Əliyev hələ 1990-cı illərin əvvəllərində informasiya texnologiyalarının strateji əhəmiyyətini dərindən dərk edərək rabitə sistemlərinin modernləşdirilməsini dövlət siyasətinin prioritetlərindən biri elan etmişdi. Onun siyasi irsi bu gün XRİTDX-in fəaliyyətində canlı şəkildə yaşamaqdadır. Prezident İlham Əliyevin rəhbərliyi altında isə bu sahə yeni inkişaf mərhələsinə qədəm qoydu. Dövlət başçısının 2024-cü ildə imzaladığı sərəncamla 26 sentyabr tarixinin qurum əməkdaşlarının peşə bayramı günü elan olunması həm də informasiya təhlükəsizliyi sahəsinə verilən yüksək qiymətin təzahürüdür.

Azərbaycanın qarşılaşdığı müharibələr göstərdi ki, müasir dövrdə silahların səsi ilə yanaşı, kiberhücumların görünməz zərbələri də paralel şəkildə baş verir. 2020-ci il Vətən müharibəsi dövründə Ermənistan və onun xaricdəki tərəfdarları Azərbaycanın dövlət qurumlarına, strateji infrastrukturuna və media resurslarına qarşı kütləvi hücumlar təşkil etdi. Bu hücumların məqsədi dövlət sistemlərini iflic etmək, ictimai rəydə çaşqınlıq yaratmaq və informasiya müharibəsində üstünlük qazanmaq idi.

XRİTDX-in peşəkar müdafiə tədbirləri nəticəsində həmin hücumlar dəf edildi. Dövlət saytları və elektron xidmətlər sabit fəaliyyətini davam etdirdi, ictimaiyyətə yayılan dezinformasiyanın qarşısı alındı. “Qisas” əməliyyatları zamanı da oxşar intensiv hücumların 7 gün ərzində davam etməsinə baxmayaraq, XRİTDX-nin qabaqcıl texnologiyalar və real vaxt monitorinqi sayəsində ölkənin informasiya təhlükəsizliyi qorundu.

Azərbaycan son illərdə sürətli rəqəmsallaşma mərhələsinə qədəm qoyub. Elektron hökumət xidmətləri, rəqəmsal iqtisadiyyat, onlayn bankçılıq və elektron ticarət insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Bu, vətəndaşlara rahatlıq gətirsə də, yeni təhlükələr də doğurur. Məhz buna görə XRİTDX yalnız dövlət qurumlarının deyil, ümumilikdə ölkənin rəqəmsal mühitinin sabitliyini qoruyan əsas institutdur. Əməkdaşlar xüsusi rabitə kanallarının təhlükəsiz işləməsini təmin etməklə yanaşı, müasir kriptoqrafik metodlardan, qabaqcıl şəbəkə müdafiə sistemlərindən və süni intellekt əsaslı monitorinq texnologiyalarından istifadə edirlər. Bununla da kiberhücumların vaxtında aşkarlanması və qarşısının alınması mümkün olur.



Kibermüdafiə yalnız texnoloji məsələ deyil, həm də ictimai şüur məsələsidir. İstənilən vətəndaşın şəxsi məlumatlarının qorunması, şifrələrin təhlükəsizliyi, sosial şəbəkələrdəki davranış qaydaları bütövlükdə dövlətin informasiya təhlükəsizliyinə təsir göstərir. XRİTDX bu istiqamətdə ictimai maarifləndirməyə də böyük önəm verir. Təlimlər, maarifləndirici kampaniyalar, beynəlxalq təcrübə mübadiləsi və gənclərin bu sahəyə cəlb olunması Azərbaycanın kiber mədəniyyətini formalaşdıran əsas addımlardandır.

Kibertəhlükəsizlik qlobal xarakter daşıdığı üçün heç bir dövlət təkbaşına bütün təhdidlərin qarşısını ala bilməz. Azərbaycan da bu sahədə beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verir. NATO, Avropa İttifaqı və BMT çərçivəsində keçirilən tədbirlərdə iştirak, regional əməkdaşlıq platformalarında aktiv mövqeyin tutulması, həmçinin 2024-cü ildə Bakıda təşkil edilən Kiberdiplomatiya Konfransı bu istiqamətdə mühüm addımlardır. Bu konfrans Azərbaycanın yalnız öz təhlükəsizliyini təmin etməklə kifayətlənmədiyini, eyni zamanda beynəlxalq dialoq mərkəzinə çevrilmək niyyətində olduğunu göstərir.

2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 konfransı isə Azərbaycanın informasiya təhlükəsizliyi sahəsində imkanlarının real sınağı oldu. Minlərlə iştirakçının qatıldığı bu qlobal tədbirdə rabitə şəbəkələrinin sabitliyi, məlumat bazalarının qorunması və kiberhücumların qarşısının alınması strateji əhəmiyyət daşıyırdı. XRİTDX bu prosesdə əsas məsuliyyət daşıyan qurum kimi üzərinə düşən vəzifələri yüksək səviyyədə icra etdi.

Konfrans zamanı “AzStateNet” dövlət internet şəbəkəsi vasitəsilə bütün vacib obyektlərin etibarlı bağlantısı təmin edildi, qabaqcıl şifrələmə sistemləri ilə məlumat bazaları qorundu, kiberhücumların qarşısı üçün çoxpilləli monitorinq sistemləri işə salındı. Bu tədbirlər nəticəsində COP29 heç bir təhlükəsizlik problemi olmadan başa çatdı və Azərbaycanın beynəlxalq imicinə mühüm müsbət təsir göstərdi.

Rəqəmsal dünya daim dəyişir. Süni intellekt, “deepfake” texnologiyaları, kvant kompüterləri və yeni tip kiberhücum metodları yaxın gələcəyin reallıqlarıdır. Buna görə də XRİTDX qarşısında duran ən böyük vəzifə daim yenilənmək, texnoloji tərəqqiyə uyğunlaşmaq və qabaqcıl kadr potensialı formalaşdırmaqdır.

Azərbaycan bu sahədə yalnız müdafiə mövqeyində qalmaq niyyətində deyil, həm də regional liderə çevrilmək üçün ardıcıl addımlar atır. Bu, ölkənin milli maraqlarını qorumaqla yanaşı, beynəlxalq miqyasda kibertəhlükəsizlik üzrə söz sahibinə çevrilməsini təmin edəcək.

Bu gün dünyada informasiya məkanı dövlət sərhədləri qədər önəmlidir. Azərbaycanın güclü kibermüdafiə qalxanı olan XRİTDX ölkənin milli maraqlarını qoruyan, rabitə xətlərini etibarlı saxlayan və vətəndaşların informasiya məkanında təhlükəsizliyini təmin edən strateji qurumdur.

Əməkdaşların görünməz əməyinin nəticəsi olaraq Azərbaycan yalnız özünün daxili təhlükəsizliyini möhkəmləndirmir, həm də beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini gücləndirir.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edir, onlara məsul və şərəfli fəaliyyətlərində yeni uğurlar arzulayırıq.

***XQ***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin oktyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | **Qəbulun keçirildiyi şəhər, rayon** | Əhatə olunan şəhər və rayonlar | **Qəbulun keçirildiyi gün** |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Sumqayıt** | Sumqayıt | **01** |
| 2. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Ucar** | Ucar, Kürdəmir, Zərdab | **01** |
| 3. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **02** |
| 4. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Naftalan** | Naftalan, Gəncə, Goranboy, Tərtər, Göygöl | **03** |
| 5. | **Energetika naziri** Pərviz Şahbazov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **10** |
| 6. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Salyan** | Salyan, Neftçala | **10** |
| 7. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Cəlilabad** | Cəlilabad, Masallı, Yardımlı | **10** |
| 8. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Tərtər** | Tərtər, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Xocavənd, Şuşa | **10** |
| 9. | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | **Samux** | Samux, Gəncə, Kəlbəcər | **10** |
| 10. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Tərtər** | Tərtər, Ağcabədi, Ağdam, Füzuli | **14** |
| 11. | **Baş prokuror** Kamran Əliyev | **Gəncə** | Gəncə, Göygöl, Samux, Kəlbəcər | **17** |
| 12. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Zərdab** | Zərdab, Ağcabədi, Ucar, Göyçay, Kürdəmir | **17** |
| 13. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **17** |
| 14. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Şamaxı** | Şamaxı, Qobustan | **17** |
| 15. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **23** |
| 16. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Gəncə** | Gəncə, Samux, Göygöl, Daşkəsən, Goranboy, Naftalan, Kəlbəcər | **24** |
| 17. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **24** |
| 18. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **24** |
| 19. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Göygöl** | Göygöl, Daşkəsən | **24** |
| 20. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Kürdəmir** | Kürdəmir, Ucar, Zərdab | **27** |
| 21. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Bərdə, Tərtər, Laçın | **29** |
| 22. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **31** |
| 23. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **31** |
| 24. | **Mədəniyyət naziri** Adil Kərimli | **Xızı** | Xızı, Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan | **31** |
| 25. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Qəbələ** | Qəbələ, Oğuz | **31** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Çin Xalq Respublikasının 76-cı ildönümü Bakıda qeyd edilib





**Sentyabrın 25-də “Gülüstan” sarayında Çin Xalq Respublikasının 76-cı ildönümünə həsr olunmuş təntənəli qəbul keçirilib.**

Mərasimdə Azərbaycan hökumətinin yüksəkvəzifəli rəsmiləri, diplomatik korpusun nümayəndələri, ictimaiyyətin tanınmış simaları, Çin icmasının üzvləri iştirak ediblər.

Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey qonaqları salamlayaraq qeyd edib ki, 76 il ərzində Çin xalqı Kommunist Partiyasının rəhbərliyi ilə milli şəraitə uyğun inkişaf yolunu seçib, sürətli iqtisadi tərəqqi və uzunmüddətli sosial sabitlik kimi möcüzələr yaradıb: “Çin yoxsulluqla mübarizədə böyük uğurlar qazanaraq 800 milyon insanı yoxsulluqdan xilas edib və hərtərəfli orta rifah cəmiyyəti qurub. Çinin nailiyyətləri yalnız öz xalqına deyil, bütün dünyaya fayda verir”.

Səfir Azərbaycan–Çin münasibətlərinə toxunaraq qeyd edib ki, cari il ikitərəfli əlaqələr üçün həqiqətən məhsuldar olub. Prezident İlham Əliyevin Çinə iki rəsmi səfəri zamanı ölkələr arasında Əhatəli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat imzalanıb, “Bir kəmər, bir yol”, yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində mühüm razılaşmalar əldə olunub: “Sədr Si Cinpin və Prezident İlham Əliyevin strateji rəhbərliyi sayəsində ikitərəfli münasibətlərimiz yeni zirvələrə yüksəlir”.

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev çıxışında Azərbaycan–Çin münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb: “Hazırda ikitərəfli münasibətlərin gündəliyi genişdir. Əməkdaşlıq iqtisadi-ticarət, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, rəqəmsal inkişaf, humanitar, turizm və digər sahələri əhatə edir”.

Qəbul bədii hissə ilə davam edib.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 274** **Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli 1050 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 343 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nın 43-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Ağ Ev" üzünü Cənubi Qafqaza çevirib

## *Dünya isə Donald Trampın "Azərbaycan Prezidenti ilə fəxr etməsi"nə şahid oldu*

**Bu il avqustun 8-də ABŞ-ın paytaxtında baş vermiş siyasi proseslər, imzalanmış sənədlər və Cənubi Qafqaza sülh gətirilməsi məqsədilə atılan ciddi addımlar hamının yadındadır. Həmin xəbərlər kütləvi informasiya vasitələrində yayılan kimi "qaşınmayan yerdən qan çıxartmağın" ustası olan bir həmkarımız yazmışdı ki, hörmətli "Xalq qəzeti", nə oldu bəs, beş il idi yazırdınız ki, sentyabr ayı hər il bizə xoş xəbərlər gətirir və tariximizə yazılır: "Sülh sazişi" barədə razılaşma da, Minsk qrupunun dəfni də, "907-ci düzəliş"in ləğvi də avqustda baş verdi. Siz sentyabrın ətəyindən tutub gedirdiniz". Mən elə həmin gün cavab vermişdim ki, "bu ilin sentyabrı hələ qabaqdadır!"**



Bəli, bu ilin sentyabrı da bizim üçün əlamətdar və yaddaqalan oldu. Dünyanın az qala bütün ölkələrinin dövlət və hökumət başçılarının, siyasətçi və diplomatların, jurnalist və ekspertlərinin toplaşdığı Nyu-York şəhərindən gələn xəbərlər Azərbaycanın bədxahlarını, sözün həqiqi mənasında, peşman elədi. Yayılan xəbərdə deyilirdi ki, sentyabrın 23-də Nyu Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub. Rəsmi tədbirdə çıxış edən ABŞ Prezidenti Donald Tramp bütün dünyanın gözü qarşısında Azərbaycan Prezidentinə dedi ki, mən Sizə təşəkkür etmək istəyirəm, dostum: "Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız!"



Təbii ki, ABŞ və Azərbaycan prezidentlərinin arasında olan bu qısa dialoq hər bir azərbaycanlı üçün heç zaman yaddan çıxmayacaq fakt idi. Ancaq bizim üçün verilmiş sualları və dövlət başçımızın cavablarını xatırlatmaq yerinə düşərdi. Prezident İlham Əliyev prezident seçkilərindən əvvəl bu suala cavab verməyin siyasi mədəniyyət anlayışı baxımından doğru olmadığını bildirsə də, kimin qalib gəlməsi bütün dünya üçün xüsusi əhəmiyyətə malik ABŞ-la, Ağ Evlə bağlı yaddan çıxarmayacağımız başqa faktlar da var idi və həm də olduqca çox. Biz Ağ Evdən dəhşətli dərəcədə haqsızlıqlar da görmüşdük, ədalətsizliklər də. Üstəlik, birbaşa Ağ Evin nəzarətində olan, dövlət vəsaiti ilə maliyyələşdirilən kütləvi informasiya vasitələri cənab Donald Trampın fəxr etdiyi Azərbaycan Prezidentini "diktator" adlandırırdı. Prezident İlham Əliyevin siyasi-diplomatik məharəti Ağ Evin əhatəsindəki həmin məkrli və qərəzli səddləri darmadağın etdi.

Fikrimizi əsaslandırmaq üçün ötən ilin iyul ayında Şuşada keçirilən Qlobal Media Forumunda Azərbaycan Prezidenti İlham Əliyevə Donald Trampla bağlı olduğunu dilə gətirmişdi: "Mənim fikrimcə, Prezident Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də odur ki, onun vaxtında heç bir müharibə olmayacaq. Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Vyetnam, Koreya, Yuqoslaviya, Əfqanıstan, Liviya, İraq, Suriya və necə deyərlər, onların davamı olmadı. Bax, bu müddət ərzində onların heç biri baş vermədi. Ancaq buna, yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər".

Azərbaycan Prezidentinin dünyanın aparıcı dövlətlərindən olan ABŞ rəhbəri tərəfindən dost adlandırılması, böyük qüdrət sahibi olan dövlətin lideri tərəfindən yüksək qiymətləndirilməsi son iki ayın söhbətidir. Ancaq Azərbaycan Prezidenti bir il əvvəl – işğaldan azad edilmiş Şuşada demişdi ki, bizim Respublikaçılar hakimiyyəti ilə daha nəzərəçarpacaq dərəcədə uğurlu və nəticəyönümlü əlaqələrimiz olub: "Siz mənim Amerika liderləri ilə əlaqələrimə, təmaslarıma nəzər salsanız, bu, aydın olar. Eyni zamanda, Prezident Donald Trampın prezidentliyi dövründə bizim çox səmərəli əməkdaşlığımız olub. Bu əməkdaşlıq qarşılıqlı hörmət üzərində qurulmuşdur və qarşılıqlı dəstəyin yüksək qiymətləndirilməsindən ibarət idi".

O ki qaldı mənim yuxarıda xatırlatdığım fakta – ABŞ mətbuatının Azərbaycan Prezidentini "diktator" adlandırmasına, həmin məqamı da cənab Prezidentin adı çəkilən tədbirdən – Şuşadakı çıxışından götürmüşəm. Dövlət başçımız arzu etmişdi ki, Vaşinqtonla Bakı arasındakı əməkdaşlıq potensialından xoş niyyət, xoş məram, konsolidasiya, tərəfdaşlıq üçün istifadə edilməlidir və biz kiminsə uydurduğu demonizasiya qurbanı olmamalıyıq: "Mən cənab Prezident Trampın "Vaşinqton Post" və "Nyu-York Tayms"ı "feyk nyus" adlandırmasını artıq qeyd etdim. Yəni "Vaşinqton Post" təsəvvür edin ki, redaktorlar səviyyəsində onlarla məqalə dərc edir. Məni diktator, satrap adlandırırlar..."

Bəli, son günlərin siyasi xəbərləri barədə danışarkən dövlət başçımızın ötənilki uzaqgörənliklərini xatırlatdıq. Bu sətirləri isə cənab Trampın sentyabrın 23-də Azərbaycan Prezidentinə xitabən söylədiyi fikirlərlə yekunlaşdırırıq: "Bu gün Yaxın Şərq ölkələrinin liderləri ilə gözəl bir görüş keçirdik. Onlar möhtəşəm insanlardır və mənim dostlarımdır. Biz onları bir araya gətirməli və həmin müharibəyə tez bir zamanda son qoymalıyıq. Bunu tez etmək istəyirik və məncə, biz həqiqətən yaxşı bir plan hazırlamışıq. Məncə, o, tez həyata keçirilə bilər… Bilmirəm, bunu Sizin planınız qədər tez həyata keçirə biləcəyik ya yox".

Yəqin ki, diqqətli oxucular sonuncu abzasdakı fərqləndirmə elementinin fərqinə vardılar. Birləşmiş Ştatların lideri cənab Tramp Azərbaycan Prezidentinə xitabən söylədiyi həmin fikirlə, cümlə ilə açıq şəkildə etiraf edirdi ki, avqustun 8-də Vaşinqtonda əldə edilmiş uğurlar bilavasitə Prezident İlham Əliyevin xoş məramlı təşəbbüsünün və planının nəticəsidir.

Azərbaycanın tutduğu mütərəqqi yol, ardıcıllıqla davam etdirdiyi sülh siyasəti yolumuzu həmişə açıq, dövlətimizi daim qüdrətli edəcəkdir.

***İttifaq MİRZƏBƏYLİ***

# Sülh ətrafında mənəvi həmrəylik

## *Bakının "Vaşinqton razılaşmaları" cəmiyyətdə birmənalı razılıq doğurub*

**Müasir beynəlxalq münasibətlər sistemində milli həmrəyliyin möhkəmləndirilməsi dövlətlərin strateji idarəetmə modellərinin əsas komponentinə çevrilib. Qloballaşma dövründə yaranan qarşılıqlı asılılıqlar, hibrid münaqişələrin intensivləşməsi, kiber və informasiya müharibələrinin yeni fazaya keçidi, ideoloji narazılıqların siyasi alətə çevrilməsi milli konsolidasiyanı yalnız daxili siyasət predmeti deyil, həm də təhlükəsizlik konsepsiyalarının prioritet istiqaməti kimi müəyyənləşdirir.**



Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamə Cənubi Qafqazın tarixində yeni səhifə açdı. Üçtərəfli görüşdə İlham Əliyev regionun gələcək nizamını diktə edən əsas lider kimi çıxış etdi. Ağ Evdə imzalanan sənədin siyasi çəkisi onu sadəcə diplomatik protokol aktı olmaqdan çıxarır. Bu, illərlə formalaşan strateji xəttin kulminasiyasıdır. Vaşinqton görüşü Azərbaycanın siyasi çəkisini və diplomatik nüfuzunu bir daha göstərdi. İmzalanan razılaşma gələcəkdə regionda sabitlik və əməkdaşlıq üçün yol xəritəsi rolunu oynayacaq. Onun icrası isə bütün cəmiyyətin boynuna düşən vəzifədir.

Sentyabrın 24-də Azərbaycandakı dini konfessiyaların rəhbərlərinin verdiyi bəyanat Vaşinqton görüşünün cəmiyyətin dərin qatlarında doğurduğu rezonansın ifadəsidir. Bəyanatda Vaşinqton görüşü və onun doğurduğu nəticələr tarixi əhəmiyyətli nailiyyət kimi qəbul edilir və dəstək ifadə olunur: "2025-ci il avqustun 8-də ABŞ-ın Vaşinqton şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında keçirilmiş Zirvə görüşünün nəticələrini tarixi əhəmiyyətli nailiyyət kimi qəbul edir, müzəffər öndərimizin uğurlu dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq dəyərləndiririk"

Bəyanatda həmçinin qeyd olunur ki, Vaşinqton görüşü bölgədə yeni bir dövrün başlanğıcını qoyub və münaqişə səhifəsi bağlanılaraq revanşist meyillər tarixin tozlu arxivlərinə göndərilib. Mətnin semantik yükü isə daha maraqlıdır. "Revanşizm meyillərinin istisna olunması", "münaqişə səhifəsinin qapanması", "yeni dövrün başlanğıcı" kimi ifadələr göstərir ki, dini liderlər prosesi, sadəcə, müşahidə etmir, onu legitimləşdirən aktor kimi çıxış edirlər. Bəyanat həm də Ermənistan və onun havadarlarına ünvanlanan yumşaq xəbərdarlıqdır. Çünki sülh prosesinin dini-sosial dəstək qazanması radikal ritorikanı neytrallaşdırır və revanşizm üçün ictimai zəmin saxlamır. Bu, Bakının Vaşinqtonda başladığı siyasi partiyanı ölkə daxilində mənəvi həmrəyliklə davam etdirməsidir. Bəli, gün kimi aydındır ki, Vaşinqton görüşünün nəticələri Azərbaycandan fərqli olaraq, Hayastan cəmiyyətində eyni dərəcədə rəğbət qazanmadı. Xüsusilə baş nazir Nikol Paşinyanla ədavət aparan kilsə Birgə Bəyənnaməni "xəyanət" kimi qələmə verdi. Ermənistanda dini radikalizmin ön planda olduğu dövrdə bu açıqlama erməni xalqının bərabər səviyyədə sülhə hazır olmadığını göstərir. Bu kontekstdə Azərbaycandakı dini konfessiyaların rəhbərlərinin verdiyi bəyanat həm də Ermənistana mesajdır. Azərbaycan dini liderləri prosesin legitimliyini təsdiqləyərək, sülh və əməkdaşlıq üçün ictimai dəstəyin vacibliyini vurğulayırlar. Paşinyanın isə kilsə faktorunu neytrallaşdıraraq xalqı sülh və birliyin ətrafında səfərbər etməsi vacibdir. Yalnız bu halda Azərbaycanla münasibətlər bərabərləşə və regionda sülh üçün real zəmin formalaşa bilər.

Bəyanatın alt qatında Bakının Vaşinqtondakı uğurunu daxili konsolidasiya vasitəsinə çevirmək niyyəti açıq görünür. Dövlətin əldə etdiyi diplomatik üstünlüklər artıq yalnız beynəlxalq müstəvidə deyil, ictimai və mənəvi qatda da təsdiqlənir. Bu, cəmiyyətə açıq siyasi siqnaldır. Vaşinqtonda imzalanan Birgə Bəyannamə bütün millətin strateji iradəsinin təzahürüdür.

*

"Azadlığı dəstək Aktı"na 907-ci düzəlişin Donald Tramp tərəfindən ləğvi isə Azərbaycanın ABŞ-da qazandığı nüfuzun barometridir. Bu, həm də uzun illər davam etmiş qərəzli yanaşmanın sonu hesab olunur. Məhz buna görə bəyanatda bu məsələ xüsusi vurğulanır – çünki o, yalnız tarixi ədaləti bərpa etmir, həm də Bakı ilə Vaşinqton arasında yeni münasibətlər formatını təsdiqləyir: "Ölkəmizə qarşı uzun illər ərzində qərəz nümunəsi olan 907-ci düzəlişin ABŞ Prezidenti Donald Tramp tərəfindən nümayişkaranə şəkildə ləğv edilməsi Azərbaycanın dövlət rəhbərinə olan ehtiram və etimadın təcəssümü, Prezidentin şəxsində Azərbaycan dövlətinə edilən mühüm dəstək aktı oldu".

Zəngəzur dəhlizi məsələsinə gəlincə, bəyanatda qeyd olunur ki, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" ifadəsi təsadüfi seçilməyib. Bu, sırf nəqliyyat layihəsi deyil, Qafqazın siyasi arxitekturasını dəyişən strateji xəttdir. Dini liderlərin bu mövzuya xüsusi diqqət yetirməsi göstərir ki, məsələ artıq iqtisadi və geosiyasi müstəvidən çıxaraq ideoloji və mənəvi səviyyəyə yüksəlib.

Nəticədə, Vaşinqton görüşüAzərbaycanın daxili siyasi mədəniyyətində də dönüş nöqtəsi yaradır. Dini konfessiyaların bəyanatı bu dönüşün həm simvolu, həm də katalizatorudur. Azərbaycanın siyasi kursu daxildə də mənəvi və ideoloji dayaq qazanır. Bu, Bakının regional liderliyinin ən etibarlı təminatıdır.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

Azərbaycandakı dini icmaların belə bir qərar qəbul etməsi böyük önəm daşıyır. Bu addım Prezidentin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi uğurları və qələbələri daha da möhkəmləndirir, dövlət siyasətinin ardıcıl inkişafını göstərir. Bu qərarın ciddi əsasları var. Hazırda Azərbaycanda dini icmalar arasında münasibətlər çox yüksək səviyyədədir. Ölkəmiz dünya dövlətləri arasında nadir nümunələrdəndir ki, məscidlərin, kilsələrin və sinaqoqların inşası, bərpası və qorunması dövlət tərəfindən aktiv şəkildə təmin edilir. Bu, dini icmalar tərəfindən yüksək qiymətləndirilir.

Dini icmalar dövlətin onlara göstərdiyi qayğı və diqqəti daim yüksək qiymətləndiriblər və həmişə dövlətin yanında olublar. Onlar həmçinin öz dəstəklərini açıq şəkildə ifadə edirlər. Dövlət siyasəti və dini icmaların fəaliyyəti arasında möhkəm əlaqə formalaşır. Dövlətin diqqəti və dəstəyi dini icmaları daha çox fəaliyyət göstərməyə təşviq edir və bu, təbii olaraq bütün sahələrdə özünü göstərir.

Eyni zamanda, Ermənistan nə qədər çalışsa da, Azərbaycandakı dini icmalar arasında münasibətləri poza və gərginləşdirə bilməyib. Bu münasibətlər indiyədək ən yüksək səviyyədədir və dövlət tərəfindən daim qiymətləndirilir. Azərbaycan modeli bu baxımdan həm daxildə, həm də beynəlxalq səviyyədə müsbət və dəyərli bir nümunə kimi qəbul edilir.

Xüsusilə qeyd etmək lazımdır ki, dini konfessiyaların qəbul etdiyi bəyanat Vaşinqton görüşünün Azərbaycan üçün strateji əhəmiyyət daşıdığını ehtiva edən addımdır. Sənəd dövlətin gücünü və nüfuzunu artırmaqla yanaşı, həm də ölkəmizin siyasi və sosial irəliləyişinin göstəricisidir.

# BMT “beşlər”in aləti olmaqdan qurtulacaqmı?

**(əvvəli 1-ci səhifədə)**

BMT Təhlükəsizlik Şurasının mövcud strukturu əslində, II Dünya müharibəsinin siyasi reallıqlarının məhsuludur. 1945-ci ildə yeni qlobal nizam formalaşdırılarkən əsas məqsəd böyük güclərin razılığı olmadan beynəlxalq təhlükəsizlik sisteminin işləməyəcəyini nəzərə almaq idi. ABŞ, SSRİ, Böyük Britaniya, Fransa və Çin müharibənin qalib tərəfi kimi daimi üzvlük və veto hüququ qazandılar. O dövrdə bu yanaşma məntiqli görünürdü, çünki dünya düzəni yalnız həmin güclərin balansı üzərində qurula bilərdi. Lakin zaman keçdikcə həmin reallıqlar köhnəldi və Təhlükəsizlik Şurasının strukturu çağdaş çoxqütblü dünya ilə uzlaşmayan bir format kimi önə çıxdı.

Müasir mərhələdə legitimlik məsələsi ön plana çıxır. Təmsilçilik problemləri və veto hüququnun sui-istifadəsi BMT-nin əsas dayaqlarını sarsıdır. Əhalisinin sayına, iqtisadi gücünə və regional nüfuzuna görə yüksələn Hindistan, Braziliya, Türkiyə, Afrika dövlətləri kimi aktorların sistemli şəkildə qərarvermədən kənarda saxlanılması həm ədalət hissini zədələyir, həm də qərarların icrasında real dəstək bazasının daralmasına səbəb olur.

XXI əsrin çağırışları Təhlükəsizlik Şurasının daha çevik və inklüziv olmasını tələb edir. Münaqişələrdən əlavə iqlim böhranı, pandemiyalar, kibertəhlükəsizlik və qida böhranı kimi transmilli problemlər artıq qlobal təhlükəsizlik gündəminin mərkəzinə çıxıb. Lakin Şura hələ də əsasən ənənəvi hərbi-siyasi məsələlərə fokuslanır və yeni tipli problemlərdə vaxtında və effektli qərar qəbul etməkdə çətinlik çəkir. Bunun səbəbi strukturun dəyişməzliyi və qərarvermə mexanizmlərinin köhnəlməsidir. İslahat ehtiyacı danılmazdır, amma bunun reallaşdırılması asan deyil. Təhlükəsizlik Şurasının genişləndirilməsi, Qlobal Cənubun daha geniş təmsil olunması və veto hüququnun məhdudlaşdırılması barədə müzakirələr aparılsa da, bu məsələlər daimi üzvlərin siyasi iradəsindən asılıdır. Daimi üzvlərin öz mövqelərindən geri çəkilməsi ehtimalı zəif görünür. Məhz bu səbəbdən, ən real yol mərhələli islahatlar və adaptiv kooperasiya mexanizmləridir.

Belə şəraitdə sual ortaya çıxır: Böyük güclər öz maraqlarını bir kənara qoyaraq qlobal təhlükəsizlik üçün real addım atmağa hazırdırlarmı? Əgər cavab müsbət olarsa, BMT-nin islahat yolu açılar və “Dünya 5-dən böyükdür” tezisi yeni beynəlxalq düzənin təməl prinsiplərindən birinə çevrilər. Əks halda, XXI əsr çoxqütblülüyün gətirdiyi imkanlardan daha çox riskləri ilə yadda qalacaq.

*

BMT Baş Assambleyasının 80-ci sessiyası bir daha göstərdi ki, müasir beynəlxalq münasibətlərdə qarşıdurmalar və böhranlar qlobal idarəetmənin sınaq meydanıdır. Məsələn, Ukrayna müharibəsi Təhlükəsizlik Şurasının veto mexanizminin necə iflic effekti yaratdığını açıq göstərdi: Rusiya daimi üzv olaraq münaqişənin bir tərəfi olduğu üçün Şura hər hansı sərt və vahid qərar qəbul edə bilmədi. Blokada BMT-nin ənənəvi mandatlarına – humanitar yardımın təminatı, atəşkəs çağırışları və sanksiyaların koordinasiyası – təsir etdi və effektiv müdaxiləni gecikdirdi. Yaxın Şərqdə də vəziyyət oxşardır: İsrail–Fələstin münaqişəsi, Suriya böhranı və Yəməndə davam edən vətəndaş müharibələri göstərir ki, böyük güclərin maraqlarının toqquşduğu regionlarda BMT çox zaman kənardan müşahidəçi mövqeyinə çəkilir. Suriya münaqişəsində 2011-ci ildən bəri Təhlükəsizlik Şurası heç bir qərar qəbul edə bilməyib, çünki Rusiya və Çin veto hüququndan istifadə edərək BMT-nin hərəkət imkanını məhdudlaşdırıb.

Digər tərəfdən, Qlobal Cənub ölkələrinin – Hindistan, Braziliya, Cənubi Afrika, Nigeriya və s. – iqtisadi inkişaf problemləri və beynəlxalq iqtisadi sistemdəki qeyri-bərabərlik təşkilatın yalnız münaqişələrin idarəsi ilə məhdudlaşmamalı olduğunu göstərir. Bu ölkələr enerji, ərzaq və iqlim siyasətində artan rola malikdir, lakin qərarvermə mexanizmlərində hələ də kənarda qalırlar. Qlobal iqlim və enerji məsələləri üzrə razılaşmalarda Qlobal Cənub ölkələrinin tələbləri tez-tez gecikdirilir və nəticədə BMT tərəfindən idarə olunan qlobal tədbirlər effektini itirir. Bütün bunlar göstərir ki, BMT yalnız münaqişələri idarə edən deyil, həm də qlobal ədalətin bərpası və iqtisadi tarazlığın təmin olunması üçün əsas siyasi platforma olmalıdır. Burada isə növbəti əsas sual yaranır: BMT islahatsız mövcudluğunu davam etdirə bilərmi? Teorik baxımdan təşkilat tarixdə müəyyən dövrlərdə çox passiv rol oynasa da, formal olaraq fəaliyyətini qoruyub saxlayıb. Amma müasir şəraitdə islahatsız BMT getdikcə daha çox simvolik statusa geriləyəcək. Legitimlik problemi dərinləşdikcə onun qlobal siyasi proseslərdə çəkisi azalacaq. Yaranan boşluğu isə artıq görünən alternativ platformalar doldurmağa başlayır. BRICS-in genişlənməsi, ŞƏT-in Asiya məkanında təsirini artırması, “G20”-nin qlobal iqtisadi dialoq üçün əsas mərkəzə çevrilməsi onu göstərir ki, dünya nizamı tədricən parçalanır və regional bloklar öz qayda-setlərini formalaşdırmağa başlayır. Lakin bu fraqmentasiya heç də effektiv və universal idarəetmə demək deyil. Əksinə, qlobal problemlərin parçalanmış həlli beynəlxalq hüququn universallığını zəiflədir, dövlətlər arasında inamsızlığı artırır.

Əgər BMT öz rolunu qorumaq istəyirsə, islahat zəruridir. İslahat dedikdə isə yalnız texniki dəyişiklik deyil, həm də siyasi iradə tələb edən əsaslı dəyişikliklər nəzərdə tutulur. Təhlükəsizlik Şurasının genişləndirilməsi, veto hüququnun məhdudlaşdırılması və ya heç olmasa şəffaflaşdırılması bu baxımdan mühüm addımlardır. Burada böyük güclərin məsuliyyəti davranışı əsas şərtdir. ABŞ və Qərb hegemonluq iddialarından imtina etməsə, “qlobal qaydalar” yenə birtərəfli maraqlar üzərində qurulacaq və bu, yeni münaqişələrə yol açacaq. Çin və Rusiya yalnız öz geosiyasi təsirlərini genişləndirməklə kifayətlənərsə, BMT-də islahat təşəbbüsləri imitasiya səviyyəsində qalacaq. Real kompromis üçün böyük güclər qəbul etməlidirlər ki, XXI əsrdə beynəlxalq idarəetmənin legitimliyi yalnız ortaq maraqların qorunması ilə təmin edilə bilər. Əgər islahatlar həyata keçirilməsə, dünya yeni bir “soyuq müharibə+fraqmentasiya” modelinə sürüklənəcək: Bir tərəfdə Qərb blokları, digər tərəfdə Avrasiya və Qlobal Cənub platformaları olacaq. Mövcud model isə universal idarəetməni mümkünsüz edəcək, çoxqütblülüyün üstünlüklərini yox, risklərini qabardacaq. Əsas nəticə budur: BMT islahatsız yaşaya bilər, amma təsirli ola bilməz. Təsirini itirərsə, beynəlxalq münasibətlərdə yaranacaq boşluqlar xaos və anarxiya ilə doldurulacaq. Buna görə də BMT-nin islahatı XXI əsrdə qlobal sabitliyin taleyi məsələsidir. Deməli, XXI əsrin mürəkkəb çağırışları artıq 1945-ci ilin reallıqlarına uyğun qurulmuş BMT-nin çiyinlərinə sığmır. Dünya dəyişib, güc mərkəzləri çoxalıb, Qlobal Cənub öz sözünü daha qətiyyətlə deməyə başlayıb. Amma beynəlxalq sistem hələ də beş daimi üzvün vetosu ilə kilidlənmiş vəziyyətdədir. Əsas məsələ sadə, amma həlledicidir: Gələcək nizam yalnız daha geniş təmsilçilik, ədalətli qərarvermə və universal əməkdaşlıq əsasında mümkündür. Həqiqəti görməyən dövlətlər sabahın anarxiyasına hazır olmalı, qəbul edənlər isə gələcəyin sabitliyini inşa edə biləcəklər.






***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Paşinyanın komandası keçmişdə ilişib qalmamalıdır!



**(əvvəli 1-ci səhifədə)**

Bəli, avqustun 8-də Vaşinqtonda 30 ildən artıq davam etmiş münaqişəyə son qoyuldu, dövlətlərarası münasibətlərdə yeni səhifə açıldı. Bunun ən parlaq göstəricisi Azərbaycan və Ermənistan liderlərinin həmin gün Prezident Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamə oldu ki, sənəddə eyni zamanda, tərəflər arasında sülh sazişinin paraflandığı əksini tapdı.

Qeyd edək ki, Birgə Bəyannamə Azərbaycan–Ermənistan münasibətlərinin həm hazırkı spektrini müəyyənləşdirir, həm də gələcək üçün baza formalaşdırır, böyük nikbinlik yaradır. Sənəd, həmçinin, belə demək mümkünsə, müəyyən çərçivə müəyyənləşdirir. O çərçivə ki, qarşıdakı illərdə ona nəzərən başqa fəaliyyət istiqamətlərinə keçmək mümkündür. Keçid isə qarşılıqlı inam və etimaddan asılıdır.

Bakı ilə İrəvan arasında inamın və etimadın möhkəmlənməsinə gəldikdə, gələcəyə baxmaq, keçmişdə ilişib qalmamaq lazımdır. Ancaq Ermənistan rəhbərliyinin bəzi davranışları onun niyəsə keçmişdən yapışdığını göstərir. Bu da öz növbəsində Birgə Bəyannamənin ruhuna ziddir. Bu baxımdan bir cəhətə diqqət yetirək və yada salaq ki, Ermənistanın “Hraparaq” nəşri avqustun 30-da Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında telefon danışığının olduğuna dair məlumat yaymışdı. Nəşrin yazdığına görə, telefon əlaqəsi Bakının təşəbbüsü ilə reallaşıb. Söhbətin əsas mövzusu isə Azərbaycana qarşı hərbi cinayətlər törətməkdə təqsirləndirilən və Bakıda məhkəməsi davam edən ermənilər olub.

Məsələ ondadır ki, Vaşinqton görüşü zamanı Ermənistan nümayəndə heyəti ABŞ Prezidenti ilə müzakirədə bu məsələni qaldırmış, “xristian erməni məhbuslar”ın İrəvana verilməsini istəmişdi. Tramp mövzuya mümkün çərçivədə baxılmasını Azərbaycan tərəfindən xahiş edəcəyini söyləmişdi. “Hraparak” isə bildirmişdi ki, Hikmət Hacıyev Qriqoryanla telefon danışığında məsələnin gündəmə gətirilməsinin Azərbaycan və Ermənistan arasında əldə olunan sülh razılaşması və münasibətlərin normallaşmasına xələl gətirə biləcəyini vurğulamışdı. Həmçinin, ölkəmizə qarşı cinayətlərdə əli olan ermənilərin azad edilməsi məsələsinin nəzərdən keçirilmədiyini, bunun mümkün olmadığını qeyd etmişdi. H.Hacıyev həmin şəxslərin “xristian məhbuslar” adı ilə təqdimatının da doğru olmadığını nəzərə çatdırmış, mövzunun ümumiyyətlə qaldırılmamasının zəruriliyini bildirmişdi. Məlumata görə, Qriqoryan heç bir problemin olmadığını demiş və Hacıyevlə razılaşmışdı.

“Hraparaq” məlumatında onu da bildirmişdi ki, Ermənistan hökuməti Bakıdakı şəxslərlə (hərbi cinayətlərdə ittiham olunan ermənilərlə – red.) maraqlanmır, sadəcə, 2026-cı ildə keçiriləcək seçki öncəsi ictimaiyyətin gözündə üstünlük qazanmaq üçün onlardan bir-ikisinin azadlığa çıxması naminə çalışır. Əlbəttə, məlumdur ki, Paşinyan administrasiyası təmsilçilərinin Bakıda məhkəməsi gedən şəxslər üçün, loru dildə desək, gözləri uçmur, həttа, onları özlərinə potensial təhlükə qismində görürlər. Üstəlik, hazırda baş nazir Nikol Paşinyan çıxışlarında keçmişin mənfi stereotiplərindən uzaqlaşmağı təbliğ edir, erməni cəmiyyətinə yeni reallıqları çatdırır. Elə isə sual yaranır: Nə üçün “Bakıda saxlanılan erməni məhbuslar” məsələsi beynəlxalq platformalara daşınır? Hansı səbəbdən rəsmi İrəvan onların kiçik bir qisminin azadlığa çıxmasını 2026-cı il seçkilərində özünə dividend gətirəcək amil kimi nəzərə alır? Hər halda, sualların meydana çıxma səbəbi var.

***

Deməli, BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində Nyu-Yorkda olan Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidenti Miryana Spolaryç-Egger ilə görüşündə humanitar məsələlərin, xüsusilə “erməni hərbi əsirlərin və mülki şəxslərin azad edilməsi, həmçinin BQXK-nın Azərbaycandakı ofisinin bağlanması şəraitində onların ziyarətlərinin təşkilinin” müzakirəsini aparıb. Hələ tərəflər “Ermənistan və Azərbaycan arasında avqustun 8-dəki razılaşmanın humanitar problemlərin həllinə də töhfə verəcəyinə ümidvar olduqlarını bildiriblər”.

Sonuncu cümlə xüsusən yolverilməzdir. Belə nəticə hasil ola bilər ki, Azərbaycan sözügedən şəxsləri azadlığa buraxmamaqla Vaşinqton razılaşmasına xələl gətirir. Halbuki, avqustun 30-da Bakıdan İrəvana edilmiş telefon zəngində paytaxtımızda məhkəməsi gedən şəxslərin sülh gündəminə heç bir aidiyyatının olmadığı tam aydın şəkildə vurğulanıb, bu, öz yerində.

Digər tərəfdən, məsələsini beynəlxalq tribunalara daşıyan təkcə Mirzoyan deyil. Ermənistan parlamentinin sədri Alen Simonyan da bu baxımdan fərqlənir. O, Madriddə İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosiassla görüşündə mövzunu qabardıb. Görüşdə Ermənistan və Azərbaycan arasında Vaşinqtonda əldə olunmuş sülhün böyük əhəmiyyət daşıdığı önə çəkilib. A.Simonyan, “Azərbaycanda əsirlərin və qanunsuz saxlanılan şəxslərin problemi, xüsusilə itkin düşmüş hesab edilən şəxslər məsələsini” ispaniyalı həmkarının diqqətinə çatdırıb.

Göründüyü kimi, Ermənistanın bir rəsmi şəxsi, bir də hakim komandanın təmsilçisi, demək olar, eyni vaxtda eyni mövzunu qaldırır. Şübhəsiz, onlar Bakının mövqeyini çox yaxşı bilirlər. Onu da bilirlər ki, ölkəmiz prinsipial məqamlarda geri addım atmır və son 5 ildə yaşananlar bunun sübutudur. Hay hakim düşərgəsi durumu ciddi düşünməlidir.

Bəli, Ermənistan rəhbərliyi Azərbaycan dövlətinin qətiyyətindən xəbərdardır. Heç bir qüvvənin ölkəmizə təsir göstərməsi mümkün deyil. Yaxşı olar ki, Paşinyan administrasiyası Bakıda məhkəməsi gedən şəxslərin azadlığa çıxmaları xüsusunda dividend axtarışına, yeni gündəm yaratmaqla, Bakı ilə İrəvan arasında kövrək mərhələdə olan etimad quruculuğu tədbirlərinə zərər vurmasın.

Məsələyə digər prizmadan yanaşaq. Nəzərə alsaq ki, erməni iqtidarı həmin şəxslərdən, yumşaq desək, xoşlanmır, o zaman belə qənaətə gəlmək mümkündür ki, hay hakim düşərgəsi onların azadlığa qapılarını tamamilə bağlamaq fikrindədir. Bir halda ki, Azərbaycana təzyiq mümkün deyil, sözügedən mövzu beynəlxalq platformalara nə qədər çox daşınsa, bu, Bakının prinsipial mövqeyinin bir o qədər çox güclənməsi deməkdir.

Sonda onu da bildirək ki, ölkəmizin ədalət mühakiməsinə müdaxiləsinin yolverilməzliyini anlayan Paşinyan tərəfdarlarının müxtəlif xarici təmaslarda “Azərbaycanda saxlanılan hərbi əsirlər və girovlar” məsələsini gündəmə gətirməklə, Ermənistanın daxili ictimai rəyinə mesaj vermək istədikləri aydındır. Mesaj təxminən belədir: Rəsmi İrəvan müxaliflərin qaldırdıqları mövzu ilə ciddi məşğuldur, amma səylər nəticə vermir. Həmin müxaliflərin təbliğatı isə Azərbaycanın, guya, humanitar dəyərlərdən uzaq ölkə olması üzərində qurulur. Müvafiq olaraq Paşinyan iqtidarı belə bir ölkə ilə sülhdə qınanılır.

Yəni hazırda erməni hakim komandası üçün, necə deyərlər, yuxarı bığdır, aşağı saqqal. Belə bir durumda həmin komanda özü prinsipial davranmalı, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığı kimi, məhkəməsi gedən şəxslərin, ən azından, Ermənistanda yox, suveren Azərbaycanın ərazisində ələ keçdiklərini əsas götürməli, Ermənistandakı revanşist və şovinist kəsimə qarşı əks arqumentini məhz bu formada seçməlidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Böyük Britaniya parlament heyəti Milli Məclisdə



**Dünən Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Lord Aamer Safrazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Söhbət zamanı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, işçi qrupunun üzvü Səməd Seyidov, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fariz İsmayılzadə iki ölkə arasındakı əlaqələrin tarixi, parlament diplomatiyasının əhəmiyyətindən söz açıblar, bu əməkdaşlığın gələcəkdə daha da inkişaf edəcəyinə əminlik ifadə ediblər.

Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Aamer Safraz qeyd edib ki, bütün sahələrdə tərəfdaşlığın genişləndirilməsi ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayacaq.

Görüşdə bildirilib ki, Azərbaycan və Böyük Britaniya arasında əlaqələr iqtisadi, siyasi, humanitar, enerji sahələri ilə yanaşı, digər sahələri də əhatə edir və qarşılıqlı etimada əsaslanan münasibətləri əks etdirir.

*XQ*

# Baş nazirin müavini İranda



**Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana səfəri çərçivəsində Bəndər-Abbas şəhərində yerləşən Şimal–Cənub nəqliyyat dəhlizinin vacib tərkib hissəsi olan limana baş çəkib.**

Baş nazirin müavini və heyət üzvləri limana baxış keçirib və onun infrastrukturu ilə tanış olublar. İranın yol və şəhərsalma nazirinin müavini Səid Rəsuli liman haqqında geniş təqdimat verib və onun fəaliyyəti haqqında ətraflı məlumat təqdim edib.

Görüş zamanı mümkün əməkdaşlıq imkanları ətrafında müzakirələr aparılıb. Şahin Mustafayev ilə Hormuzqan əyalətinin valisi Məhəmməd Aşouri Taziani arasında görüş keçirilib və əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# Leyla Əliyeva Sloveniya Prezidentinin həyat yoldaşı Ales Musarla görüşüb



**Sentyabrın 25-də Nyu-Yorkda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qarşı tərəfin müraciəti əsasında Sloveniya Prezidentinin həyat yoldaşı Ales Musar ilə görüşüb.**

Görüşdə Ales Musar Sloveniya Respublikasının Hökuməti tərəfindən 1998-ci ildə mina qurbanlarına dəstək məqsədilə yaradılmış "İnsan Təhlükəsizliyinin Artırılması" (ITF) adlı humanitar qeyri-kommersiya təşkilatının fəaliyyəti barədə məlumat verdi.

Heydər Əliyev Fondunun vitse-prezidenti ölkəmizin üzləşdiyi mina probleminə diqqəti çəkdi. Leyla Əliyeva qeyd etdi ki, minalar Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə və "Böyük Qayıdış" Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin öz yurdlarına qaytarılması prosesinə ciddi maneə törədir. Buna baxmayaraq, Azərbaycan tərəfindən genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyətinin aparıldığı və mina qurbanlarına dəstəyin göstərildiyi, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə tədbirlərinin həyata keçirildiyi bildirildi.

Söhbət zamanı dünyada su qıtlığı problemi, Xəzər dənizində suyun səviyyəsinin azalması ilə bağlı fikir mübadiləsi aparıldı, Sloveniyada keçirilən Bled Su Forumunun əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycan ilə Sloveniya arasında bu sahələr üzrə əməkdaşlıq imkanları müzakirə olundu.

*XQ*

# Kamran Əliyev Özbəkistanda



**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Özbəkistanda səfərdədir.**

Səfər çərçivəsində əvvəlcə Özbəkistan Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Söhbət zamanı ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Özbəkistanın Baş prokuroru Niqmatilla Yuldaşev iki dövlətin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib. Kamran Əliyev Özbəkistan – Azərbaycan müttəfiqlik münasibətlərinin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini qeyd edib.

Baş prokurorlar "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Özbəkistan Respublikasının Baş Prokurorluğu arasında 2026-2027-ci illər üçün nəzərdə tutulmuş Əməkdaşlıq Proqramı" imzalayıblar.

Kamran Əliyev dünən Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının 4-cü iclasında Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri olan rəqəmsallaşma və elektron idarəetmənin inkişafından, Azərbaycan Prokurorluğunun fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqindən danışıb.

*XQ*

# BMT-də Azərbaycanın sədrliyi ilə AQEM-in iclası



**Dünən Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Xarici İşlər Nazirləri Şurasının Azərbaycan Respublikasının Sədrliyi ilə qeyri-rəsmi iclası keçirilib.**

Toplantıda AQEM-ə üzv dövlətlərin xarici işlər nazirləri və digər yüksəksəviyyəli nümayəndələri tərəfindən 2024-cü ilin dekabrından etibarən Azərbaycanın AQEM-də Sədrliyi dövründə əldə olunmuş tərəqqi müzakirə edilib, aktual regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov AQEM Nazirlər Şurasının sədri qismində açılış nitqi ilə çıxış edərək Sədrliyin müxtəlif sahələr, o cümlədən bağlantılar, rəqəmsallaşma və dayanıqlılıq istiqamətləri üzrə müəyyən olunmuş strateji prioritetlərini vurğulayıb.

AQEM Baş katibi və Təşkilata üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri də bəyanatlarla çıxış ediblər. Natiqlər Azərbaycan Sədrliyinin nümunəvi liderliyini, baxışını və AQEM-i gücləndirməyə sadiqliyini yüksək qiymətləndiriblər.

İclas əlamətdar qərarların qəbulu, xüsusilə iki yeni məsləhətçi orqanın – AQEM Maliyyə Sammiti və AQEM Qadınlar Şurasının yaradılması ilə yekunlaşıb. Nazirlər Şurası, eyni zamanda, İkinci Dünya müharibəsinin bitməsi və Birləşmiş Millətlər Təşkilatının yaradılmasının 80-ci ildönümü münasibətilə bəyanatlar qəbul edib.

Nazirlər Şurasının Bəyanatında Azərbaycanın AQEM Sədrliyinin səyləri yüksək qiymətləndirilib.

*XQ*

# Azərbaycan və Estoniya XİN rəhbərlərinin dialoqu

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-də estoniyalı həmkarı Marqus Tsaxkna ilə görüşüb.**

Nazirlər Azərbaycan və Estoniya arasında dialoqun siyasi məsləhətləşmələr və qarşılıqlı səfərlər vasitəsilə intensivləşdirilməsinin vacibliyini vurğulayaraq, ikitərəfli əlaqələrin genişləndirilməsi imkanlarını qeyd ediblər.

Ceyhun Bayramov Azərbaycanın regionda sülh quruculuğu səyləri, o cümlədən Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və Vaşinqton sammitinin yekunları barədə estoniyalı həmkarını məlumatlandırıb.

Tərəflər BMT və digər beynəlxalq platformalarda, ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlığı dərinləşdirməyə hazır olduqlarını bir daha təsdiqləyiblər.

*XQ*

*Xuntaçıların məhkəməsi*

# Sənədlər, faktlar Ermənistanın hərbi cinayətlərinə şahidlik edir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 25-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası Ermənistanın müdafiə nazirinin sabiq müavini Manvel Qriqoryanın mətbuata müsahibəsinin cinayət işi üzrə sübut kimi tədqiq olunması ilə davam etdirilib. Ermənistandan Azərbaycan ərazilərini işğal etməsi üçün göndərilmiş M.Qriqoryan müsahibədə Ermənistandan aldığı təlimatlar əsasında Azərbaycanın suveren ərazilərində, o cümlədən Ağkənddə törətdiyi cinayətlər, o cümlədən təxribatlar barədə danışıb.

Müsahibədə M.Qriqoryan Ermənistanın keçmiş prezidentləri Robert Koçaryanın və Serj Sarkisyanın Azərbaycan ərazilərinin vaxtilə işğal edilməsində iştirakından da danışıb. O, Ermənistandan yüksəkrütbəli hərbçilərin, general və polkovniklərin Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində hərbi bölmələr yaratmaq üçün göndərildiyini də söyləyib. M.Qriqoryan azərbaycanlıların qətlə yetirildiyini, kəndlərin talan edildiyini də etiraf edib və deyib: "Başladıq türklərin (azərbaycanlıların – red.) kəndlərini tutmağa. Girirdik, kəndləri dağıdırdıq, məhv edirdik.

M.Qriqoryan Ermənistan silahlı qüvvələrinə məxsus briqadanın komandiri olmasından da bəhs edib. Bildirib ki, bununla əlaqədar Ermənistana çağırılıb, müdafiə naziri Vazgen Manukyanın əmri ilə Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərinə göndərilib. Bundan sonra Azərbaycanın Füzuli rayonunun 47 kəndini işğal ediblər.

Daha sonra məhkəmədə cinayət işi üzrə bir sıra sənədlər elan olunub. 1992-ci il iyunun 8-də Qazax rayonunun Aşağı Əskipara və digər kəndlərinin atəşə tutulması, 1992-ci il fevralın 29-da hərbi hissənin şəhərciyinə basqın edilməsi, hərbi hissədən silah-sursatın ələ keçirilməsi, 1993-cü il dekabrın 16-da Beyləqan şəhərinin artilleriya atəşinə tutulması, Xankəndi şəhərinin və Kərkicahan qəsəbəsinin işğal edilməsi faktları üzrə sənədlər elan edilib.

Şuşa rayonunun, Xankəndi şəhərinin, Xocavənd, Xocalı, Ağdərə, Laçın, Kəlbəcər, Füzuli, Qubadlı, Cəbrayıl, Ağdam və Zəngilan rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində əhalinin yaşadığı ərazidən didərgin düşməsi (deportasiya) ilə bağlı sənədlər də elan olunub.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsirlikdə olan hərbi qulluqçuları və beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki və digər şəxslərlə amansız rəftar edilməsi, işgəncələr verilməsi, Birinci Qarabağ müharibəsi zamanı dəfn edilmiş naməlum şəhid məzarları, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin meyit qalıqlarının Şuşa şəhərində təhvil verilməsi, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlığın aşkar edilməsi faktları üzrə sənədlər də elan edilib.

Elan olunan digər sənədlər azərbaycanlıların öldürülməsi, xəsarət yetirilməsi, öldürülməsinə cəhdlər və digər cinayətlərlə bağlı olub.

Sənədlərlə eyni vaxtda bir sıra fotoşəkillər də nümayiş etdirilib.

Məhkəmə prosesi sentyabrın 26-da davam etdiriləcək.

*XQ*

# Şarl Mişelin sülh mesajı

## *Aİ-nin sabiq prezidenti Zəngəzur dəhlizinin regiona sabitlik gətirəcəyinə inanır*

**Ermənistan–Azərbaycan münaqişəsinin ilk dövrlərində bir sıra beynəlxalq təşkilatlar və xarici ölkələrin dövlət başçıları tərəfindən qan tökülməsini dayandırmaq üçün bəzi təşəbbüslər irəli sürülmüşdü. Bu təşəbbüslər əsasında müxtəlif görüşlər keçirilmiş, müzakirələr aparılmışdı.**



1992-ci ilin əvvəlində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (hazırkı ATƏT – S.H.) prosesə cəlb olunmasından, onun Minsk qrupunun yaradılmasından sonra məlum təşəbbüslərin sayı azaldı. Minsk qrupu sülh prosesini, necə deyərlər, öz inhisarına aldı. Qrupun fəaliyyətinin xarakteri barədə nə isə yazmağa ehtiyac duymuruq. Çünki proses Azərbaycan xalqının gözləri önündədir və ona bəllidir.

Sülh prosesinin səmərəsizliyi, Minsk qrupu həmsədrlərinin öz maraqlarından çıxış etmələri, status-kvonu möhkəmləndirmək istəyi, Ermənistanın bir qarış torpağı da danışıqlar yolu ilə geri qaytarmaması İkinci Qarabağ müharibəsinə gətirib çıxardı. Nəticədə, Azərbaycan dövləti və xalqı özü gücü hesabına 30 ilə yaxın davam edən işğal faktını aradan qaldırdı, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Bundan sonra prosesdə sanki bir boşluq yarandı.

Hər bir məsələyə dair sərrast fikirləri, doğru-düzgün dəyərləndirməsi ilə seçilən Prezident İlham Əliyev 2025-ci il avqustun 26-da Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalında yayımlanan müsahibəsində bu barədə bildirib: "Biz sülh sazişinin layihəsini təqdim etdik. Əslində, avqustun 8-də Vaşinqtonda paraflanmış sənəd Ermənistan–Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır. Qeyd etdiyim kimi, danışıqlar bir neçə il davam etdi və nəhayət Vaşinqtonda Prezident Trampın və onun komandasının böyük dəstəyi ilə başa çatdı. Mən hesab edirəm ki, bu, münaqişənin, müharibənin sonudur".

Qeyd etdiyimiz həmin boşluq dönəmində yeni bir format yarandı ki, bu da şərti olaraq "Brüssel formatı" adlanır. O dövrdə Rusiya yenə də prosesdə aparıcı rol oynamağa çalışırdı. Hamının yaxşı xatirindədir ki, müharibənin başa çatmasından sonra Azərbaycan və Rusiya prezidentləri, Ermənistan Baş naziri arasında ilk üçtərəfli görüş 2021-ci il yanvar ayının 11-də Moskvada keçirilmişdi. Hətta Rusiyanın vasitəçiliyi ilə regionda kommunikasiyaların açılması, iqtisadi əlaqələrin qurulması ilə məşğul olmaq üçün baş nazirlərin müavinlərinin iştirakı ilə üçtərəfli İşçi Qrupu da yaradılmışdı.

Ancaq qeyd etdiyimiz kimi, Rusiya ilə bərabər 2021-ci ildən iki ölkə arasında Avropa İttifaqının vasitəçiliyi ilə "Brüssel formatı" adlanan danışıqlar prosesi də başladı. Bu format çərçivəsində ilk üçtərəfli görüş 2021-ci il dekabrın 14-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə baş tutdu. Bununla Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin də əsası qoyuldu. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparıldı, telefon danışıqları gerçəkləşdi. Həmin ilin noyabrında Brüsseldə təşkil olunan görüşdə kommunikasiyaların açılması, Zəngəzur dəhlizi mövzusu artıq gündəliyə salınmışdı. Sonrakı görüş və müzakirələrin xronologiyası belədir: 2022-ci ilin aprelində ikinci, həmin ilin may ayında üçüncü, avqustda dördüncü görüş keçirildi. Bu görüşlərin hamısında humanitar məsələlər, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının qarşılıqlı açılması və təbii ki, sülh sazişinin hazırlanması müzakirəyə çıxarılmışdı.

Ermənistan–Rusiya münasibətlərinin korlanması, İrəvanın Rusiyadan uzaqlaşması və Qərbə yaxınlaşması fonunda Brüsselin vasitəçiliyinin əhəmiyyəti daha da artmış və sülh sazişinin imzalanması ətrafında müzakirələr daha da ciddiləşmişdi. Təsadüfi deyil ki, 2022-ci ilin aprelində keçirilən görüşdə iki ölkə birgə sərhəd komissiyasının yaradılmasına, oktyabrın 7-də Praqada Avropa Siyasi Birliyinin sammmiti çərçivəsində keçirilən görüşdə isə tərəflər bir-birinin ərazi bütövlüyünün tanınması və Aİ müşahidə missiyasının sərhəddə yerləşdirilməsinə razılaşdı.

Lakin sonradan baş verən bəzi hadisələr ölkəmizin Brüssel formatında keçirilən görüşlərdə iştirakdan rəsmi şəkildə imtina etməsinə gətirib çıxardı. Prezident İlham Əliyev noyabrın 25-də Bakıda "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda dekabrın 7-nə planlaşdırılan Brüssel sammitinə qatılmayacağını bildirdi. Dövlətimizin başçısı buna səbəb kimi noyabrın 15-də Fransa Senatının Azərbaycana qarşı sanksiya çağırışını və Emmanuel Makronun müsahibəsində Azərbaycan əleyhinə fikirlərini göstərdi. 2023-cü ilin may və iyul aylarındakı görüşlərdə iştirak edən Azərbaycan haqlı olaraq bu formatda oktyabr ayına planlaşdırılan daha bir görüşə – Qranada görüşünə qatılmaqdan imtina etdi.

Bununla da Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan Ermənistan arasındakı 2023-cü ilin iyulunda son görüş oldu və bundan sonra Aİ-nin vasitəçiliyi sonlandırıldı. Əvəzində Azərbaycan Ermənistanla münasibətləri regional formatlarda və ya iki tərəfli danışıqlarda həll etməyi təklif etməyə başladı. Məlumdur ki, bu format özünü doğrultdu və onun kulminasiya nöqtəsi avqustun 8-də Vaşinqtonda sülh sazişinin paraflanması oldu. Bununla belə Aİ-nin, onun sabiq rəhbəri Şarl Mişelin iki ölkənin mövqelərinin yaxınlaşması prosesindəki rolu, əhəmiyyəti qeyd edilməlidir.

*

Sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində keçirilən görüşlərdə iştirak edən Şarl Mişel Azərbaycan mediasına açıqlamasında deyib: "Bir neçə il bundan əvvəl Azərbaycan və Ermənistan üçün bir-birini daha yaxşı başa düşmək və məkan tapmaq son dərəcə çətin idi. Mən Brüssel formatı ilə əlimdən gələni etməyə çalışmışam".

O, bildirib ki, Brüsseldə Azərbaycanla Ermənistanın danışıqlar aparması üçün bir sıra fürsətlər baş tutub: "Bəzən çox çətin idi, çünki fikir ayrılığı var idi. Amma mən hiss etdim ki, irəliləyiş əldə etmək və sülh sazişinə doğru müəyyən addımlar atmaq üçün iradə var. Mən çox şadam ki, bu addımlar atılır. Bilirəm ki, hələ bəzi çətinliklər var, amma ərazi bütövlüyünü möhkəmləndirmək, qarşılıqlı suverenliyin tanınmasını təmin etmək üçün çalışmaq vacibdir. Qarşılıqlı əlaqə çox vacib məsələdir, çünki uzunmüddətli perspektivdə iqtisadi layihələr nə qədər çox olarsa, investisiyalar da bir o qədər artacaq. Mən çox şadam ki, bizim Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlara kömək etmək üçün bəzi fürsətlərimiz olub. Ümid edirəm ki, gələcəkdə bu irəliləyişləri möhkəmləndirmək mümkün olacaq".

Aİ Şurasının sabiq rəhbəri Zəngəzur dəhlizinin açılmasının iki ölkə arasında sabitliyin möhkəmlənməsinə və sülh sazişinin həyata keçirilməsinə təkan verəcəyini deyib. Onun sözlərinə görə, dəhliz Avropa İttifaqı ilə Cənubi Qafqaz və Mərkəzi Asiya arasında bağlantı yaradacaq.

**Politoloq İlyas Hüseynov XQ-yə bildirdi ki,** Şarl Mişelin fikirləri Aİ-nin bölgədəki proseslərdə həlledici rol oynamaq istədiyini və vasitəçiliyi davam etdirmək niyyətində olduğunu göstərir. Onun sözlərinə görə, Mişel diqqəti məhz suverenliyin tanınması və ərazi bütövlüyünün möhkəmləndirilməsi üzərində cəmləşdirir ki, bu da Azərbaycanın maraqları ilə üst-üstə düşür: "Açıqlamada diqqət çəkən digər məqam



iqtisadi əməkdaşlığın vacibliyinə dair fikirlərdir. Şarl Mişel qeyd edir ki, qarşılıqlı əlaqələrin artması, sərhədlərin açılması və layihələrin həyata keçirilməsi uzunmüddətli sülhün təmin edilməsində əsas şərtlərdəndir. Bu, Avropanın yanaşmasına tam uyğun gəlir – yəni siyasi sabitliyin iqtisadi inteqrasiyanın nəticəsi kimi formalaşdırılması".

Ekspertin fikrincə, Ş.Mişelin Zəngəzur dəhlizinə dair fikirləri isə strateji əhəmiyyət kəsb edir: "O, dəhlizin yalnız Azərbaycan–Ermənistan münasibətlərinə deyil, həm də Avropa İttifaqı ilə Cənubi Qafqaz və Mərkəzi Asiya arasında bağlantıların gücləndirilməsinə xidmət edəcəyini bildirdi. Əslində, Aİ üçün bu layihə enerji təhlükəsizliyi və nəqliyyat marşrutlarının şaxələndirilməsi baxımından mühüm fürsət hesab olunur. Azərbaycan da artıq regional nəqliyyat və logistika mərkəzinə çevrilməkdədir və Zəngəzur dəhlizi bu mövqeyi daha da möhkəmləndirə bilər. Mişelin sözləri göstərir ki, Aİ bu layihəni yalnız iki ölkənin münasibətlərinin normallaşması üçün deyil, bütövlükdə Avrasiya məkanını birləşdirən strateji körpü kimi görür. Nəticə etibarilə, Aİ Şurasının sabiq rəhbərinin açıqlamaları həm Azərbaycan üçün diplomatik üstünlük, həm də region üçün yeni perspektivlərin mesajlarıdır. Ərazi bütövlüyünün tanınması və qarşılıqlı suverenliyin təmin olunması fonunda iqtisadi əməkdaşlıq imkanlarının genişlənməsi gələcək sülh sazişinin real zəminə çevrilməsinə xidmət edə bilər".

***Səxavət HƏMİD***
***XQ***

# Bakı–Tirana: perspekti və açılan strateji pəncərə

## *Azərbaycanın Balkanlarda dinamik əlaqələri daha da genişlənir*



**Azərbaycan son illər xarici siyasət vektorunu şaxələndirərək Avropa, xüsusilə Balkan yarımadası ölkələri ilə münasibətləri yeni, praqmatik əsaslarla qurur. Bu zaman Bakı geosiyasi platformaların təşəbbüskarı kimi çıxış edir. Əslində, bu proses Cənubi Qafqazın diplomatik xəritəsini yenidən çəkir və Azərbaycanı Balkan yarımadasına bağlayan yeni siyasi körpülərin əsasını qoyur. Rəsmi Bakı öz diplomatiyasını regional reallıqlara uyğunlaşdırır: Tərəfdaş dairəsini genişləndirir, enerji və nəqliyyat gündəliyini Avropanın strateji bölgəsinə – Balkanlara daşıyır. Məhz belə bir məqamda Azərbaycan–Albaniya siyasi məsləhətləşmələrinin başlanması təsadüfi deyil, strateji planın davamı sayılmalıdır.**

Sentyabrın 24-də Tiranada Azərbaycan və Albaniya arasında birinci siyasi məsləhətləşmələr keçirildi. Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Albaniya heyətinə isə Avropa və xarici işlər nazirinin müavini Endrit Yzeiraj rəhbərlik edib. Görüşdə siyasi, iqtisadi və humanitar əməkdaşlığın mövcud vəziyyəti geniş müzakirə olunub. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən strateji enerji və nəqliyyat layihələrinin iki ölkə münasibətlərinə verdiyi töhfələr vurğulanıb. Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığı dərinləşdirməyin vacibliyini qeyd edib, qlobal, regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar. Bu görüş, faktiki olaraq, Bakı ilə Tirananın yaxın gələcəkdə siyasi məsləhətləşmələri institusional səviyyəyə qaldıracağını deməyə əsas verir. Diplomatik kanalların belə aktivləşməsi həm ölkəmiz üçün Avropada yeni dəstək nöqtələri, həm də Albaniya üçün etibarlı enerji tərəfdaşlığı deməkdir.

Hələ məsləhətləşmələrdən öncə Azərbaycan–Albaniya münasibətləri yüksək səviyyəli təmaslarla zənginləşmişdi. Ötən il Albaniyanın Baş naziri Edi Rama Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak üçün Bakıya rəsmi səfərlərində Azərbaycanla enerji əməkdaşlığının yeni mərhələsinə start verdiyini bəyan etmişdi: "...bu yeni Enerji İpək Yolu olan Cənub Qaz Dəhlizi sıx əməkdaşlıq baxımından bir körpü oldu və ölkələri, şirkətləri, maliyyə institutlarını elə bir formatda bir araya gətirdi ki, layihənin təklif etdiyi imkanlara daha da istəyi daha da artırdı. İndi bu format elə bir körpü rolunu oynayır ki, artıq onun tərkib hissəsini yaşıl enerji təşkil edir".

Azərbaycan Prezidenti İlham Əliyev də öz növbəsində iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etmişdi: "Azərbaycan və Albaniya iki dost ölkədir. Biz müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik. Bizim olduqca fəal siyasi dialoqumuz var. Cənab Baş nazirlə istər Azərbaycan, istər Albaniya, istərsə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsindəki görüşlərimizin müntəzəm gündəliyi var. Biz bir-birimizi beynəlxalq təsisatlarda dəstəkləyir, habelə enerji təhlükəsizliyi məsələlərində fəal çalışırıq".

Baş naziri Edi Rama 2024-ü il noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində cənab İlham Əliyevlə görüşmüş və ölkələr arasında münasibətlərdən məmnunluğunu ifadə etmişdi. Albaniya Prezidenti Bayram Beqay Nyu-Yorkda davam edən BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Çoxtərəflilik yolayrıcında: Çağırışlar və sülhə gedən yol" adlı yan tədbirdə çıxışı zamanı Azərbaycanla çox yaxşı dialoqun olduğunu və iqtisadi əməkdaşlığın daha da gücləndirilməsi yeni edərək, Bakı–İrəvan münasibətlərinin normallaşmasını alqışladığını bildirib.

Sözsüz ki, Prezident İlham Əliyevin Avropa Siyasi Birliyinin VI Zirvə tolantısı çərçivəsində Tirana səfəri münasibətləri daha yüksəklərə qaldırdı. Səfər Bakı ilə Tirananın strateji tərəfdaşlıq hədəflərini rəsmiləşdirdi. Həmçinin Tirana səfərindən sonra növbəti dəfə beynəlxalq miqyasda ölkəmizə etimad göstərilərək, Avropa Siyasi Birliyinin 12-ci sammitinin 2028-ci ilin birinci yarısında Azərbaycanda keçirilməsinə qərar verildi. İlham Əliyev həmin səfərdə Albaniyanın Cənub Qaz Dəhlizindəki rolunu yüksək qiymətləndirərək, bu əməkdaşlığın Avropanın enerji təhlükəsizliyi üçün mühüm olduğunu vurğulamışdı.

Azərbaycanın Balkanlara yönələn diplomatiyası həm regionun enerji xəritəsini, həm də siyasi dinamikanı dəyişir. Albaniya kimi NATO üzvü və Avropaya açar ölkə ilə dialoqun artması Azərbaycanın həm Brüssel, həm də Vaşinqton platformalarında mövqelərini möhkəmləndirir. Bakı artıq Cənubi Qafqazın sülh və sabitlik ixracatçısı kimi çıxış edir, bunu Balkanlara qədər genişləndirir.

Gözlənti ondan ibarətdir ki, Bakı–Tirana siyasi məsləhətləşmələri birdəfəlik formatda qalmayacaq, əksinə, növbəti illərdə iqtisadi, infrastruktur və hətta mədəni layihələrə yol açacaq. Enerji ilə başlayan bu dialoq qarşılıqlı investisiya və texnologiya mübadiləsi ilə davam edə bilər.

Azərbaycan–Albaniya münasibətləri artıq strateji tərəfdaşlıq xəttinə qədəm qoyur. Bakı Balkanlarda öz mövqeyini möhkəmləndirir, Avropanın enerji gündəliyinə real töhfələr verir və yeni müttəfiqlər qazanır. İkitərəfli siyasi məsləhətləşmələr, əslində, Azərbaycanın xarici siyasət xəritəsində Balkan yarımadasının daha qabarıq görünəcəyinin müjdəçisidir.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Aydın HÜSEYNOV,**
**Milli Məclisin deputatı**

Azərbaycan ilə Albaniya arasında keçirilən ilk siyasi məsləhətləşmələr gələcək regional münasibətlərə açılan strateji pəncərədir. Görüş Azərbaycanın balkanlarla əlaqələrinin yeni mərhələyə qədəm qoyduğunu təsdiqləyən hadisə kimi qiymətləndirilməlidir. Azərbaycan artıq uzun müddətdir ki, enerji və nəqliyyat layihələrinin aparıcı qüvvəsi, etibarlı tərəfdaşı kimi Avropada tanınır. Amma bu dəfə söhbət bütöv bir siyasi iradədən, regional sabitlik və qarşılıqlı etimadın möhkəmləndirilməsindən gedir.

Albaniyanın bu kontekstdə xüsusi rolu danılmazdır. Bu ölkə həm Trans-Adriatik Boru Kəmərinin əsas üzvlərindən biridir, həm də Adriatik dənizinə çıxışı ilə Balkanları Avropanın dərinliklərinə bağlayan mühüm qapıdır. Azərbaycanla Albaniya arasında siyasi məsləhətləşmələrin başlaması bu iki ölkənin Cənub Qaz Dəhlizi ilə başlayan əməkdaşlığını daha geniş müstəviyə çıxarır. Enerji təhlükəsizliyinin yeni çağırışlarla üzləşdiyi bir dövrdə Bakı və Tirana arasındakı yaxınlıq həm də siyasi və humanitar əməkdaşlığın genişlənməsinə yol açır.

İndi isə bu münasibətlərin humanitar ölçüsü də diqqət mərkəzinə gətirilir. Təhsil, mədəniyyət, turizm sahəsində əməkdaşlıq xalqlar arasında bağları möhkəmləndirəcək, siyasi etimadı daha dayanıqlı edəcək. Beləliklə, Albaniya ilə başlanan siyasi məsləhətləşmələr bütöv Balkan regionunu Azərbaycanla birləşdirən yeni körpülərin salınmasına gətirib çıxaracaq.

Azərbaycanın Balkanlarla yaxınlaşması, əslində, ölkəmizin Avropadakı strateji çəkisinin artmasının göstəricisidir. Və bu çəkini formalaşdıran, Azərbaycanın adını etibarlılıq simvoluna çevirən əsas amil Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətdir.

# Dövlət başçıları Nyu-Yorka, Paşinyan Moskvaya gedib...

## *Ermənistanın Rusiyadan enerji asılılığı öz sözünü deyir*

**Moskvada "Rosatom" dövlət korporasiyası tərəfindən təşkil olunan Ümumdünya Atom Həftəsi başlayıb. Nüvə enerjisi və əlaqəli sahələr üçün nəzərdə tutulan bu forum, eyni zamanda, Rusiya nüvə sənayesinin 80 illik yubileyinə təsadüf edir. Tədbirdə dünyanın 100-dən çox ölkəsindən nümayəndə, o cümlədən nazirlər, iri şirkətlərin rəhbərləri, alimlər, aparıcı KİV-lərin təmsilçiləri iştirak edirlər. İştirakçılar arasında Rusiya nüvə sənayesinin mütəxəssisləri, beynəlxalq təşkilatların yüksəkvəzifəli nümayəndələri, tələbələr var. Belə miqyasda və formatda "Atom Forumu" ilk dəfə təşkil olunur. Ermənistan baş naziri Nikol Paşinyan da Ümumdünya Atom Həftəsində iştirak etmək üçün Rusiyaya gəlib. Həmçinin xarici qonaqlar arasında Belarus Prezidenti Aleksandr Lukaşenko, Efiopiyanın baş naziri Abiy Əhməd, Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Rafael Qrossi və başqaları var.**



Nikol Paşinyanın Moskvaya gəlişi işgüzar xarakter daşısa da, bu səfərin arxasında başqa məqamlar dayanır. Bu bir növ məcburiyyətdən edilib desək, yanılmarıq. Çünki Ermənistanın enerji sahəsində Rusiyadan asılılığı uzun illər ərzində formalaşıb və indi də müxtəlif səviyyələrdə özünü göstərir. Bura elektrik enerjisi, təbii qaz və digər infrastrukturlar daxildir.

Qeyd edək ki, Ermənistanın elektrik enerjisi və qazla təchizatında əsas rol "Rusatom" və "Gazprom" kimi Rusiya şirkətlərinə məxsusdur. Məsələn, ölkənin əsas nüvə stansiyası olan Metsamor AES Rusiya texnologiyası əsasında fəaliyyət göstərir, onun təhlükəsizliyinin təmin olunmasında da rusiyalı mühəndislər və ekspertlər əvəzsiz rol oynayırlar. Təbii qaz sahəsində isə Ermənistan tamamilə Rusiyaya bağlıdır. Ölkəyə idxal olunan qazın böyük hissəsi "Gazprom"un payına düşür. Ermənistanın enerji sektoru Rusiyadan daha çox asılıdır.

Əvvəlki illərə nəzər salanda görürük ki, 2022-ci ildə ölkədə elektrik enerjisinin 70 faizi Rusiyadan gətirilən enerji məhsulları hesabına istehsal olunub. Həmin dövrdə idxal edilən təbii qazın 87.7 faizi Rusiyadan, 12.1 faizi isə İrandan alınıb. Maye qaz idxalında isə Rusiyanın payı 90.3 faizə, İranın payı isə 9.2 faizə çatıb. Rusiya həm də Ermənistanda benzin və dizelin əsas təminatçısıdır. 2022-ci ildə neft məhsullarının 76.1 faizi Rusiyadan idxal olunub. 2023-cü ilin ilk yarısında Rusiya bu sahədə 74.3 faizlik paya malik olub.

Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistanın yeganə AES-i Metsamor da Rusiyanın "Rusatom" şirkəti tərəfindən idarə olunur. Stansiyanın fəaliyyəti üçün uran idxal olunur, radiaktiv tullantılar rus şirkəti tərəfindən emal edilir. Stansiya ölkədə istehsal olunan elektrik enerjisinin 35-40 faizini təmin edir. Fəaliyyət müddəti 2012-ci ildə bitməsinə baxmayaraq, yeniləmə işləri nəticəsində 2027-ci ilə qədər uzadılıb. Bunun üçün Moskva İrəvana 270 milyon dollar kredit və 30 milyon dollar qrant ayırıb. Ermənistanın enerji sahəsində Rusiya ilə əlaqələri 2023 və 2024-cü illərdə də yüksək səviyyədə qalıb.

Ermənistanın Rusiyadan enerji asılılığı həm də ölkənin xarici siyasətində öz "əksini" tapır. Enerji resursları vasitəsilə Moskva İrəvana təsir imkanlarını genişləndirir və bəzən Ermənistanı regional layihələrdə Rusiyanın maraqlarına uyğun qərarlar verməyə məcbur edir. İrəvan enerji və təhlükəsizlik məsələlərində Moskvaya bağlı olduqca, onun iqtisadi müstəqilliyi ciddi şəkildə azalır. Bununla yanaşı, Ermənistanın enerji sahəsindəki asılılığı ölkənin daxili iqtisadi inkişafına da mənfi təsir göstərir. Eyni zamanda, ölkənin enerji təhlükəsizliyinin xarici dəstəyə bağlılığı siyasi riskləri artırır. Belə olduğu halda, Ermənistanın Rusiyadan asılılığı həm iqtisadi, həm siyasi, həm də strateji baxımdan ciddi problem olaraq qalır. Enerji diversifikasiyasının olmaması İrəvanın hər hansı müstəqil addımlar atmasının qarşısında ən böyük əngəldir.

Nikol Paşinyan hökuməti artıq bir neçə ildir ki, iqtisadi və siyasi diversifikasiya istiqamətində addımlar atıldığını iddia etsə də, ötənilki statistika bunun tam əksini deyir. 2024-cü ilin ilk doqquz ayında Ermənistanın xarici ticarət həcminin Rusiyadan asılılığı 5,3 faiz artaraq 41,1 faizə yüksəlib. Eyni zamanda, Avropa İttifaqı ölkələri ilə ticarət dövriyyəsi 17 faiz azalaraq, ümumi payı 7,2 faiz düşməyə məruz qalıb. Ekspertlər bu rəqəmlərin Ermənistanın xarici ticarət strategiyasında tarazlığın daha da pozulduğunu və asılılığın göstərdiyini qeyd edirlər. Halbuki, rəsmi İrəvan dəfələrlə Qərb dövlətləri ilə iqtisadi əlaqələrin genişləndiyi barədə açıqlamalar verib.

Bir məqamı da qeyd edək ki, Ermənistan xüsusilə İkinci Qarabağ müharibəsindən sonra Rusiya ilə əlaqələrin pozulduğunu desə də, Rusiyanın sanksiyalardan yan keçməsinə ən çox yardımçı olan ölkələrdən biridir. Nəticədə, Ermənistanın Rusiya ilə ticarət əlaqələri dəfələrlə artıb. Bu artım təbii iqtisadi inkişafdan qaynaqlanmır, əksinə Rusiyaya hərbi və sənaye məqsədli məhsulların çatdırılması ilə bağlıdır. Vəziyyət göstərir ki, Ermənistan hakimiyyətinin Qərbə inteqrasiyası barədə verdiyi bəyanatlar reallığı əks etdirmir. Paşinyan hökuməti yalnız ritorika ilə kifayətlənir və bu istiqamətdə konkret addımlar atmır. Reallıqda isə ölkə daha da dərin iqtisadi və siyasi asılılıq vəziyyətinə düşüb. Hərbi sahədə də vəziyyət eynidir. Ermənistanın bir sıra sərhəd bölgələri hələ də rusiyalı hərbçilər tərəfindən qorunur. Bu, Ermənistanın öz təhlükəsizlik strategiyasını müstəqil şəkildə həyata keçirə bilmədiyini göstərir.

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri,**
**siyasi icmalçı**

Ermənistanın baş naziri Nikol Paşinyan konfransda iştirak məqsədilə Moskvaya gedib. Rusiya Ukraynaya qarşı işğalçı müharibəyə başladıqdan sonra tərəfdaşlarının sayı azalıb. Rusiya Prezidenti Vladimir Putin tədbirə Nikol Paşinyanı da dəvət edib. Ermənistanın baş naziri bu tədbirə qatılmaqla iki ölkə arasında münasibətlərin normal olduğunu göstərməyə çalışacaq. Çünki onun rəqibləri Paşinyanı Ermənistanın ənənəvi müttəfiqi Rusiyadan üz döndərərək Qərblə təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirməkdə ittiham edirlər. Nikol Paşinyan iyun ayında verdiyi açıqlamada Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk edə biləcəyini söyləmişdi. Bu açıqlama Rusiyanın siyasi dairələrində narahatlıq yaratmışdı. Paşinyanın Avropa İttifaqına üzvlüklə bağlı açıqlamaları da Kremli narahat etməyə bilməzdi. Rusiya rəsmiləri Paşinyanı seçim qarşısında qoydular: "Ya Avrasiya İqtisadi Birliyi, ya da Avropa İttifaqı". Daha sonra Paşinyan Avropa İttifaqı üzvlüyü fikrini korrektə etdi və ölkəsinin əvvəlkitək Avrasiya İqtisadi Birliyində üzvlüyün davam etdirəcəyini söylədi.

Fikrimcə, Paşinyan Ermənistanda parlament seçkilərinə qədər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk etmək mövzusunu donduracaq. Əks halda, Kreml Ermənistanı qarışdırmaq planını hərəkətə gətirəcək. Ona görə də, Paşinyan parlament seçkilərinə qədər Kremli qıcıqlandırmamağa çalışacaq. Onun Moskvada konfransa qatılması və Vladimir Putinin növbəti dəfə əlini sıxması da buna dəlalət edəcək.

*Musa BAĞIRLI*
*XQ*

# Silinən mesajlar və cavabsız suallar

## *Emmanuel Makron Ursula Fon der Lyayen ilə nə barədə danışıb?*



**Avropa Komissiyasında şəffaflıq məsələsi yenidən gündəmə gəlib. Emmanuel Makronun "Signal" tətbiqi vasitəsilə Ursula Fon der Lyayenə göndərdiyi mesajın açıqlanması üçün Komissiyada araşdırma başlayıb. Həmin mesaj 2024-cü ilin yanvarında göndərilib və Makron burada Fransa fermerlərinə potensial zərər vura biləcək Aİ–MERCOSUR ticarət sazişi barədə ciddi narahatlığını ifadə edib. Bu ilin mayında isə araşdırmaçı jurnalistika platforması "Follow the Money"in jurnalisti Aleksandr Fanta Komissiyadan Makronun mesajına ictimai çıxış imkanı verilməsini istəyib.**

Komissiya sonradan təsdiqləyib ki, Lyayen həqiqətən də həmin mesajı alıb, lakin qeyd edib ki, mesajın məzmunu "Fransanın artıq hamının yaxşı bildiyi mövqeyinin təkrarından ibarət olub". Bundan əlavə, Komissiya bildirib ki, 2022-ci ildə qəbul edilmiş təhlükəsizlik qaydalarına əsasən Fon der Lyayen "Signal" tətbiqində "mesajların itməsi" funksiyasını aktivləşdirib. Makronun mesajı arxivləşdirməyə kifayət qədər əhəmiyyətli hesab edilmədiyi üçün avtomatik silinib. Fantanın informasiya sorğusu bundan sonra rədd olunub. Jurnalist iddia edib ki, komissiya Makronun mesajını saxlamalı idi, çünki bu, Aİ–Mercosur danışıqlarına təsir göstərib. O, daha sonra məsələ ilə bağlı Ombudsmana şikayət ünvanlayıb: "Komissiya etiraf edir ki, Fon der Lyayenin "Signal" mesajlarında avtomatik silinmə funksiyasından istifadə olunur. Bu isə o deməkdir ki, biz onları, yəqin ki, heç vaxt görməyəcəyik. Görünür, həmin sənədlərin saxlanılıb-saxlanılmamasına qərar vermək yalnız Komissiyanın ixtiyarındadır, başqalarının yox", – deyə Fanta "Linkedln" hesabında yazıb. Hadisədən dərhal sonra Komissiya Ombudsman ofisi ilə əməkdaşlıq edəcəyini bildirib və şəxsi yazışmaların avtomatik silinməsini müdafiə edib. Komissiyanın mövqeyi belə olub: "Bu, məlumat sızmaları və təhlükəsizlik pozuntuları riskini azaldır. Mobil cihazda yaddaşın səmərəli istifadəsi üçün mesajlar avtomatik silinib".

Ümumiyyətlə, Aİ institutları daim demokratik legitimlik və şəffaflıq prinsiplərinə önəm verdiklərini bildirirlər. Ancaq indi ortaya çıxan məqam göstərir ki, əsas fiqurların qərar prosesinə təsir edən mesajları "yox olub". Əgər Makronun Aİ–MERCOSUR sazişi ilə bağlı ciddi narahatlığı rəsmi sənədlərdə qeyd olunmayıbsa, o zaman qərarların necə formalaşdığı barədə tam təsəvvür almaq mümkün deyil. Bu, həm də siyasi məsuliyyət məsələsini ortaya qoyur.

Məsələnin mahiyyətini anlamaq üçün MERCOSUR razılaşmasının özündə nəyi ehtiva etdiyinə baxmaq lazımdır. Razılaşma Aİ ilə Cənubi Amerika ölkələri arasında kənd təsərrüfatı və sənaye məhsullarının azad ticarətini nəzərdə tutur. Lakin sazişin Fransa fermerləri üçün yaratdığı narahatlıqlar kifayət qədər dərin və çoxşaxəlidir. Əvvəla, MERCOSUR ölkələrində istehsal xərclərinin xeyli aşağı olması, ucuz işçi qüvvəsi, geniş torpaq sahələri və irimiqyaslı istehsal imkanları Avropa fermerləri ilə müqayisədə böyük üstünlük yaradır. Avropa fermerləri isə ciddi ekoloji standartlara, gübrə və pestisid məhdudiyyətlərinə riayət etmək məcburiyyətindədirlər. Bu isə onların məhsullarının maya dəyərini artırır və nəticədə Braziliya, Argentina və digər tərəfdaş ölkələrin məhsulları Avropa bazarına daha ucuz qiymətlə daxil olur. Qeyri-bərabər rəqabət fransız fermerlərinin gəlirlərini azaldır, kənd yerlərində sosial sabitliyi pozur və fermer təsərrüfatlarının kütləvi iflasına yol açır. İkinci mühüm məqam ekoloji tərəddüdlərlə bağlıdır. Fransa fermerləri hesab edirlər ki, MERCOSUR ölkələrində kənd təsərrüfatının genişlənməsi Amazon meşələrinin qırılması və karbon emissiyalarının artması hesabına reallaşır. Belə olan halda, Avropa İttifaqının "yaşıl keçid" və iqlim dəyişmələri ilə mübarizə strategiyası kağız üzərində qalır. Saziş, əksinə, qlobal ekoloji böhranı dərinləşdirən amillərdən birinə çevrilir. Üçüncü istiqamət isə sosial ölçüdür. Fransada kənd təsərrüfatı həm də milli kimliyin, regionların sosial və mədəni həyatının ayrılmaz hissəsidir. Ucuz idxalın artması fermerlərin gəlirini azaldır, kənd yerlərində işsizliyi və sosial narazılığı gücləndirir.

Makronun bu kontekstdə məsuliyyətsizliyi ondan ibarətdir ki, o, fermerlərin narahatlıqlarını Ursulaya mesajında dilə gətirsə də, sonradan məsələyə əhəmiyyət verməyib. Nəticədə, MERCOSUR sazişi ətrafında yaranmış gərginlik iqtisadi və ekoloji problemlərlə yanaşı, həm də Avrokomissiyanın siyasətində məsuliyyət və şəffaflıq böhranını ortaya çıxarır. Makronun ikili davranışı isə fermerlərin etimadını daha da sarsıdır və Fransa cəmiyyətində "siyasi elitanın xalqın real maraqlarını müdafiə etmək əzmində olmaması" barədə narazılığı gücləndirir. Bu etimad böhranı Avrokomissiyanın imicinə də təsir göstərir. Çünki əgər bir dövlət başçısının mövqeyi şəxsi mesajlarla ötürülüb ardınca texniki bəhanələrlə silinirsə, demokratiya amili sual altına düşür. Ona görə də "istənilməyən" ləqəbli Makronun qarşısında iki seçim var: O, ya kənd təsərrüfatı və sosial həyatın taleyini korporativ maraqlar naminə qurban verərək gizli mesajlarla idarə olunan "sövdələşmə demokratiyası"na boyun əyəcək, ya da fermerlərin, ekoloji hərəkatların səsini eşidərək, real şəffaflıq yolunu seçəcək. Əks halda, hər yeni silinmiş mesaj gözlənilməli dəyərləri də yavaş-yavaş süpürüb aparacaq...

### Ekspert rəyi



**Elşad MİRBƏŞİROĞLU,**
**siyasi elmlər doktoru,**
**politoloq**

**Avropa Komissiyasının fəaliyyəti və qəbul etdiyi qərarların şəffaflığı ilə bağlı artıq neçə illərdir şübhələr mövcuddur. Xatırlatmaq lazımdır ki, COVID–19 pandemiyası dövründə də Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen ətrafında böyük qalmaqal yaşanmışdı. Həmin vaxt ictimai fəallar və jurnalistlər ondan hesabat tələb edirdilər.**

Söhbət "Pfizer" şirkəti ilə vaksinlərin alınmasına dair razılaşmadan gedirdi. Həmin dövrdə Macarıstandan olan deputatlar Fon der Lyayenə qarşı ciddi kampaniya başlatdılar və məsələ Avropa Parlamentində səsverməyə çıxarıldı. 175 deputat ona etimadsızlıq göstərsə də, tələb olunan üçdəiki səs çoxluğu əldə olunmadı və Lyayenin vəzifədən uzaqlaşdırılması baş tutmadı. Ursula Fon der Lyayen bu dəfə Avropa İttifaqı ilə MERCOSUR razılaşması ətrafında yaranan vəziyyətə aydınlıq gətirməkdən imtina edir. Söhbət Aİ ilə Cənubi Amerika ölkələri arasında, əsasən, kənd təsərrüfatı sektorunu əhatə edən sazişdən gedir. Avropanın bir sıra ölkələri bu razılaşmaya qarşı çıxış ediblər. Sayları çox olmasa da, maraqlarını qorumaq istəyən kənd təsərrüfatı ölkələri sazişə ciddi müqavimət göstəriblər. Bu sırada ən sərt mövqelərdən birini elə Fransa özü nümayiş etdirib. Prezident Emmanuel Makron bu razılaşmanın Fransa fermerləri üçün "ölümcül təsir" göstərəcəyini bəyan edib və öz etirazını "Signal" tətbiqi üzərindən Fon der Lyayenə göndərib. Avropa Ombudsmanı və Avropa Parlamentində bir sıra deputatlar həmin yazışmanın mətnini tələb edirlər. Ancaq Lyayen və onun ofisi mesajların artıq mövcud olmadığını bildirir. Bu isə Avrokomissiyanın yenidən qeyri-şəffaflıq ittihamları ilə üzləşməsinə səbəb olub. Artıq ikinci dəfədir ki, strateji əhəmiyyətli qərarların müzakirəsinə dair yazışmaların "izsiz" itməsi halları yaşanır. MERCOSUR razılaşması isə Aİ-də ciddi fikir ayrılığı yaradıb. Çoxları bu razılaşmanı iqtisadi əlaqələrin genişlənməsi kimi deyil, kənd təsərrüfatına zərbə, milli iqtisadiyyatlarda geriləmə və sosial narazılıqların artması kimi qiymətləndirir. Görünən odur ki, Fon der Lyayen razılaşmaya xələl gəlməməsi üçün Makronla yazışmaların arxivləşdirilməsinə imkan verməyib. Ancaq bu addım mövcud etimad böhranını daha da dərinləşdirir.

*Nəzrin ELDARQIZI*
*XQ*

# Qlobal iqtisadi fraqmentasiya şəraitində dayanıqlı inkişaf: Azərbaycan nümunəsi

**Qlobal iqtisadiyyatda fraqmentasiya dərinləşir. Belə bir şəraitdə ənənəvi iqtisadi artım meyarları (sürət və miqyas) öz yerini təhlükəsizlik, dayanıqlılıq və etimad kimi strateji göstəricilərə verir. Bu yeni reallıqda Azərbaycanın inkişaf modeli xüsusi əhəmiyyət kəsb edir. Tarixi təməllə müasir modernləşmənin sintezini özündə birləşdirən model "Əsrin müqaviləsi" ilə formalaşan etimada əsaslanır və Prezident İlham Əliyevin rəhbərliyi ilə rəqəmsal transformasiya, "yaşıl enerji" və iqtisadi diversifikasiya istiqamətlərində keyfiyyətcə yeni mərhələyə yüksəlib. Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu isə bu strateji baxışın qlobal auditoriyaya təqdim edildiyi mühüm platforma rolunu oynadı. Forum ölkəmizin regional liderliyini və eyni zamanda, qlobal tərəfdaş, dünya iqtisadiyyatında dərinləşən fraqmentasiya fonunda körpü rolunu təsdiqlədi.**



## Yeni qlobal iqtisadi reallıq

Ötən əsrin sonlarında qlobal iqtisadi sistemin əsas prinsipləri miqyas üstünlüyü və istehsal səmərəliliyi üzərində qurulmuşdu. Lakin XXI əsrin ortalarına yaxın iqtisadi proseslərdə tamamilə yeni dəyərlər ön plana keçdi. İndi təhlükəsizlik, dayanıqlılıq və etimad səmərəlilik qədər vacib meyarlara çevrilib. Beynəlxalq Valyuta Fondunun (BVF) 2025-ci il Qlobal İqtisadi İcmal hesabatı da bu dəyişikliyi təsdiqləyir: qlobal iqtisadi artım 3 faiz səviyyəsində sabitləşsə də, dünya iqtisadiyyatı ticarət gərginlikləri, enerji bazarlarındakı qeyri-sabitlik və geosiyasi risklər səbəbindən zəifləmiş vəziyyətdə qalır.

Belə bir şəraitdə dünyada istehsal və ticarət modelləri də dəyişir. Friend-shoring (dost və etibarlı tərəfdaş ölkələrdə istehsalın qurulması), near-shoring (istehsalın uzaq ölkələrdən coğrafi baxımdan daha yaxın məkanlara qaytarılması) və reshoring (istehsalın tamamilə öz ölkəsinə geri gətirilməsi) kimi strategiyalar artıq istehsal və sərmayə axınlarının coğrafiyasını yenidən formalaşdırır. Şirkətlər tədarük zəncirlərini yalnız ucuz işçi qüvvəsi və istehsal xərclərinə görə deyil, siyasi sabitlik, etibarlılıq və risklərin idarə olunması meyarlarına əsasən qurmağa başlayırlar. Dünya Bankı və BVF-nin son hesabatları göstərir ki, bu meyillər artıq yeni qlobal norma halına gəlib. Xarici sərmayə qərarları əvvəlki kimi yalnız iqtisadi göstəricilərə deyil, həm də geoiqtisadi yaxınlıq, sabitlik və institusional şəffaflıq amillərinə daha həssas reaksiya verir.

BVF-ə görə "deqloballaşma yoxdur, lakin fraqmentasiya dərinləşir". Başqa sözlə, dünya iqtisadiyyatı tamamilə qloballaşmadan uzaqlaşmır, sadəcə mövcud axınların məkanı, tərəfdaşlıq şəbəkəsi və institusional bazası yenidən qurulur. Qlobal ticarətin Ümumi Daxili Məhsula nisbəti ümumilikdə sabit qalsa da, bu axınların istiqaməti dəyişir. Şirkətlər yalnız ucuz istehsal imkanlarını deyil, həm də təchizat zəncirinin dayanıqlığını, siyasi risklərin idarə olunmasını və texnoloji məhdudiyyətləri nəzərə almağa məcbur olurlar. Bu isə "ucuz və uzaq istehsal mərkəzləri" modelini tədricən "yaxın və etibarlı tərəfdaş ölkələr" modeli ilə əvəzləyir.

Tarif riskləri və siyasət dəyişkənliyi biznesləri "öncədən yüklənmə" davranışına sövq edir, yəni gələcəkdə tətbiq oluna biləcək məhdudiyyətlərdən əvvəl istehsal və ixrac sürətləndirilir. Bunun nəticəsində təchizat zəncirinin coğrafi baxımdan yenidən çərçivələnməsi baş verir. Belə bir şəraitdə Azərbaycan özünəməxsus üstünlükləri ilə fərqlənir. Ölkə həm körpü funksiyası ilə Avrasiyanın əsas ticarət arteriyalarını birləşdirir, həm də institusional sabitlik və etimad mühiti ilə fraqmentasiya dövründə xüsusi strateji dəyər qazanır. Tarixi təməlin – 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin yaratdığı etimadın üzərində qurulan bu model Azərbaycanın bu gün yeni qlobal iqtisadiyyatda seçilən mərkəzə çevrilməsinə imkan verir.

## Azərbaycan: iqtisadi inkişafın təməli

Ölkəmizin son otuz beş illik inkişaf yolu həm regional, həm də qlobal miqyasda sürətli transformasiya nümunəsi kimi dəyərləndirilir. Müstəqilliyin bərpasının ilk illərində ölkə dərin iqtisadi geriləmə, siyasi xaos və sosial böhranla üzləşmişdi. 1990-cı illərin əvvəllərində iqtisadiyyatda 52 faizlik geriləmə müşahidə olunurdu. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan xaosdan sabitliyə və inkişaf yoluna çıxdı. Artıq 1995–2003-cü illərdə iqtisadiyyat hər il orta hesabla 6,2 faiz artmağa başladı və bu, postsovet məkanında ən yüksək templərdən biri oldu.

Əsas dönüş nöqtəsi 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" oldu. Bu saziş təkcə enerji sektorunun inkişafını təmin etmədi, həm də ölkəyə beynəlxalq etimad gətirdi. Xarici kapitalın və qabaqcıl texnologiyaların cəlbi, habelə beynəlxalq tərəfdaşlığın qurulması nəticəsində Azərbaycan qlobal enerji xəritəsində fərqli mövqe qazandı. Həmin dövrdə yaradılan Dövlət Neft Fondu isə resurs gəlirlərinin düzgün idarə edilməsini təmin edən strateji mexanizm oldu. İqtisadi təcrübədə bu model "resurs lənətinin qarşısını alan suveren sərvət fondu" kimi dəyərləndirilirdi və Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas sütununa çevrildi.

Sonrakı mərhələlərdə Azərbaycan resurs gəlirlərini institusional baza ilə tamamladı: maliyyə intizamı möhkəmləndirildi, müasir infrastruktur quruldu, qeyri-neft sektorunun inkişafına və insan kapitalına yönəlik genişmiqyaslı layihələr həyata keçirildi. Belə möhkəm bünövrənin yaradılması hesabına ölkə qlobal iqtisadi fraqmentasiya dövründə də öz güclü mövqeyini qorumağa nail oldu.

Azərbaycanın mövcud iqtisadi inkişaf modelinin təməl dayağı onun malik olduğu Liderdir – müstəqilliyin ilk illərində ulu öndər Heydər Əliyev, müasir dövrdə isə Prezident İlham Əliyev. Məhz Liderin uzaqgörən strateji baxışı, çevik idarəetmə qərarları və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan həm xarici təsirlərin neqativ təzyiqlərindən qorunmuş, həm də müasir qlobal çağırışlara uyğun dayanıqlı iqtisadi sistem formalaşdırmışdır. Bu proses ölkənin inkişaf modelində yeni bir konseptual yanaşmanı – "liderlik kapitalı" anlayışını ön plana çıxarır. Liderlik kapitalı təkcə siyasi idarəetmənin uğuru deyil, həm də iqtisadi inkişafın uzunmüddətli davamlılığının təminatçısı kimi nəzərdən keçirilməlidir.

Son illər qlobal qeyri-müəyyənliklər fonunda Prezident İlham Əliyevin baxışının əhəmiyyəti daha da artır. Ticarət müharibələri, enerji bazarındakı dalğalanmalar və geosiyasi böhranlar bir çox ölkələrin iqtisadi sabitliyini pozduğu halda, Azərbaycan balanslı iqtisadiyyatı və strateji planlaşdırması ilə bu riskləri effektiv şəkildə idarə edə bilmişdir. İlham Əliyevin uzaqgörən strategiyası sayəsində Azərbaycan regional iqtisadi güc və qlobal tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir.

Bu transformasiyanın mərhələləri də Prezident İlham Əliyevin güclü Lider rolunu göstərir. Əvvəlcə kapital cəlbi mərhələsi yaşandı: neft və qaz hasilatına yönələn sərmayələr, Bakı–Tbilisi–Ceyhan və TANAP kimi layihələr ölkəyə milyardlarla dollar vəsait gətirdi və iqtisadi inkişaf üçün ilkin infrastruktur quruldu. Sonrakı mərhələdə isə Azərbaycan kapitalın çevrilməsi mərhələsinə qədəm qoydu. Neftdən əldə olunan gəlirlər həm də qeyri-neft sektoruna yönəldi. İstehsal və xidmət infrastrukturları müasirləşdirildi. Sənaye parkları, aqroparklar, logistika və turizm infrastrukturunun inkişafı bu yanaşmanın nəticəsi idi. Eyni zamanda ölkə xarici iqtisadiyyatın da sərmayəçisinə çevrildi. Beləliklə, ölkə sadəcə sərmayə qəbul edən məkan olmaqdan çıxaraq kapitalı iqtisadi transformasiyanın hərəkətverici gücünə çevirdi.

Müasir çağırışlara uyğunlaşma bacarığı isə Liderin - Prezident İlham Əliyevin təsirinin ən bariz sübutudur. Qlobal iqtisadiyyatda fraqmentasiyanın dərinləşdiyi, təhlükəsizlik, dayanıqlılıq və etimadın əsas iqtisadi meyarlara çevrildiyi bir dövrdə Azərbaycan iqtisadiyyatı sabitliyi və institusional dayanıqlığı ilə bu reallığa vaxtında və çevik şəkildə adaptasiya edə bilmişdir. "Friend-shoring" və "near-shoring" kimi yeni qlobal tendensiyalar fonunda Azərbaycan sadəcə tranzit məkan deyil, eyni zamanda, istehsal və ticarət zəncirlərində etibarlı körpü funksiyasını uğurla həyata keçirən strateji tərəfdaşa çevrilmişdir. Bu rol ölkənin geoiqtisadi mövqeyini möhkəmləndirməklə yanaşı, uzunmüddətli investisiya axınlarının davamlılığını və iqtisadi modelin rəqabətqabiliyyətliliyini təmin edən əsas üstünlüyə çevrilmişdir.

Bütün bu reallıqlar göstərir ki, ölkədə mövcud iqtisadi modelin uğuru yalnız təbii sərvətlərdən və coğrafi mövqedən qaynaqlanmır. Əsas rol çağırışları fürsətə çevirən və sabitliyi təmin edən Liderə məxsusdur. Bu yanaşma beynəlxalq iqtisadi nəzəriyyədə "liderlik dividenti" anlayışı ilə səciyyələndirilir. Azərbaycan təcrübəsi də sübut etdi ki, qlobal qeyri-müəyyənliklər fonunda ən böyük kapital Liderin özüdür.

## Modernləşmə və tarixi təməlin sintezi

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin strateji xəttini yeni mərhələyə yüksəldərək Azərbaycanın iqtisadi modernləşmə hədəfini formalaşdırmışdır. Onun rəhbərliyi ilə ölkəmiz həm də qlobal tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir. Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi enerji və logistika superlayihələri Azərbaycanın beynəlxalq dəyər zəncirindəki rolunu gücləndirmişdir. Paralel olaraq rəqəmsal dövlət modeli, müasir istehsal infrastrukturu və "yaşıl enerji" siyasəti kapital çevrilməsi mərhələsində ölkənin mövqeyini daha da möhkəmləndirmişdir.

Azərbaycanın inkişaf yolu bir neçə müasir nəzəriyyənin sintezini əks etdirir. Modernləşmə nəzəriyyəsinə uyğun olaraq, resurs gəlirləri ilkin inkişaf üçün istifadə olunmuş, sonrakı mərhələdə diversifikasiya və bilik iqtisadiyyatı ön plana keçmişdir. Dayanıqlı iqtisadiyyat konsepsiyası çərçivəsində makroiqtisadi sabitlik təmin olunmuş, borc yükü minimal səviyyədə saxlanılmış, valyuta ehtiyatları isə əhəmiyyətli dərəcədə artırılmışdır. Yaşıl keçid siyasəti Qarabağ və Xəzər layihələri ilə praktik müstəviyə daşınmışdır. İnklüziv artım yanaşması isə yoxsulluğun kəskin azalması və regionlarda rifahın yaxşılaşması ilə nəticələnmişdir.

Bu transformasiya yalnız nəzəri müstəvidə deyil, konkret göstəricilərdə də öz təsdiqini tapır. Azərbaycanın ümumi iqtisadi gücü və milli iqtisadiyyatın əsas göstəriciləri ölkəyə mühüm nüfuz qazandırmışdır. Son 20 ilin dinamikasına nəzər saldıqda görürük ki, Ümumi Daxili Məhsul nominal ifadədə 15 dəfə artaraq 126,3 milyard manata yüksəlmiş, dövlət büdcəsinin gəlirləri isə təxminən 25 dəfə artmışdır. Belə bir iqtisadi yüksəlişin sosial təsiri də aydın görünür: 20 il əvvəl adambaşına büdcə xərcləri cəmi 178 manat təşkil edirdisə, bu gün həmin göstərici 3635 manatı üstələyərək dövlətin sosial təminat imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir.

Eyni zamanda, Azərbaycanın xarici ticarət dövriyyəsi 6,7 dəfə artaraq 47,6 milyard ABŞ dollarına çatmış, ixrac həcmi isə 3,6 milyard dollardan 26,5 milyard dollara yüksəlmişdir. Bu artımın xüsusilə diqqətəlayiq tərəfi qeyri-neft ixracının 3,3 milyard ABŞ dollarına çatmasıdır ki, bu da iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əldə olunmuş mühüm nəticələri əks etdirir. Nəticədə strateji valyuta ehtiyatları 78 milyard ABŞ dollarına çatmış və ölkənin maliyyə dayanıqlılığını, beynəlxalq likvidlik mövqeyini və iqtisadi təhlükəsizliyini gücləndirmişdir.

Bundan başqa, son 20 ildə ölkəyə 344,4 milyard ABŞ dolları həcmində sərmayə cəlb olunmuş, bunun 213,2 milyard ABŞ dolları qeyri-neft sektoruna yönləndirilmişdir. Bu, Azərbaycanın rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyat qurduğunu göstərir. Təkcə son dörd ilin göstəriciləri də bu tendensiyanı təsdiqləyir: qeyri-neft sektorunun orta illik artım tempi 6,7 faiz olmuş, onun iqtisadiyyatda payı isə 68 faizə yüksəlmişdir.

Beləliklə, həyata keçirilən iqtisadi siyasət mövcud resurslardan sadəcə qısamüddətli mənfəət əldə etməklə məhdudlaşmır, əksinə, uzunmüddətli dayanıqlı inkişaf strategiyası üzərində qurulur. Bu kurs ölkənin gələcək nəsillərə hesablanmış inkişaf modelini formalaşdırır və milli iqtisadiyyatın davamlılığını təmin edir. Siyasətin təməlində isə üç əsas strateji hədəf dayanır. Birinci istiqamət – iqtisadiyyatın şaxələndirilməsidir. Burada müasir istehsal və xidmət sahələrinin, o cümlədən turizmin inkişafı, informasiya-kommunikasiya texnologiyaları, startap ekosistemi və bərpaolunan enerji layihələri ön plana çıxır. Bu yanaşma "inklüziv artım" modelinə uyğun olaraq iqtisadi artımı yalnız iqtisadiyyatın böyüməsi ilə deyil, sosial təminatın güclənməsi, məşğulluğun artması və rifahın yaxşılaşması ilə ölçür. Azərbaycanın inkişaf modelinin dəyəri də məhz buradadır: iqtisadi göstəricilərdəki yüksəliş, eyni zamanda, sosial kapitalın və dayanıqlı rifahın güclənməsi ilə müşayiət olunur. Əhalinin həyat şəraitinin davamlı yaxşılaşması bunun bariz nümunəsidir.

İkinci istiqamət – infrastrukturun modernləşdirilməsidir. Müasir infrastruktur quruculuğu hesabına Azərbaycan bu gün Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrilmişdir. Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin inteqrasiyası, sənaye parklarının fəaliyyəti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonası ölkəni yalnız tranzit məkanı deyil, həm də istehsal və xidmət ixracı platformasına çevirmişdir. Bu siyasət "şəbəkə iqtisadiyyatı" konsepsiyasına uyğun olaraq hər bir layihəni bütöv şəbəkənin yaratdığı əlavə dəyər ilə birləşdirir.

Üçüncü istiqamət – investisiya diplomatiyasıdır. Azərbaycanın açıq qapı siyasəti, hüquqi təminat, güzəştlər və şəffaf mexanizmlər xarici sərmayədarlar üçün etibarlı mühit yaratmışdır. Dövlət-özəl tərəfdaşlığı layihələri və beynəlxalq standartlara uyğun qanunvericilik ölkəyə milyardlarla dollar həcmində sərmayə cəlbinə imkan vermişdir. Bu siyasəti "etimad iqtisadiyyatı" konsepsiyası da möhkəmləndirir. Etimad Azərbaycanın biznes mühitinin əsas kapitalıdır. Xarici şirkətlərin mənfəətlərini ölkə daxilində yenidən sərmayəyə çevirməsi bu reallığın göstəricisidir.

Beləliklə, Azərbaycanın keçdiyi inkişaf yolu tarixi təməllə müasir strategiyanın sintezini əks etdirir. Heydər Əliyevin "Əsrin müqaviləsi" ilə yaratdığı etimad irsi İlham Əliyevin uzaqgörən strategiyası ilə yeni mərhələyə yüksəlmişdir. Azərbaycan bu gün Cənubi Qafqaz iqtisadiyyatının 55 faizindən çoxuna sahib olan, yoxsulluğu on dəfədən çox azaldan, borc yükü minimal olan, rəqəmsal və "yaşıl model"ə yönələn, regional sabitliyi təmin edən və qlobal əməkdaşlıqda mühüm tərəfdaş kimi çıxış edən dövlətə çevrilmişdir. Bu transformasiya tarixi davamlılığın, strateji sabitliyin, liderlik kapitalının və müasir konseptual yanaşmanın uğurlu vəhdətini nümayiş etdirir.

## I Beynəlxalq İnvestisiya Forumu: strateji gündəlik

Azərbaycanın qarşısında duran əsas məqsəd yalnız regional iqtisadi statusunu qorumaq deyil, eyni zamanda, qlobal iqtisadi sistemdə dayanıqlı, rəqabətədavamlı və innovasiyayönümlü aktora çevrilməkdir. Yeni dövrə Azərbaycan artıq suverenliyini bərpa etmiş, müasir iqtisadiyyata, institusional sabitliyə və uzunmüddətli dəqiq strateji baxışa sahib dövlət kimi qədəm qoyur. Bu mərhələdə ölkənin əsas hədəfi qlobal rəqabət mühitində mövqelərini gücləndirmək və iqtisadi şaxələnmənin yeni imkanlarından maksimum faydalanmaqdır. Bu baxışın həyata keçirilməsini təmin edən amillər dörd strateji vektor üzrə cəmləşir:

1. Mövcud iqtisadi potensial. Azərbaycanın inkişaf trayektoriyasının təməl sütununu təşkil edən mövcud potensial son 20 ildə davamlı iqtisadi böyümə və sabit makroiqtisadi mühitlə möhkəmlənmişdir. Bu mərhələ ölkənin artıq bilik və texnologiya tutumlu iqtisadiyyata keçidini şərtləndirir. Təbii sərvətlər, demoqrafik dinamika və maliyyə imkanları strateji üstünlüyə çevrilərək rəqabətqabiliyyətli iqtisadiyyat üçün dayanıqlı baza yaratmışdır. Azərbaycanın Şərqlə Qərbin kəsişməsində yerləşməsi təkcə nəqliyyat dəhlizlərinin inkişafını deyil, həm də onların sənaye və innovasiya dəhlizlərinə transformasiyasını təmin edir.

2. Milli istək. Bu, daxili inkişafın ən mühüm drayveridir. Müstəqilliyin bərpası, ərazi bütövlüyünün təmin olunması və tarixi çətinliklərin dəf edilməsi xalqın gələcəyə inamını gücləndirmişdir. Bu iradə Azərbaycanın müstəqil və müasir iqtisadi sistem qurmaq əzmini möhkəmləndirmiş, milli kimliklə modern dövlətçilik fəlsəfəsini sintez edərək iqtisadi inkişafın ideoloji təməlini formalaşdırmışdır.

3. Geostrateji üstünlüklər. Geostrateji mövqe Azərbaycanın beynəlxalq nüfuzunu artıran əsas amillərdəndir. Enerji resurslarının səmərəli idarə olunması ölkəni qlobal enerji bazarında müstəqil və etibarlı oyunçuya çevirmişdir. Güclü iqtisadiyyat, balanslı xarici siyasət və hərbi potensial isə regional təhlükəsizlik arxitekturasını möhkəmləndirir. Müasir nəqliyyat, enerji və rabitə infrastrukturunun yaradılması nəticəsində Azərbaycan yalnız tranzit qovşağı deyil, həm də istehsal, xidmət və texnologiya ixracatçısı statusu qazanmışdır.

4. Qlobal dəyişikliklərə adaptasiya bacarığı. Dünya iqtisadiyyatında baş verən böhranlar, texnoloji rəqabət və geosiyasi risklər Azərbaycanın qabaqlayıcı addımlar atmaq qabiliyyətini gücləndirmişdir. "Sənaye 4.0" reallıqlarına adaptasiya, innovasiyayönümlü məhsul və xidmətlərin inkişafı, rəqəmsallaşma və "yaşıl iqtisadiyyat"a keçid ölkənin qlobal dəyər zəncirində mərkəzə doğru irəliləməsini təmin edən əsas vektorlardır.

Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda Prezident İlham Əliyevin müraciəti bu vizionun ən parlaq təzahürü oldu. Müraciət sadəcə son otuz ilin uğurlarının retrospektivi deyildi, əksinə, strateji baxışların, nəzəri əsasların və gələcək iqtisadi prioritetlərin vahid mətnə çevrildiyi manifest idi. Prezidentin müraciəti göstərdi ki, Azərbaycan iqtisadiyyatı artıq keçid modelindən rəqabətədavamlı sistemə transformasiya olunub.

Müraciətdə vurğulanan əsas istiqamətlərdən biri Azərbaycanın dayanıqlı artım və rəqabət üstünlüyünün mərkəzinə çevrilməsi idi. Sərmayə həcmlərinin artması, qeyri-neft sektoruna yönəlmiş kapital axını və ixrac göstəricilərinin yüksəlməsi ölkənin bilik və texnologiya əsaslı iqtisadi sistemə keçdiyini nümayiş etdirdi. Bu göstəricilər yalnız statistika deyil, həm də "inklüziv artım" modelinin təzahürüdür: iqtisadi artım sosial nəticələr – məşğulluğun yüksəlməsi, regionların inkişafı və rifahın yaxşılaşması ilə ölçülür.

İkinci strateji xətt etimad kapitalıdır. Prezidentin vurğuladığı kimi, xarici şirkətlərin mənfəətlərini ölkə daxilində yenidən sərmayəyə çevirməsi Azərbaycanın "etimad iqtisadiyyatı" modelini möhkəmləndirir. Bu, qlobal iqtisadi fraqmentasiya şəraitində ölkənin ən böyük strateji üstünlüyü hesab olunur. Uzunmüddətli proqnozlaşdırıla bilən biznes mühiti yeni kapital axınlarını təşviq edir və davamlı artım üçün möhkəm zəmin yaradır.

Üçüncü istiqamət Azərbaycanın coğrafi mövqeyinin qlobal iqtisadi sinerjiyə çevrilməsi və körpü rolunun güclənməsidir. Prezidentin Orta Dəhliz, Şimal–Cənub dəhlizi və Zəngəzur dəhlizinə xüsusi diqqət ayırması Azərbaycanın sadəcə tranzit ölkə olmadığını, istehsal, logistika və xidmətlərin inteqrasiyasını təmin edən qlobal körpü funksiyasını yerinə yetirdiyini təsdiqlədi. Bu, "şəbəkə iqtisadiyyatı" nəzəriyyəsinə tam uyğun olaraq ölkəmizin dəyər yaradan mərkəzə yüksələcəyini göstərir.

Enerji siyasəti ilə bağlı mesaj isə ölkənin ikiqat üstünlüyünü açıq göstərdi: bir tərəfdən Azərbaycan ənənəvi enerji bazarlarında sabit oyunçu statusunu qoruyur, digər tərəfdən "yaşıl enerji" zonaları və hidrogen istehsalı ilə gələcəyin enerji iqtisadiyyatında liderliyə hazırlaşır. Beləliklə, Azərbaycan həm bugünkü enerji təhlükəsizliyinə, həm də sabahkı qlobal enerji keçidinə töhfə verir.

Nəhayət, Prezidentin müraciətində texnoloji transformasiya Azərbaycanın yeni inkişaf mərhələsinin əsas lokomotivi kimi təqdim olundu. Bulud texnologiyaları, rəqəmsal hökumət xidmətləri, startap ekosistemi və süni intellektin tətbiqi, Şumpeterin "yaradıcı dağıdıcılıq" nəzəriyyəsinə uyğun olaraq, iqtisadiyyatda köhnə modellərin yeniləri ilə əvəz olunacağını göstərdi. Bu isə ölkəmizin yaxın illərdə dördüncü sənaye inqilabının regional liderlərindən birinə çevriləcəyinə işarədir.

Bu əsasda Azərbaycan Birinci Beynəlxalq İnvestisiya Forumu ölkəmiz üçün strateji əhəmiyyət daşıyan yeni faktor oldu. Forum həyata keçirilən iqtisadi siyasəti və islahat gündəliyini investorlara təqdim edərək, uzunmüddətli etimad mühitinin formalaşmasına zəmin yaratdı. Burada vurğulanan qeyri-neft sektorunun imkanları, sənaye parkları, azad iqtisadi zonalar və logistika dəhlizləri uzunmüddətli investisiyalar üçün cəlbedici istiqamətlər kimi önə çıxdı. Beləliklə, Forum ölkəmizə dayanıqlı və uzunmüddətli sərmayələrin cəlbinə xidmət edən strateji başlanğıc nöqtəsinə çevrildi.

Bütün bunlar nəticə etibarilə üç əsas strateji mesajı ön plana çıxardı: Azərbaycan artıq sadəcə sabitlik ölkəsi deyil, həm də dayanıqlı artımın və rəqabət üstünlüyünün mərkəzidir. Ölkə parçalanmış qlobal iqtisadiyyat şəraitində birləşdirici körpü və etibarlı tərəfdaş kimi mövqeyini gücləndirir. Azərbaycan iqtisadi gələcəyini texnologiya, "yaşıl enerji" və rəqəmsal transformasiya üzərində qurur və bu, onun qlobal çəkisini daha da artırır.

*Beləliklə, Azərbaycanın inkişaf modeli qlobal iqtisadi fraqmentasiya mühitində milli maraqlar ilə beynəlxalq reallıqların uzlaşdırılmasına əsaslanır. Etimad, dayanıqlılıq və təhlükəsizlik prinsipləri bu modelin təməlini təşkil edir və ölkəni regional liderlikdən qlobal tərəfdaşlığa daşıyır. Strateji kurs resurs gəlirlərinin səmərəli idarəsi, qeyri-neft sektorunun inkişafı, rəqəmsal transformasiya və "yaşıl enerji" siyasəti ilə müəyyənləşir. Model, həmçinin tarixi irs və müasir modernləşmənin vəhdətinə söykənir: Heydər Əliyevin qoyduğu etimad bazası Prezident İlham Əliyevin liderliyi ilə yeni məzmun qazanaraq müasir, dayanıqlı iqtisadi nümunəyə çevrilmişdir. Nəticədə, bu model həm strateji çərçivə, həm də ideoloji konsepsiya olaraq sabitliyi qoruyan, modernləşməni təşviq edən və qlobal iqtisadi fraqmentasiya dövründə körpü rolunu oynayan etibarlı dövlət yanaşmasını ifadə edir.*

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# “Yaşıl enerji” nəqlində də Azərbaycan mərkəz missiyası daşıyır

**Bakıda keçirilən “Yaşıl Enerji Həftəsi 2025: Azərbaycan və Mərkəzi Asiya” tədbiri ölkənin enerji siyasətində, xüsusən bərpaolunan və innovativ enerji sahələrində strateji dönüşün növbəti həlqəsi kimi meydana çıxır. Tədbirdə hökumət, dövlət şirkətləri və beynəlxalq maliyyə institutlarının nümayəndələri planlar, pilot layihələr və regional əməkdaşlıq mexanizmləri üzərində fikir mübadiləsi aparıb. Bu müzakirələr gələcək investisiya axınları üçün mühüm siqnallar verir.**

Forum çərçivəsində diqqətçəkən məqamlardan biri “SOCAR Green” şirkətinin planları oldu. Şirkət yaxın illərdə Azərbaycanı “yaşıl enerji” sahəsində regional ekspertiza mərkəzinə çevirməyi hədəfləyir. “SOCAR Green” şirkətinin nümayəndəsi bildirib ki, şirkət Azərbaycanda geotermal enerji layihələrini inkişaf etdirir. Ölkənin ilk geotermal stansiyasının 2030-cu ilə qədər istifadəyə verilməsi planlaşdırılır. Belə layihələr ilkin mərhələdə yüksək sərmayə və dövlət dəstəyi tələb edir, lakin düzgün idarə olunduqda sabit və dayanıqlı enerji mənbəyi təmin edə bilər. Bununla yanaşı, şirkət tullantıların yandırılması texnologiyalarına dair layihələr həyata keçirməyi planlaşdırır. Məsələn, 37 MVt gücündə tullantıları yandıran zavod kimi pilot istiqamətlər yaxın perspektivdə reallaşa bilər. Bu, həm tullantıların idarə edilməsinə, həm də lokal elektrik-isitmə ehtiyaclarının ödənilməsinə töhfə verə bilər.

Forumda iştirak edən beynəlxalq qurumların mövqeyi də xüsusi önəm daşıyırdı. Dünya Bankı rəsmiləri Azərbaycanın yeni enerji layihələri ilə bağlı qəbul edəcəyi qərarları gözlədiklərini vurğulayıblar. Bu, Azərbaycanın enerji sahəsindəki hər addımının qlobal maliyyə institutlarının diqqətində olduğunu göstərir. Başqa sözlə, Bakı yalnız regional yox, artıq qlobal enerji dialoqunun mühüm oyunçusudur.

Dünya Bankının energetika üzrə baş mütəxəssisi tədbirdə bildirib ki, Bank Azərbaycan hökumətinin yeni enerji layihələri ilə bağlı qərarını gözləyir və hazırda texniki yardım göstərilən böyük bir layihə (AZURE) var. Bu, beynəlxalq maliyyə institutlarının layihələrin icrasına texniki-maliyyə dəstəyi verməyə hazır olduğunu göstərir və hökumətin prioritet qərarları yatırım axınlarını sürətləndirə bilər.

Azərbaycanın bərpaolunan enerji planlarının ən iddialı istiqamətlərindən biri də Naxçıvan Muxtar Respublikasıdır. Regional inkişaf və enerji təminatı məqsədilə Naxçıvan Muxtar Respublikasında 2028-ci ilə qədər iki günəş elektrik stansiyasının (GES) istifadəyə verilməsi planlaşdırılır. Bu cür parkların qurulması həm yerli enerji təhlükəsizliyini yüksəldir, həm də iqtisadi fəallığı artırır.

“Yaşıl Enerji Həftəsi”ndə beynəlxalq şirkətlərin ölkəmizə marağı bir daha özünü göstərdi. Dünyanın aparıcı enerji şirkətlərindən biri olan “ACWA Power” Azərbaycana xüsusi strateji tərəfdaş kimi yanaşdığını bəyan etdi. Şirkətin biznesin inkişafı üzrə direktoru Polina Lyubomirova çıxışında vurğuladı ki, Azərbaycan milli iqtisadiyyatı, bütövlükdə, regionun enerji ehtiyacları baxımından, “yaşıl layihələr” üçün əlverişli məkandır. Onun sözlərinə görə, “ACWA Power” ölkəmizdə həyata keçirilən müxtəlif layihələrlə Azərbaycanın ekoloji və davamlı inkişaf strategiyasını dəstəkləyir. Lyubomirova Azərbaycanda qarşıda duran müəyyən çağırışların olduğunu da diqqətə çatdıraraq bildirdi ki, şirkət məhz reallaşdırdığı layihələrlə bu çağırışlara cavab vermək niyyətindədir.



Hazırda ən mühüm təşəbbüslərdən biri 200 MVt gücündə külək elektrik stansiyasının tikintisidir. Bu stansiya istifadəyə verildikdən sonra regionun ən böyük enerji obyektlərindən birinə çevriləcək. Eyni zamanda, “ACWA Power” yaxın günlərdə Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması zavodunun tikintisi ilə bağlı dövlət-özəl tərəfdaşlığına dair mühüm saziş imzalayıb.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Rəna Hümbətova isə çıxışında qeyd etdi ki, 2027-ci ilə qədər ölkəmizdə – Naxçıvandakı layihələrdən əlavə 8 yeni günəş və külək elektrik stansiyası istismara veriləcək. Artıq ilk mərhələdə 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyasının tikintisi başa çatıb. Bu, Azərbaycanın “yaşıl enerji” yolunda atdığı ən mühüm addımlardan biridir.

Hazırda ikinci mərhələ – 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyası üzrə işlər gedir və layihənin bu ilin sonuna qədər yekunlaşacağı gözlənilir. Növbəti illərdə isə daha böyük layihələr gündəmdədir. 2026-cı ildə ümumi gücü 760 MVt təşkil edən günəş stansiyalarının istifadəyə verilməsi planlaşdırılır. Bunlar 445 MVt-lıq “Biləsuvar” GES, 315 MVt-lıq “Neftçala” GES və 100 MVt gücündə “Qobustan” GES-dir. 2027-ci ildə isə 240 MVt gücündə “Abşeron-Qaradağ” GES, 50 MVt-lıq “Üfüq” GES, 50 MVt-lıq “Şəms” GES və 240 MVt-lıq “Şəfəq” GES Azərbaycan enerji xəritəsinə daha dörd yeni obyekt kimi əlavə olunacaq.

“Yaşıl Enerji Həftəsi 2025” göstərir ki, Azərbaycan üçün bərpaolunan enerji həm də iqtisadi diversifikasiya, texnologiya transferi və regional təsir vasitəsidir. Geotermal pilotlar layihələrdən yaşıl hidrogen strategiyasına qədər irəli sürülən konseptlər reallaşdıqca ölkənin enerji mənzərəsi tədricən dəyişəcək və bu dəyişiklik yalnız enerji sahəsini deyil, iqtisadiyyatın daha geniş spektrini əhatə edəcək. Dünya Bankı və digər beynəlxalq tərəfdaşlarla yaxın əməkdaşlıq, düzgün maliyyə-hüquqi mexanizmlər və güclü institusional dəstək bu transformasiyanın uğur qazanması üçün əsas şərtlərdir.

***Nurlan ABDALOV***
***XQ***

**Ekspert rəyi**



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Azərbaycan regionda “yaşıl enerji”yə ən çox investisiya yönəldən ölkələrdən biridir. Son illərdə bu sahəyə 1 milyard dollardan artıq xarici sərmayə cəlb olunub. Ölkəmiz həm də “yaşıl enerji siyahısı”na daxil olub və karbon emissiyalarının azaldılması ilə bağlı konkret hədəflərə malikdir. Bu kontekstdə, 2030-cu ilə qədər ölkə üzrə istehsal edilən enerjinin 35 faizinin yaşıl mənbələrdən təmin olunması, karbon emissiyalarının isə 40 faiz azaldılması nəzərdə tutulur. Bundan başqa, Azərbaycan Avropaya “yaşıl enerji” ixrac etməyi planlaşdıran əsas dövlətlərdən biridir.

Bu istiqamətdə artıq Azərbaycan–Gürcüstan və Avropa İttifaqı arasında razılaşmalar əldə olunub. Layihəyə əsasən, Azərbaycanın “yaşıl enerji”si Gürcüstan və Qara dəniz vasitəsilə Avropa bazarına çıxarılacaq. Orta Asiya da “yaşıl enerji” potensialı baxımından diqqətçəkən bir regiondur.

Orta Asiyada yerləşən qardaş ölkələr Azərbaycan üzərindən “yaşıl enerji”ni Avropaya ixrac etməklə əlavə gəlirlər əldə edə bilərlər. Bu, onların ixrac strukturunu şaxələndirməsinə və ənənəvi məhsullardan kənar, yeni sahələr üzrə Avropa bazarına çıxış imkanlarını genişləndirməsinə şərait yaradacaq. Azərbaycan isə tranzit ölkə kimi enerji daşınmasından gəlir əldə edəcək.

Beləliklə, Azərbaycan həm “yaşıl enerji” ixracatçısına, həm də tranzit mərkəzinə çevrilməkdədir. Bu, yalnız enerji ixracatının strukturunun diversifikasiyasına deyil, həm də ölkənin dövriyyəsinin artmasına mühüm töhfə verir.

**Ekspert rəyi**



**Eldəniz ƏMİROV,**
**iqtisadçı**

“Yaşıl Enerji Həftəsi 2025: Azərbaycan və Mərkəzi Asiya” tədbiri çərçivəsində, SOCAR-ın timsalında “yaşıl enerji” sahəsində müxtəlif tərəfdaşlıq layihələrinin icrası aktivlik qazanıb. Belə ki, SOCAR ilə Avropa şirkətləri arasında imzalanmış Anlaşma Memorandumu Azərbaycanın gələcəkdə hidrogen ixracatçısına çevrilməsi üçün mühüm əsas yaradır. Azərbaycanın bu enerji siyasəti – yəni üçüncü enerji strategiyası olan alternativ enerji strategiyası beynəlxalq maliyyə institutları tərəfindən də dəstəklənir. Məsələn, Dünya Bankı Azərbaycanın bərpaolunan enerji sahəsində atdığı addımları dəstəkləmək məqsədilə 173 milyon ABŞ dolları həcmində maliyyə dəstəyi ayırıb.

Bu vəsait “Azərbaycanın bərpaolunan enerjinin genişləndirilməsi layihəsi” çərçivəsində nəzərdə tutulub. Digər tərəfdən, Azərbaycan “yaşıl” enerji tranzitində mərkəz funksiyası məsələsində də enerji həftəsi xüsusi yer tutur. Məlumdur ki, qlobal güclərin ölkəmizdəki maraqları çərçivəsində Azərbaycanın bu sahə üzrə mərkəz rolunu oynaması gündəmdədir. Bunun əsas səbəblərindən biri ölkəmizin tranzit qovşaqları çərçivəsində hab funksiyasını daşımasıdır.



# Sumqayıtda elektrik avtobusları istehsal olunacaq

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Çinin “BYD” şirkətinin kommersiya nəqliyyat vasitələri şöbəsinin baş meneceri Tien Çunlon ilə görüşüb. Söhbət zamanı son illər Azərbaycan və Çin arasında əməkdaşlığın sürətlə inkişaf etdiyi diqqətə çatdırılıb.**

Qeyd olunub ki, Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində imzalanan bir sıra mühüm sazişlər və memorandumlar, o cümlədən “Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” əməkdaşlıq üçün geniş perspektivlər açır. Eyni zamanda, Çin şirkətlərinin Azərbaycanda həyata keçirdiyi sərmayə layihələri, eləcə də “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində əlaqələr regional inteqrasiyanın güclənməsinə töhfə verdiyi vurğulanıb.

Görüşdə ölkəmizin iqtisadi prioritetlərinə nail olunması üçün həyata keçirilən tədbirlər, ölkənin sənaye potensialının gücləndirilməsi, “yaşıl” texnologiyaların tətbiqi, enerji səmərəliliyinin artırılması istiqamətində görülən işlər barədə məlumat verilib, tərəfdaşlıq üzrə yeni imkanlar, təcrübə və bilik mübadiləsi sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib.

Yeni istehsal sahələrinə investisiya qoyuluşunun əlavə dəyər zəncirinin inkişaf etdirilməsində önəmi vurğulanıb. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Sənaye Parkında reallaşdırılan elektrik avtobuslarının istehsalının lokallaşdırılması layihəsi üzrə görülən işlər və qarşıdakı dövr üçün hədəflər nəzərdən keçirilib.

***XQ***

# DB “Yaşanılabilən Bakı” layihəsinə qrant ayırıb



**Dünya Bankı Azərbaycana “Yaşanılabilən Bakı” layihəsi çərçivəsində növbəti qrant ayırıb. Layihə Abşeron göllərinin bərpası və ətraf ərazilərin inkişafı ilə bağlıdır. Belə ki, həmin vəsait hesabına Zığ, Xocasən və Böyükşor göllərinin mövcud texniki-iqtisadi əsaslandırma və texniki layihələrinin yenilənməsi həyata keçiriləcək.**

Dünya Bankından verilən açıqlamaya görə, qrantın bir hissəsi layihə ilə bağlı məsləhət xidmətlərinə yönəldiləcək. Belə ki, məsləhətçi Abşeron göllərinin bərpası üzrə mövcud texniki-iqtisadi əsaslandırmaları bir daha nəzərdən keçirəcək və yeniləyəcək. Texniki-iqtisadi əsaslandırma və texniki layihə sənədlərinin tamamlanmasından xeyli müddət keçdiyini nəzərə alaraq, Böyükşor, Xocasən və Zığ gölləri və ətraf əraziləri üzrə texniki-iqtisadi əsaslandırmaların yenilənməsi tələb olunur. İşlərə bu ilin noyabr ayından başlanması planlaşdırılır. Sözügedən göllərin texniki-iqtisadi əsaslandırmaların yenilənməsinin isə 500 min ABŞ dollarına başa gələcəyi gözlənilir.

***XQ***

# ABŞ şirkətlərinin ölkəmizə genişmiqyaslı marağı

**(əvvəli 1-ci səhifədə)**

2024-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə bu şirkət arasında qurulan uğurlu tərəfdaşlığı vurğulayan dövlətimizin başçısı, xüsusilə İtaliyanın aparıcı sürətli dəmir yolu operatoru “Italo”ya yatırılan birgə sərmayəni səmərəli əməkdaşlığın nümunəsi kimi qiymətləndirib, şirkətin hava limanlarının idarə olunması, enerji keçidi və süni intellekt infrastrukturu kimi sahələrdə təcrübəsinin gələcək əməkdaşlıq üçün böyük imkanlar açdığını bildirib.

Adebayo Oqunlesi Azərbaycanın strateji coğrafi mövqeyinin və dayanıqlı inkişaf prioritetlərinin infrastruktur sahəsində uzunmüddətli investisiyalar üçün mühüm imkanlar yaratdığını yüksək dəyərləndirərək rəhbərlik etdiyi şirkətin enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində ölkəmizlə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu qeyd edib.

Xatırladaq ki, “Global Infrastructure Partners” şirkəti 2006-cı ildə ABŞ-da təsis edilib. Hazırda, təxminən, 170 milyard ABŞ dolları məbləğində aktivləri idarə edən şirkətin Nyu-York, London, Sinqapur, Sidney və digər qlobal maliyyə mərkəzlərində ofisləri fəaliyyət göstərir. “Global Infrastructure Partners”in nəzarət etdiyi bərpaolunan enerji sahəsindəki şirkəti isə ABŞ-da bu sahədə aparıcı mövqeyə malikdir.

Prezident İlham Əliyevin Nyu-Yorkda dünyanın ən iri və nüfuzlu qlobal investisiya menecerlərindən biri olan “Franklin Templeton” şirkətinin baş icraçı direktoru və prezidenti Cenni Conson ilə görüşünü də ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi baxından əhəmiyyətli hesab etmək olar.

Ölkəmizin son illərdə həyata keçirdiyi iqtisadi layihələrin və inkişaf istiqamətində gördüyü tədbirlərin beynəlxalq kapital üçün mühüm imkanlar yaratdığını vurğulayan Cenni Conson Azərbaycanda investorlar üçün formalaşmış sabit və əlverişli mühiti yüksək qiymətləndirərək bunun uzunmüddətli tərəfdaşlığa möhkəm zəmin yaratdığını qeyd edib. Onun sözlərinə görə, “Franklin Templeton”un kapital bazarları, infrastruktur, daşınmaz əmlak və bərpaolunan enerji sahələrində çoxillik və uğurlu təcrübəsinin Azərbaycanın iqtisadi və maliyyə, həmçinin “yaşıl gündəliy”inin icrasına töhfə verə biləcək.

Prezident İlham Əliyev şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə sıx əməkdaşlığına toxunaraq mövcud tərəfdaşlığın ölkəmizin kapital bazarlarının dərinləşdirilməsi, regionun investisiya potensialının gücləndirilməsi və dayanıqlı inkişafı baxımından da mühüm əhəmiyyət daşıdığını bildirib. Dövlətimizin başçısı bu şirkətin alternativ investisiya sahəsindəki təcrübəsinin və xüsusilə, region ölkələrində həyata keçirdiyi uğurlu layihələrin qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsinə xüsusi fayda verəcəyini vurğulayıb.

Qeyd edək ki, 1947-ci ildə ABŞ-da təsis edilən “Franklin Templeton” hazırda, təxminən, 1,6 trilyon dollar həcmində aktivləri idarə edir. Hazırda 30-dan çox ölkədə 70-ə yaxın ofisinin olduğu şirkət 170-dən artıq ölkədə mindən artıq müştərək fond və genişçeşidli investisiya məhsullarını idarə edir.

Prezident İlham Əliyevin Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi ilə görüşündə isə iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisinə qalxması, hazırda iqtisadi-ticari əlaqələrimizin genişləndirilməsi üçün böyük imkanların olduğu vurğulanıb. Söhbət zamanı Azərbaycanın və ABŞ-ın biznes dairələri arasında birbaşa əlaqələrin yaradılmasının və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkilinin vacibliyinə toxunulub.

Yeri gəlmişkən, dünən Bakıda “Xəzər və Mərkəzi Asiya – neft emalı, neft-kimyası, ticarət, logistika” mövzusunda keçirilən toplantıda “Energy Intelligence Group”un neft bazarları üzrə iqtisadçısı Julyen Matonyer ABŞ-ın “Chevron” və “ExxonMobil” kimi neft nəhənglərinin Azərbaycana getdikcə daha çox maraq göstərdiklərini bildirib. Onun sözlərinə görə, Xəzər regionundan ixrac marşrutu kimi strateji mövqeyi ölkəmizin cəlbediciliyini daha da artırır.

Xatırladaq ki, ABŞ Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Təkcə onu qeyd etmək kifayətdir ki, son illər Birləşmiş Ştatlar regionda ən çox birbaşa xarici sərmayələri məhz ölkəmizə yatırıb. Azərbaycanın Dövlət Neft Fondu ABŞ-ın maliyyə təşkilatları və fondları ilə sıx əməkdaşlıq edərək qiymətli kağızlar və daşınmaz əmlak bazarına təxminən 7,6 milyard dollar sərmayə yönəldib. Ümumilikdə, 1995-ci ildən 2025-ci ilin mart ayınadək olan dövrdə ABŞ-dan Azərbaycana, ümumilikdə, 18,9 milyard dollar investisiya qoyulub. Bunun da 17,4 milyard dollar neft-qaz, 1,5 milyard dollar isə qeyri-neft-qaz sektoruna yönəldilib.

Ötən müddətdə Azərbaycanda 300-dən çox ABŞ şirkəti qeydiyyatdan keçib. Hazırda həmin şirkətlərin 220-si aktiv fəaliyyət göstərir. Bütün bunlar ölkələrimiz arasında ticarət əməliyyatlarının ildən-ilə artmasına səbəb olub. Ümumilikdə isə 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 1 milyard 752 milyon 955,77 min dollara çatıb ki, bunun da 135 milyon 30,86 min dollar idxalın, 1 milyard 617 milyon 924,91 min dolları isə ixracın payına düşüb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Ekspert rəyi**



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

**Dövlət başçısı cənab İlham Əliyevin ABŞ-da keçirdiyi mühüm görüşlər, ilk növbədə, iri fondların ölkəmizə marağının təzahürüdür və eyni zamanda, önəmli siqnal verir. Son zamanlar Azərbaycan xarici bazarlar və beynəlxalq institutlarla daha sıx inteqrasiya şəraiti yaradır. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ildə ölkəyə qoyulan xarici investisiyaların həcmi 300 milyard dolları ötüb və bu yalnız enerji sektoruna deyil, həm də digər sahələrin inkişafına təsir edir.**

Daha önəmli bir məqam ondan ibarətdir ki, görüşlər məhz qarşı tərəflərin müraciəti əsasında reallaşıb. Əsas səbəb isə Azərbaycanın maliyyə bazarlarının inkişafı üçün önəmli platforma olmasıdır. Bu görüşlər, həmçinin maliyyə bazarlarının inkişafı üçün önəmli platformadır. Ümumilikdə, belə görüşlər ölkənin həm regional, həm də qlobal iqtisadi proseslərdə söz sahibinə çevrilməsinə xidmət edir. Xarici investorlara göstərilən maraq ölkənin sabitlik və təhlükəsizlik amillərinin, eləcə də uğurlu xarici siyasətinin nəticəsidir və bu, dövlət büdcəsinin gəlirlərinin artmasına və sosial islahatların dərinləşməsinə gətirib çıxara bilər.

“Franklin Templeton” kimi qlobal aktiv idarəetmə şirkətlərinin iştirakı göstərir ki, ölkəmizdə kapital bazarlarının fəal idarə olunması və müxtəlif maliyyə alətlərinin inkişafı üçün əlverişli şərait formalaşır. Bu, gələcəkdə dövlətin və özəl sektorun beynəlxalq maliyyə bazarlarında fəal iştirakına imkan verə bilər. Özəl sektor üçün ucuz maliyyə resurslarının cəlb olunması və beynəlxalq investorların etibarının artması mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, bu investisiyalar nəqliyyat və logistika infrastrukturunun, xüsusilə Orta Dəhlizin strateji əhəmiyyətini bir daha gündəmə gətirir və onun inkişafına təkan verəcək.

Azərbaycanın beynəlxalq investorlar üçün təkcə enerji ixracatçısı deyil, həm də regional nəqliyyat-logistika mərkəzi kimi rolunun möhkəmlənməsi ölkəyə investisiya axınını sürətləndirəcək. Nəticədə, logistika, yol infrastrukturu və nəqliyyat xidmətlərinə yatırımlar genişlənəcək və bu, qeyri-neft sektorunun – kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm və s. inkişafına müsbət təsir göstərəcək. Bununla da, məşğulluq artacaq, iqtisadi dayanıqlılıq yüksələcək və xarici kapitalın, texnologiyaların cəlbi vasitəsilə maliyyə sabitliyi güclənəcək.

Ümumilikdə, Prezident İlham Əliyevin iştirakı ilə reallaşan belə görüşlər ölkənin həm regional, həm də qlobal iqtisadi proseslərdə söz sahibinə çevrilməsinə xidmət edir.

# Vətən müharibəsinə aparan Qələbə müjdəli yol

**(əvvəli 1-ci səhifədə)**

Bu gün 5 il bundan əvvəl baş verən hadisələri təhlil etməmişdən öncə Vətən müharibəsinədək Ermənistan–Azərbaycan arasında mövcud olmuş münaqişə dövründə bölgədə gedən proseslərə qısa nəzər yetirməyin vacibliyi ön plana çıxır. Sovet imperiyasının süqutu ərəfəsində Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalan Azərbaycanda, xüsusilə müstəqilliyimizin bərpasının ilk illərində nizami ordunun olmaması, hərbi texnika çatışmazlığı və siyasi böhran səbəbindən torpaqlarımız biri-birinin ardınca Ermənistanın keçmiş havadarlarının köməyi ilə işğal olunurdu.

Azərbaycan "Olum, ya ölüm" dilemması qarşısında qaldığı bu çətin dövrdə – 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı vəziyyəti tamamilə dəyişdi. Dahi liderin hakimiyyət sükanı arxasına keçməsindən dərhal sonra ölkədə xaosa, anarxiyaya, özbaşınalığa son qoyuldu, bütün sahələrdə sabitlik yarandı. Hərbi sahədə müasir ordu quruculuğu strategiyasının həyata keçirilməsinə başlanıldı. Həmin dövrdən başlayaraq Silahlı Qüvvələrin formalaşdırılması dövlət siyasətinin prioritetinə çevrildi.

Ordunun strukturunun gücləndirilməsi, peşəkar və vətənpərvər zabit heyətinin hazırlanması, beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi və ordunun ən müasir silahlarla komplektləşdirilməsi atılan mühüm addımlar sırasında oldu. Ulu öndərin gərgin əməyi sayəsində çox qısa müddətdə Azərbaycan hərbi, iqtisadi, siyasi baxımdan regionun lider dövlətinə çevrilməyə başladı.

Sonrakı illərdə NATO ilə əməkdaşlıq proqramları çərçivəsində ordumuzun peşəkarlığı daha da artırıldı, Silahlı Qüvvələrimizin beynəlxalq təlimlərdə iştirakı təmin edildi. 2003-cü il oktyabrın 15-də xalqın mütləq əksəriyyətinin səsverməsi ilə müstəqil Azərbaycanın dövlət başçısı seçilən, ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətini layiqincə davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin təşəbbüsləri və bilavasitə rəhbərliyi ilə dövlət büdcəsində müdafiə xərclərinin əhəmiyyətli dərəcədə artırılması, müasir hərbi texnikanın alınması, yerli hərbi sənaye kompleksinin qurulması və şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi nəticəsində Azərbaycan Ordusu regionun ən güclü ordusuna çevrildi. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz güclü ordu yaratdıq və bu ordu Vətən müharibəsində öz sözünü dedi.

Qüdrətli Azərbaycan Ordusunun döyüş meydanında öz sözünü deməsindən söhbət açarkən Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Vətən müharibəsinin baş məşqi" adlandırdığı 2016-cı ilin Aprel döyüşlərinin Qarabağın azad edilməsi prosesində rolunu və önəmini vurğulamaq gərəkdir. Məhz 2016-cı ilin aprel ayının əvvəlində düşmənin növbəti hərbi təxribatları nəticəsində baş verən dördgünlük döyüş Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində uzun illər davam edən status-kvonun dəyişməsinin başlanğıcı oldu.

Azərbaycan Ordusu qısa müddət ərzində mühüm yüksəklikləri, o cümlədən 1994-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş uğurlu "Horadiz əməliyyatı"nda azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində uzun illər boyu soydaşlarımızın məskunlaşmasına imkan verməyən, işğalçıların nəzarətində olan önəmli Lələtəpə yüksəkliyini düşməndən təmizlədi. Bu əməliyyat yalnız bir hərbi uğur deyil, həm də siyasi baxımdan dönüş nöqtəsi oldu və Azərbaycan dövlətinin strateji qərarvermə qabiliyyətini bütün dünyaya əyani şəkildə nümayiş etdirdi.

Aprel döyüşləri Ermənistan cəmiyyətində isə əksinə, ciddi böhran yaratdı, uzun illər haqqında miflər uydurulan "məğlubedilməz Ermənistan ordusu"nun zəif və gücsüz olması açıq şəkildə üzə çıxdı. Azərbaycan bu döyüşlərlə sübut etdi ki, torpaqlarını hər an azad etməyə qadirdir.

Bundan sonra Silahlı Qüvvələrimizin daha bir möhtəşəm uğuru, 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasında keçirilən Günnüt əməliyyatı Azərbaycan Ordusunun yüksək döyüş hazırlığının bariz göstəricisi oldu. Bu əməliyyat nəticəsində bir sıra strateji yüksəkliklər azad edildi və düşmənin əsas təchizat yolları nəzarət altına alındı. Günnüt uğuru yalnız taktiki nəticə kimi deyil, həm də psixoloji baxımdan önəmli hadisə idi. O vaxt Azərbaycan xalqı bir daha əmin oldu ki, tezliklə torpaqlarımızın işğaldan azad olunması məsələsi təkcə arzuda deyil, reallıqda da öz əksini tapacaq.

Azərbaycan xalqının bu əminliyi təqribən 2 il sonra real həyatda öz əksini tapdı. Bu baxımdan, 2020-ci ilin iyulunda düşmən silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatlar təkcə Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə üçün deyil, bütövlükdə region üçün həm siyasi, həm də hərbi müstəvidə mühüm nəticələr doğurdu. Ermənistanın bu təxribatının qarşısının alınması zamanı Azərbaycan Ordusunun göstərdiyi fədakarlıq və igidlik nümunələri düşmənin bütün planlarını alt-üst etdi. Bu döyüşlər Azərbaycanda xalq-iqtidar birliyini daha da möhkəmləndirdi və ölkədə geniş vətənpərvərlik ruhu formalaşdırdı. Tovuz döyüşləri həm də beynəlxalq miqyasda rezonans yaratdı. Qardaş Türkiyə Azərbaycanın yanında olduğunu açıq şəkildə bəyan etdi, Pakistan, İsrail və digər dost dövlətlər də ölkəmizə siyasi-mənəvi dəstək verdilər.

Şübhəsiz, bütün bunlar Vətən müharibəsinin başlayacağı təqdirdə qüdrətli Azərbaycan dövlətinin şəksiz qələbəsini təmin edəcək mühüm amillər idi. Lakin 44 günlük Vətən müharibəsinədək işğalçı Ermənistanın ovaxtkı müdafiə naziri David Tonoyanın tez-tez bəyan etdiyi "Yeni müharibə, yeni ərazilər" xülyasına düşən təcavüzkar dövlətə yuxarıda haqqında danışdığımız döyüşlər zamanı əldə olunmuş uğurlar sayəsində verilən bu mühüm mesajlar dərs olmadı. Nəticədə 2020-ci il sentyabrın 27-də Ermənistanın əsasən mülki vətəndaşlarımızı və obyektlərimizi hədəfə alan növbəti genişmiqyaslı hərbi təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin ildırımsürətli əks-hücum əməliyyatına start verməsi ilə Vətən müharibəsi başlandı.

Tariximizə "Dəmir yumruq" adı ilə düşən bu hərbi əməliyyatlar Azərbaycan dövlətinin hərbi-siyasi gücünü, xalq-ordu birliyini nümayiş etdirdi. 44 gün ərzində Azərbaycan Ordusu həm o vaxtadək misli görünməmiş hərbi üstünlüyünə nail oldu, həm də beynəlxalq hüququn təminatçısı kimi ədaləti bərpa edərək işğal altındakı ərazilərimizin hərbi yolla azad edilməsini təmin etdi.

"Dəmir yumruq" əməliyyatının başlanğıcında əsas hədəflərdən biri Ermənistanın illərlə möhkəmləndirdiyi və haqqında miflər uydurduğu "Ohanyan xətti"nin darmadağın edilməsi idi. Azərbaycan Ordusu modern hərbi texnologiyalardan – pilotsuz uçuş aparatlarından, yüksək dəqiqlikli raket sistemlərindən, elektron kəşfiyyat vasitələrindən istifadə edərək düşmənin "keçilməz Ohanyan xətti"ni qısa müddətdə yerlə-yeksan etdi. Cəbrayıl və Füzuli istiqamətlərində aparılan əməliyyatlar nəticəsində Ermənistanın illərlə güvəndiyi istehkamlar darmadağın edildi və düşmənin cəbhə xətlərindəki mövqeləri tamamilə sıradan çıxarıldı.

Müasir hərbi strategiyanın bütün üsullarından uğurla istifadə edən müzəffər Azərbaycan Ordusu arsenalında olan ən müasir "Bayraktar TB2" pilotsuz uçuş aparatları və "Harop" tipli kamikadze dronlarla düşmənin zirehli texnikasını və artilleriyasını yüksək peşəkarlıqla məhv etdi. Qısa müddətdə yüzlərlə tank, artilleriya qurğuları və hava hücumundan müdafiə sistemləri tamamilə sıradan çıxarıldı. Ordumuzun təmin etdiyi bu taktiki üstünlük 44 günlük Vətən müharibəsinin gedişatında dönüş nöqtəsi oldu, Ermənistan ordusunun ruh düşkünlüyünü artırdı və hərbi strategiyasını iflic vəziyyətinə gətirdi.





Ümumiyyətlə, Vətən müharibəsinin hər günü yeni qələbələrlə, hərbi uğurlarla zəngin oldu. Oktyabrın əvvəlində Cəbrayılın, ardınca Füzulinin azad edilməsi Azərbaycan Ordusunun hücum tempini yüksəltdi. Daha sonra Zəngilan və Qubadlının azad olunması Azərbaycana bölgədə strateji üstünlük yaratdı. Bu əməliyyatlar nəticəsində həm Araz çayı boyunca dövlət sərhədimiz bərpa edildi, həm də Ordumuz Şuşa istiqamətində sürətlə irəlilədi. Bu, hərbi üstünlüyün taktiki və strateji uğurunu birləşdirən möhtəşəm əməliyyatlar silsiləsi idi.

Bütün dünyanı heyrətləndirən, strateji, taktiki hazırlığına və icrasına görə hərb tarixində misli görünməmiş hadisə olan əfsanəvi Şuşa əməliyyatı Vətən müharibəsinin taleyini həll edən ən mühüm addım oldu. Düşmən "alınmaz qala" kimi təqdim etdiyi Şuşanın müdafiəsinə xüsusi qüvvələrini cəlb etsə də, yüngül silahlarla silahlanmış Azərbaycan xüsusi təyinatlıları sıx meşəliklərdən keçərək, sıldırım qayaları qarış-qarış dırmanaraq Ermənistan silahlı birləşmələrinin gözləmədiyi istiqamətdən şəhərə daxil oldu.

Şəhərin küçələrində əlbəyaxa döyüşlər nəticəsində 28 il xilaskarını gözləyən Qarabağın tacı, qədim mədəniyyət mərkəzimiz Şuşa 2020-ci il noyabrın 8-də düşməndən tamamilə təmizləndi. Şuşanın azad edilməsi həm tarixi Qələbəmizin zirvəsi, həm də illərin həsrətinin sona yetməsi demək idi.

Həmin tarixi gündə yenilməz sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şəhidlər xiyabanından bu Zəfər müjdəli xəbəri xalqımıza çatdırarkən dediyi "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm" sözləri çoxəsrlik tariximizə qızıl hərflərlə yazıldı. Bu, yalnız Azərbaycanın hərbi Qələbəsinin deyil, həm də xalqımızın mənəvi Zəfərinin rəmzi oldu və 8 Noyabr çağdaş tariximizə hər il böyük təntənə ilə qeyd edilən Zəfər Günü kimi əbədi həkk olundu.

Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən Şuşanın yağı düşmən tapdağından azad olunması Ermənistanın hərbi-siyasi məğlubiyyətinin kulminasiya nöqtəsi idi. Məhz Şuşanın azad edilməsindən sonra Ermənistan rəhbərliyi Vətən müharibəsində biabırçı məğlubiyyətini əks etdirən kapitulyasiya aktını imzalamağa məcbur oldu.

Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanat Azərbaycanın şanlı Zəfərini, işğalçı Ermənistanın isə hərbi-siyasi məğlubiyyətini rəsmiləşdirdi. Bəyanata əsasən, Ermənistan tərəfi Kəlbəcər, Laçın və Ağdam rayonlarını döyüşsüz tərk etdi. Bu, həm də Azərbaycan Lideri İlham Əliyevin misilsiz diplomatik bacarığını nümayiş etdirən tarixi Qələbənin növbəti mərhələsi idi. Məhz bu diplomatik uğur sayəsində Azərbaycanın ərazi bütövlüyü təmin edildi və əlavə insan itkilərinin qarşısı alındı.

Vətən müharibəsi Azərbaycan cəmiyyətində misilsiz birlik yaratdı. Səngərdə əsgər və zabitlər, arxa cəbhədə isə bütün xalq mübarizəyə qoşuldu. 44 günlük müharibədə könüllülərin orduda xidməti, cəbhəyə yardımların təşkili, gənclərin fəallığı milli həmrəyliyin ən yüksək nümunəsinə çevrildi. Bu, həm də sosial birliyin və vətənpərvərlik ruhunun ordunun döyüş qabiliyyətini artıran güc mənbəyi olduğunu göstərdi.

2020-ci ilin Vətən müharibəsində tarixi Zəfərin qazanılmasında Prezident İlham Əliyevin qalib Ali Baş Komandan və beynəlxalq miqyasda çevik strateq kimi atdığı addımlar həlledici amillərdən oldu. Onun uzaqgörənliyi, qətiyyəti və hərbi-siyasi idarəçilik bacarığı Azərbaycan xalqının iradəsi ilə birləşərək torpaqlarımızın işğaldan azad edilməsini təmin etdi. Dövlətimizin başçısı Vətən müharibəsinədək 17 ili əhatə edən dövr ərzində yürütdüyü ardıcıl və məqsədyönlü siyasət nəticəsində şanlı ordumuzu regionun ən güclü hərbi qüvvəsinə çevirmişdi.

17 il ərzində həyata keçirilən hərbi islahatlar, ən müasir texnika və silahların arsenala daxil edilməsi, yeni qoşun növlərinin yaradılması, həmçinin zabit heyətinin peşəkarlığının artırılması Azərbaycan Ordusunun döyüş qabiliyyətini yüksək səviyyəyə çatdırdı. Bu hazırlıq müharibə dövründə tam şəkildə öz səmərəsini verdi. Müharibə zamanı Ali Baş Komandan döyüş əməliyyatlarına daim rəhbərlik etdi və nəzarətdə saxladı, hərbi qərarların strateji istiqamətlərini müəyyənləşdirdi. Bütün bunlar Prezident, Ali Baş Komandan İlham Əliyevin düzgün planlaşdırma və çevik hərbi-strateji yanaşmasının parlaq nümunəsi idi.

44 günlük Vətən müharibəsi yalnız hərbi deyil, həm də diplomatik cəbhədə ciddi sınaq oldu. Ermənistan müxtəlif vasitələrlə beynəlxalq aləmdən dəstək almağa, Azərbaycanın haqlı mübarizəsini kölgədə qoymağa çalışırdı. Bu şəraitdə Azərbaycan Prezidenti balanslı siyasəti, qətiyyətli arqumentləri və diplomatik çevikliyi ilə ölkəmizin mövqeyini yüksək səviyyədə qorumağı bacardı.

Savaş günlərində Türkiyə ilə qardaşlıq münasibətlərinin gücləndirilməsi Azərbaycanın ən mühüm üstünlüklərindən biri oldu. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasındakı qardaşlıq münasibətləri Azərbaycan üçün güclü diplomatik dayağa çevrildi. Türkiyə və digər dost dövlətlərin açıq dəstəyi həm Ermənistanı, həm də ona himayədarlıq edən qüvvələri geri çəkilməyə məcbur etdi.

Vətən müharibəsinin gedişində Prezident İlham Əliyevin dünyanın aparıcı media qurumlarına verdiyi çoxsaylı müsahibələr informasiya müharibəsində də Azərbaycanın qələbəsini təmin etdi. Müsahibələrdə dövlətimizin başçısı faktlara əsaslanaraq Ermənistanın işğalçı siyasətini ifşa edir, ölkəmizin beynəlxalq hüquqa uyğun mövqeyini dəqiq arqumentlərlə əsaslandırırdı. Bu yanaşma nəticəsində dünya ictimaiyyəti Azərbaycanın haqlı mübarizəsini qəbul etdi, Ermənistan isə beynəlxalq müstəvidə təcrid olundu.

Göründüyü kimi, Vətən müharibəsində Azərbaycanın Qələbəsinin əsas səbəbi hərbi və diplomatik gücün sintezində idi. Döyüş meydanında qazanılan uğurlar dövlətimizin beynəlxalq mövqeyini gücləndirdi, diplomatik dəstək isə orduda ruh yüksəkliyini artırdı. Şuşanın azad edilməsindən sonra Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması və Ağdam, Kəlbəcər, Laçın rayonlarının döyüşsüz qaytarılması məhz bu sintez modelinin parlaq nəticəsi idi

Bu amillər Prezident İlham Əliyevin güclü strateq kimi unikal yanaşmasının göstəricisi idi. Məhz bu sintez sayəsində hərbi qələbələr diplomatik masada üstünlüyə çevrilir, diplomatik üstünlüklər isə ordunun əməliyyat imkanlarını genişləndirirdi. Vətən müharibəsinin nəticələri Azərbaycanın tarixi taleyini köklü şəkildə dəyişdi. Ermənistanın illərlə yaratdığı "qalib ölkə" mifologiyası tamamilə darmadağın edildi. Azərbaycan xalqı öz gücünə, ordusuna və liderinə inanaraq 30 ilə yaxın davam edən işğala son qoydu.

Prezident və Ali Baş Komandan İlham Əliyev bu müharibədə yalnız dövlət başçısı kimi deyil, həm də milli Lider kimi çıxış etdi. Onun rəhbərliyi altında Azərbaycan həm hərbi, həm siyasi, həm də mənəvi baxımdan qələbə qazandı. Bütün bunlar, yəni yenilməz iradə, strateji düşüncə, diplomatik çeviklik və milli həmrəyliyin sintezi yeni dövrün liderlik modeli idi. Vətən müharibəsi sübut etdi ki, dövlətimizin başçısı təkcə Azərbaycanın deyil, bütün regionun gələcək siyasi reallıqlarını müəyyən edən müdrik Liderdir. Vətən müharibəsində tarixi Zəfər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qurulan modern dövlətçilik modelinin, milli gücün və xalqın iradəsinin təntənəsi oldu.

BMT, ATƏT və digər beynəlxalq təşkilatlar isə ölkəmizin ərazi bütövlüyünün təmin olunmasının vacibliyini təsdiqlədilər. Bu, Azərbaycanın yalnız regional deyil, qlobal siyasi nüfuzunun da artmasını təmin etdi.

Müharibənin zirvə anında – 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanat regionda davamlı sülhün təmin olunması üçün ilkin şərtləri müəyyənləşdirdi. Bu sənədə əsasən, Rusiya sülhməramlıları azad edilmiş ərazilərdə yerləşdirildi. Sülhməramlıların əsas vəzifəsi tərəflər arasında etimad mühitinin yaradılması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması və regional sabitliyin qorunması idi.

Rusiya sülhməramlılarının ərazilərimizdə yerləşdirilməsinə baxmayaraq, Ermənistan silahlı birləşmələrinin qalıqları və erməni separatçıları beynəlxalq qanunlara məhəl qoymadan təxribatçı fəaliyyətlərini daha da genişləndirməyə cəhd edirdilər. Onlar müxtəlif silahlı qruplar vasitəsilə Azərbaycanın Qarabağ ərazisində, Azərbaycan – Ermənistan şərti dövlət sərhədində terror xarakterli əməliyyatlar həyata keçirməyə başladılar. Bu təxribatlar həm hərbi infrastruktur və nəqliyyat yollarına, həm də mülki əhaliyə birbaşa təhlükə yaradır, azad edilmiş bölgələrimizdə bərpa-quruculuq işlərinin aparılmasını ciddi risk altında qoyurdu.

10 noyabr üçtərəfli Bəyanatın müddəalarına əsasən, Qarabağ bölgəsini dərhal tərk etməli olan Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin hələ də bölgədə qalması göstərdi ki, beynəlxalq razılaşmalar və sülhməramlıların mövcudluğu ərazidə təhlükəsizliyin tam təminatı üçün kifayət etmir. Təxribatçı fəaliyyətlər, eyni zamanda, regional sabitliyə də təhdid təşkil edirdi. Ermənilərin təxribat-diversiya fəaliyyətləri bölgədə gərginliyi artırır və humanitar vəziyyətin pisləşməsinə səbəb olurdu. Bu vəziyyət Azərbaycanın hərbi gücünün və strateji hazırlığının əhəmiyyətini bir daha ortaya qoydu.

Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən azərbaycanlı mülki əhalinin, o cümlədən ərazidə xidmət aparan polis əməkdaşlarının, eləcə də tikinti-quruculuq işlərinə cəlb edilmiş mütəxəssislərin qətli dövlətimizi adekvat addımlar atmağa məcbur etdi. 2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusu Qarabağ iqtisadi rayonundakı separatçı-terrorçu xunta rejiminin mövcudluğuna son qoymaq üçün lokal xarakterli antiterror əməliyyatı həyata keçirdi.

Operativ hərbi tədbirlər nəticəsində Qarabağ iqtisadi zonasındakı mülki erməni əhaliyə və mülki obyektlərə heç bir zərər vermədən Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin mövqeləri və döyüş texnikası zərərsizləşdirildi, çoxlu sayda silah-sursat müsadirə edilərək ərazidən götürüldü və təhlükəsizlik təmin olundu. Bu tədbirlər həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış diplomatik mesaj idi. Azərbaycan bununla beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək göstərdi ki, ərazilərinin və vətəndaşlarının təhlükəsizliyini qorumağa daim qadirdir.

Ümumiyyətlə, 2020–2023-cü illərdə Azərbaycanın liderliyi ilə regionda baş verən proseslər göstərdi ki, yalnız diplomatiya və beynəlxalq razılaşmalar sülhün və təhlükəsizliyin təmin olunması üçün kifayət etmir. Bu məsələdə mütəşəkkil hərbi hazırlıq, qabaqlayıcı əməliyyat planları və strateji nəzarət də vacib amillərdir.

Postmüharibə dövründə dövlətimizin qarşısında duran əsas vəzifə işğaldan azad edilmiş torpaqlarda həyatın bərpası, iqtisadi-sosial infrastrukturun yenidən qurulması və 30 ildən artıq doğma torpağa qovuşmaq arzusu ilə yaşamış keçmiş məcburi köçkünlərin təhlükəsiz və normal həyat şəraitinə qaytarılmasıdır. Bu istiqamətdə həyata keçirilən fəaliyyətlər Qarabağ iqtisadi zonasının və Şərqi Zəngəzurun uzunmüddətli inkişafını təmin edən kompleks layihələr şəklində aparılır.

Azad edilmiş ərazilərdə həyatın bərpası, Böyük Qayıdış Proqramının uğurlu icrası və yeni regional əməkdaşlıqların formalaşdırılması, xüsusilə 5 il bundan əvvəl separatizmin və terrorçuluğun meydan suladığı, bu gün isə artıq tarixi sahibinə qovuşmuş azad Şuşada, Xankəndidə, Ağdamda, Zəngilanda, Qarabağ iqtisadi zonasının və Şərqi Zəngəzurun digər guşələrində mötəbər beynəlxalq tədbirlərin keçirilməsi bu bölgələrdən dünyaya sülh, təhlükəsizlik və əməkdaşlıq mesajlarının ünvanlanması Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbənin davamıdır.

***Albina ATLIXANOVA,***
***jurnalist***

# Paytaxtın adamları və ağacları

## *Ağaclar təmiz hava və gözəllikdir, adamlar isə "yaşıl sakinlər"in qənimidirlər*

**Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən illər ərzində həyata keçirilən genişmiqyaslı abadlıq–quruculuq işləri paytaxt Bakının estetik görünüşünü və infrastrukturunu əsaslı şəkildə yaxşılaşdırıb. Eləcə də bu layihələr şəhərin ekoloji mühitini qorumaq və yaşıllıq sahələrinin artırılması məqsədi daşıyıb. Belə bir dinamik inkişafın müsbət nəticələrinə baxmayaraq, qarşıya çıxan müəyyən mənfi hallar da ciddi narahatlıq yaradıb. Bu mənfi hallar sırasında ağacların qanunsuz kəsilməsi, bununla da yaşıllıqların məhv edilməsi, həmin ərazilərdə iaşə obyektləri və parklanma yerlərinin yaradılması daha çox müşahidə olunub.**



Bakıda yaşıllıqların məhv edilməsi, ağacların kəsilməsi, xüsusən də bütün bunların gecə saatlarında törədilməsinə dövlətimizin başçısı çıxışlarının birində kəskin iradını bildirib: "İctimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol vermək olmaz. Hesab edirəm ki, biz burada daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır. Gecə vaxtı gəlirlər, qanunsuz olaraq ağacları kəsirlər, yerləri düzəldirlər ki, ev tiksinlər. Bu, vicdansızlıqdır, bu, biabırçılıqdır, bu, cinayətdir".

Yaşıllıq sahələrinin azalması təkcə ekosistemi zərərli təsirlərlə üz – üzə qoymur, həm də paytaxtın estetik görünüşünü və sakinlərin həyat keyfiyyətini aşağı salır. Lakin belə hallarda dövlətimizin başçısının təşəbbüsü ilə gerçəkləşdirilən müəyyən layihələr vurğulanan qanunsuz fəaliyyətlərin qarşısını alır. Prezident İlham Əliyev bu cür vəziyyətlərə həssaslıqla yanaşaraq, müvafiq qurumlara mövcud problemlərin aradan qaldırılması üçün konkret tapşırıqlar verir. Ağacların kəsilməsi ilə zəbt edilən ərazilər dərhal dövlət tərəfindən nəzarətə alınır və buradakı qeyri – qanuni tikintilər dayandırılır. Belə ərazilərdə məhv edilən yaşıllıqların yerində əsasən sakinlərin istirahəti və asudə vaxt keçirməsi üçün parklar salınır. Bu, eyni zamanda, vətəndaşların sağlam həyat tərzini dəstəkləmək və onların sosial rifahını yüksəltmək məqsədi daşıyır.

Dövlətin belə neqativ hadisələrə operativ müdaxiləsi həm də vətəndaşların hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Eyni zamanda, ağacların qanunsuz kəsilməsi və ərazilərin bərpası təkcə dövlətin hüquqi qüvvəsini göstərmir, eləcə də şəhər əhalisinin təhlükəsizliyi və sağlam ətraf mühitdə yaşaması üçün mühüm bir addım kimi dəyərləndirilir.

Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə Bakı şəhərinin getdikcə gözəlləşməsi və ekoloji mühitin qorunması istiqamətində atılan addımlar dövlətimizin başçısının şəhərsalma və ətraf mühitin yaxşılaşdırılması sahəsindəki idarəetmə bacarığının bariz nümunəsidir. Ölkə rəhbərinin tapşırığı ilə həyata keçirilən abadlıq –quruculuq işləri, sadəcə, estetik görünüşün yaxşılaşdırılması ilə məhdudlaşmır, həm də şəhər sakinlərinin sosial və ekoloji cəhətdən sağlam həyat yaşamalarını gerçəkləşdirir.

Lakin bu prosesdə hər bir vətəndaşın, eləcə də cəmiyyətin üzərinə böyük məsuliyyət düşür. İctimaiyyətin qeyri – qanuni ağac kəsiminin qarşısını almaq üçün fəal şəkildə məlumatlandırılması və maarifləndirilməsi mühüm önəm daşıyır. Dövlətin operativ reaksiyası isə yalnız hökumətin gücünü deyil, eyni zamanda, cəmiyyətin irəliyə doğru atdığı mühüm addımları nümayiş etdirir.

İndi isə bu istiqamətdə yol verilən neqativ halların aradan qaldırılması məqsədilə son vaxtlar həyata keçirilən tədbirlərə qısa nəzər salaq. Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən bir neçə gün bundan əvvəl reallaşdırılan nəzarət tədbirləri zamanı Xəzər rayonunun Mərdəkan qəsəbəsində, Nəsimi rayonunun 20 Yanvar və Cavadxan küçələrinin kəsişməsində, Yasamal rayonunun A.M.Şərifzadə küçəsi, 722 ünvanında ağacların qanunsuz kəsilməsi nəticəsində yaşıllıqlara 165 min 260 manat məbləğində ziyan dəydiyi müəyyənləşdirilib.

Belə bir vəziyyətlə iyul ayında da qarşılaşılıb. Bakı şəhərində və Abşeron rayonunun inzibati ərazilərində yaşıllıqların qanunsuz kəsilməsi halları aşkarlanıb. Araşdırma zamanı paytaxtın Nəsimi rayonunun Mərdanov qardaşları, Sabunçu rayonunun Bəşir Bünyadov, Xətai rayonunun Rahib Məmmədov, Nərimanov rayonunun Ağa Nemətulla, Hacı Məmməd və Faiq Yusifov küçələrində, eyni zamanda, Nərimanov rayonunun Dərnəgül qəsəbəsində, eləcə də Bakı – Sumqayıt avtomobil yolunun 14-cü kilometrliyində və Xırdalan şəhərinin Hacı Zeynalabdin Tağıyev küçəsində ağac və kolların qanunsuz kəsilməsi nəticəsində geniş həcmdə yaşıllıqlar sıradan çıxarılıb. Ağacların qanunsuz kəsilməsi nəticəsində vurulan ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələnin hüquqi qiymətləndirilməsi üçün toplanmış materiallar hüquq – mühafizə orqanlarına göndərilib.



Bu məqamda yaşıllıqlara qarşı laqeydliyi ifadə edən acı bir mənzərəni də xatırlatmaq istərdik. Bu gün Biləcəri qəsəbəsinin Natəvan küçəsində yerləşən meşəlik ərazi acınacaqlı vəziyyəti ilə narahatlıq doğurur. Ərazinin baxımsızlığı, buradakı ağaclara qulluq edilməməsi, onların çoxunun quruması, bəzilərinin isə aşması bu sahəyə məsul qurumların biganəliyi kimi qiymətləndirilir. Biləcəri Bələdiyyəsindən isə ağacların aşması və ya quruması ilə bağlı Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinə və Dövlət Ekoloji Ekspertiza Agentliyinə məlumat verildiyi bildirilir. Adıçəkilən agentlik isə yaşıllıqların quruması səbəbindən kəsilməsinə rəy verilməsi ilə bağlı hər hansı müraciət daxil olmadığını təkzib edir, onlara bu barədə heç bir dəlil – sübut göndərilmədiyini vurğulayır.

Ekoloqlar tərəfindən ağacların quruması, eləcə də qəzalı vəziyyətə düşməsi əsasən iki səbəblə əlaqələndirilir. Birincisi, qurumanın ağaclara vaxtında düzgün aqrotexniki qulluq göstərilməməsi, ikincisi isə xəstəliklə əlaqədar olduğu bildirilir. Qeyd edilir ki, yaşıllıq mülkiyyətçiləri üzərlərinə düşən öhdəlikləri layiqincə yerinə yetirsələr, vaxtında monitorinq və qiymətləndirilmə aparsalar, ağacların indiki kimi bu cür kütləvi surətdə məhvi halları da azalar.

Burada bir məsələ da narahatlıq doğurur. Bir sıra hallarda qırılıb avtomobillərin üstünə düşmüş ağaclar maşınların əzilməsi, vətəndaşlara maddi zərər dəyməsi ilə nəticələnir. Hətta bəzi vaxtlar insan tələfatı ilə də üzləşilir. Əlbəttə, belə acınacaqlı vəziyyət yuxarıda vurğulandığı kimi, ağaclara vaxtında düzgün aqrotexniki qulluq göstərilməməsi, nəticədə onlarda xəstəliklərin yaranması və içindən çürüyərək quruması isə əsasən yaşıllaşdırmaya məsul qurumların biganəliyindən irəli gəlir. Buna görə də ağacların güclü küləyə tab gətirməyərək aşması, maşınları əzməsi və vətəndaşlara maddi zərər dəyməsi ilə nəticələnir.

Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyindən bildirilir ki, güclü küləyin təsirindən ağacların qol–budağının qırılması heç də onların quruması və ya xəstə olması ilə bağlı deyil. Təbiət hadisələri ilə üzləşilən daha çox sağlam sapora ağaclarıdır ki, onlar güclü küləyə həssasdır və qeydiyyatı daim diqqət mərkəzində saxlanılır. Hətta həmin ağaclar qurumuş olsalar belə, onların özbaşına kəsilməsi, yaxud yerlərinin dəyişilməsi, budanılması qanunsuz hal sayılır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, əvvəllər belə vəziyyətlə üzləşiləndə – qurumuş ağacların kəsilməsi zərurəti yarananda birbaşa bu nazirliyə müraciət olunurdu, amma indi müvafiq qanunda aparılan dəyişiklikdən sonra bununla bağlı yerli icra strukturlarına müraciət edilir. Onlar tərəfindən bu müraciət nazirliyə təqdim edildikdən sonra qurumun mütəxəssis qrupu göstərilən ərazidə olub ağacların ekspertizasını həyata keçirir, onların kəsilib – kəsilməməsinə qərar verir. Beləliklə, ciddi narahatlıq doğuran halın baş verməməsi üçün mövcud qanunvericiliyə əsasən, rayon icra hakimiyyətlərinə aid ərazilərdəki yaşıllıqlara onlar tərəfindən aqrotexniki qulluq göstərilməli, ağaclarda quruma və ya hər hansı təhlükəli vəziyyət müşahidə olunduğu təqdirdə isə mövcud vəziyyət barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məlumat verilməlidir.

Burada belə bir sualla da qarşılaşılır: qırılıb avtomobillərin üstünə düşən ağaclar maşınların əzilməsinə səbəb olarsa, vətəndaşların üzləşdikləri maddi zərər necə aradan qaldırılır? Düzdür, belə hallarda bir sıra sığorta şirkətləri təbiət hadisələrindən zərərçəkmiş müştərilərin zərərini qarşılayır, amma bu, müqavilənin növündən asılı olur. Bəzi sürücülər isə maşınlarını sığortalayarkən belə halları nəzərə almadıqları üçün sonradan onlara dəyən zərərləri özləri qarşılayır.

Onu da bildirək ki, qurumuş ağaclar insanların həyatı üçün təhlükə mənbəyi sayılsa da, rəsmi qurumların icazəsi olmadan onları kəsənlərə cərimələr tətbiq edilir. Belə hallarda vətəndaşları gözləyən təhlükədən qorumağın yeganə yolu isə qurumuş ağaclarla bağlı rəsmi qurumlara müraciət etməkdir.

Qurumuş ağacların səbəb olduğu qəzalarla bağlı sakinlərlə apardığımız söhbətlər, bu məsələ ilə bağlı uzunmüddətli müşahidələr isə belə təhlükəli hadisələrin qarşısının alınmasına cavabdehlik daşıyan dövlət qurumlarını üzərlərinə düşən vəzifə öhdəliklərini yerinə yetirməkdə maraqlı olmadıqlarını deməyə əsas verir. Başqa sözlə, qurumuş ağacların zərərsizləşdirilməsi ilə bağlı məsələyə səhlənkar yanaşma daha çox diqqət çəkir, artıq ömrünü başa vuran, eyni zamanda, bədbəxt hadisələri, hətta insan itkisini şərtləndirən qurumuş ağacların kəsilməsinə, ərazidən götürülməsinə laqeydliklə yanaşılır, ən əsası isə bununla bağlı sakinlərin müraciətləri, necə deyərlər, qulaqardına vurulur.

Yeri gəlmişkən, bu sətirlərin müəllifi Nəsimi rayonunun Əlövsət Əliyev küçəsində baş verən belə bir hadisə ilə bağlı redaksiyamıza daxil olan məktubun araşdırılması zamanı şahid olub. Bu ərazidəki 5 mərtəbəli yaşayış binasının eyvanına "daxil olan" ağac budağının kəsilməsi haqqında müraciətin həllinə bürokratik məmurlardan "bu gün, sabah" vədi verilməklə iki ay vaxt lazım gəldi. Sadə prosedurlar heç bir əsas olmadan mürəkkəbləşdirilərək müşkül işə çevrildi.

Həmin vaxt mövcud vəziyyət araşdırılarkən digər təəccüblü məqamlar da diqqət çəkdi. Belə ki, paytaxtdakı binaların həyətində, parklarda, küçə və prospektlərdə insan sağlamlığına təhlükə yaradan qurumuş ağaclarla bağlı vətəndaş müraciətlərinə laqeyd yanaşılır. Cavabdeh qurumlar arasında yazışmaların uzun bir müddət çəkməsi isə qurumuş ağacların günlərin birində küləyə davam gətirməyib sınması ilə nəticələnir. Bu cür laqedliyin, səhlənkarlığın zərəri isə yuxarıda xatırlatdığımız kimi ağır olur.

Göründüyü kimi, təhlükə yaradan qurumuş ağacların müvafiq ərazidən götürülməsi elə də asan deyil. Əvvəla bu məsələdə qeyd etdiyimiz kimi, bürokratik əngəllərin mövcudluğu, cavabdeh qurumların sayının çox olması vətəndaş müraciətlərinə operativ baxılmasını çətinləşdirir. Ona görə də bununla bağlı yerli bələdiyyələr və icra hakimiyyətləri üzərinə mühüm vəzifələr düşür. Başqa sözlə, torpaq mülkiyyətçiləri olan bələdiyyə, yerli və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən mütəmadi şəkildə ərazilərdəki yaşıllıqların vəziyyəti ciddi şəkildə öyrənilməli, monitorinqlər keçirilməli, qurumuş, xəstə, qəzalı ağac və kollar müəyyənləşdirilməlidir.

Prosesin ilk mərhələsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyinin əməkdaşları tərəfindən ağacın yerləşdiyi ərazidə əvəzinə yenisinin əkilməsi şərti ilə mövcud ağacın kəsilməsi və yaxud köçürülməsi barədə rəy verilməlidir. Bundan sonra isə təqdim edilən qərarın icrası müvafiq rayonun Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən yerinə yetirilməlidir.

Nəhayət, bu məsələdə fərdi şəxslər də vətəndaş məsuliyyəti daşıyırlar. Belə ki, onlar yaşadıqları, eləcə də digər ərazilərdə təhlükə törədə biləcək qurumuş ağaclara rast gəldikləri zaman, bu barədə inzibati dairənin səlahiyyətlilərinə, məsələn, yerli bələdiyyə orqanına və ya icra hakimiyyətinə məlumat verməlidirlər. Həmin qurumlar isə öz növbəsində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edərək qurumuş ağacların kəsilməsi haqqında razılıq rəyi almalıdırlar.

Sonda bu məsələ ilə bağlı bir yeniliyi də xatırlatmaq istərdik. Yaşıllıqları qorumaq, şəhərin ekoloji tarazlığını bərpa etmək və payız mövsümündə yeni ağacların əkilməsini reallaşdırmaq məqsədilə artıq respublikada pilot layihənin həyata keçirilməsinə başlanılıb. Qurumuş və qəzalı vəziyyətdə olan ağacların elektron şəkildə nömrələnməsi və nişanlanması nəzərdə tutulan və ilk dəfə Gəncə şəhərində gerçəkləşdirilən bu mexanizm ilə həm şəffaflığın, həm də ictimai nəzarətin gücləndirilməsi qarşıya əsas vəzifə kimi qoyulub. Eyni zamanda bu təşəbbüsün yaxın perspektivdə respublikamızın digər ərazilərində də həyata keçirilməsi də planlaşdırılıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimovanın sözlərinə görə, Rəqəmsal Ekologiya İnformasiya Sisteminin tərkib hissəsi olan bu tədbir çərçivəsində quru ağaclar nişanlanaraq üzərində QR kod yerləşdirilir. Hər bir ağac haqqında məlumatı isə www.agac.az saytında ictimaiyyətə açıq şəkildə təqdim olunur.

İ.İbrahimova onu da qeyd edib ki, bu pilot layihə ağacların mühafizəsi baxımından böyük əhəmiyyətə malikdir və daha geniş miqyasda tətbiq olunması nəzərdə tutulur.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Rəhbərlik etdiyim qurumda yaşıllıqların qanunsuz kəsilməsi, baxımsızlıq üzündən ağacların quruması, eləcə də qəzalı vəziyyətə düşməsi ilə bağlı vətəndaşlardan daxil olan şikayətlərə, müraciətlərə hər zaman həssaslıqla yanaşılıb, onların diqqətinə maarifləndirici məlumatlar çatdırılıb. Amma bu məsələyə əhəmiyyət verilməyəndə nəticə təəssüfləndirici olub. Məsələn, Muğan bölgəsində soyuq aylarda evlərin qızdırılmasında yulğun kollarından istifadə olunub. Lakin artıq 15 ildir ki, bu, qadağan edilib və nəticədə yulğun kolluqları bərpa edilib. Amma bu coğrafiyada məskunlaşan hansısa bir kənd sakini bəzən təsərrüfatına kanal çəkərkən yulğun kollarını kəsməyə məcbur olub. Nəticə də təbii ki, böyük məbləğdə cərimələnib.

Paytaxtımıza gəldikdə isə deyə bilərəm ki, Bakıda da bu sahədə bir sıra məqamlar ciddi narahatlıq doğurur. Belə ki, bəzi iş adamları tərəfindən hansısa bir obyektin inşası üçün müxtəlif yollarla ağaclar qurudulur. Belə bir xoşagəlməz əməlin gerçəkləşdirilməsi isə onların külli məbləğdə cərimədən yayınmaları ilə bağlı olur. Xatırladım ki, quruyan ağaclar küləyin təsirindən yıxılaraq avtomobilləri əzir, bəzən isə insan xəsarətləri ilə nəticələnir. Bütün bunlara əsaslanıb qeyd edim ki, quruyan ağacı, yaxud onun evin, yaxud obyektin damında "oturan" bir qanadını kəsmək qanunla qadağandır.

Yeri gəlmişkən, ağac kəsilərkən onun bələdiyyənin ərazisində və dövlət balansında, yaxud vətəndaşa məxsus çıxarışlı olması faktı da nəzərə alınmalıdır. Bu fikri bir qədər də konkretləşdirsəm, deyə bilərəm ki, vətəndaş ağacı özü əkibsə belə, həmin ağac onun həyətyanı sahəsindən kənardadırsa, onda onu kəsmək üçün mütləq torpaq mülkiyyətçisinə (yerli bələdiyyə, icra hakimiyyəti) müraciət edilməlidir. Həmin qurumların Ekologiya və Təbii Sərvətlət Nazirliyinə müraciətindən sonra nazirliyin mütəxəssisləri ağacın mövcud vəziyyətini öyrənmək üçün yerində baxış keçirir. İnsan həyatına və vətəndaşın əmlakına təhlükə törədəcəyi baxımından ağacın kəsilməsi, yaxud köçürülməsi zərurəti yaranarsa, müvafiq rəy verilir. Rəyin icrası yerli yaşıllaşdırma idarəsi tərəfindən gerçəkləşdirilir.

Ümumilikdə yaşıllıqların qorunub mühafizə edilməsi "Yaşılllıqların mühafizəsi haqqında" Qanunla tənzimləndiyinə görə vətəndaşların həyətyanı və bağ sahələrindəki ağacları kəsə bilməsi üçün həmin ərazinin vətəndaşın mülkiyyətinə aid olması barədə təsdiqedici sənədləri olmalıdır. Əgər həyətyanı torpaqların, bağ sahəsinin, xüsusi mülkiyyətə dair dövlət reyestrindən çıxarış sənədləri varsa, ağac vətəndaş tərəfindən kəsilə bilər. Amma bu, yoxdursa, onun ağac kəsməsi qanunvericiliyə ziddir.

Nazirlər Kabinetinin 30 avqust 2016-cı il tarixli "Yaşıllıqların götürülməsi Qaydası"na əsasən ağac kəsilməsinə görə məsuliyyət, ümumiyyətlə, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar, əkinlər istisna olmaqla digər sahələrə şamil edilir. İctimai obyekt, avtotexniki xidmət məntəqələri və s. xüsusi mülkiyyətdədirsə və orada ağac kəsilirsə, o zaman şəxsə cərimə tətbiq edilir. Amma həyətyanı və bağ sahəsindəki ağaclar kəsilirsə, buna cərimə tətbiq olunmur.

# AZƏRTAC AXA Alyansının Afina konfransında

**Afinada Avropa Xəbər Agentlikləri Alyansının (EANA) "Müasir çağırışlar dövründə xəbər agentliklərinin idarə olunması" mövzusunda konfransı keçirilib.**



Məclisdə Avropanın aparıcı agentliklərinin rəhbərləri və nümayəndələri, o cümlədən Alyansa üzv olan AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak ediblər.

Konfransda "Reuters", Böyük Britaniyanın "Press Association", Fransanın AFP, Bolqarıstanın BTA və digər agentliklərin rəhbərləri süni intellektin sürətlə yayıldığı vaxtda agentliklərin üzləşdiyi çağırışlardan, effektiv menecmentlik, gəlirlərin şaxələndirilməsi, müəllif hüquqlarının qorunması məsələlərindən danışıblar. Xəbər agentliklərinin süni intellekt vasitəsilə informasiya yaradılmasının etik və jurnalistika prinsiplərinə uyğunluğu da müzakirə edilib.

Bildirilib ki, artıq xəbər saytları əvvəlki kimi axtarış sistemlərindən keçidlər əldə edə bilmir. Səbəb insanların sorğularını "Google" və digər axtarış sistemlərinə deyil, ChatGPT və ya digər proqramlara yönəltməsidir. Bununla əlaqədar texnoloji nəhənglər müəllif hüquqlarını, informasiya mənbələrinin öndə olmasını alqoritmlər vasitəsilə təmin etməlidirlər və bütün bunlar qanunvericiliklə təsbit olunmalıdır.

***XQ***

# 27 Sentyabr həm anım, həm də qürur günüdür

**27 Sentyabr – Azərbaycan xalqının yaddaşına qanla yazılan, eyni zamanda şərəflə xatırlanan gün. Bu gün bizim üçün Vətən naminə canından keçənlərin, bir ömür boyu ürəklərdə yaşayan igidlərin Anım Günüdür.**




27 Sentyabr Azərbaycan xalqının yaddaşına qanla, qəhrəmanlıqla və qürurla yazılmış bir tarixdir. 2020-ci ilin məhz 27 sentyabrı Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızın azadlığı uğrunda əks-hücum əməliyyatlarına başladı. Bu müqəddəs savaşda minlərlə oğul şəhidlik zirvəsinə ucaldı, minlərlə qəhrəman qazimiz canı, qanı bahasına torpağa haqqını qaytardı.

27 Sentyabr tarixi bir millətin ayağa qalxması, öz haqqını qətiyyətlə tələb etməsi idi. Azərbaycan əsgəri təkcə düşmənlə döyüşmədi – zamanla, ədalətsizliklə, səssiz dünyanın biganəliyi ilə döyüşdü və qalib gəldi. Artıq 44 gün davam edən, şanlı Qələbəmizlə bitən müharibədən beş il ötür. Sözsüz ki, 44 günün hər anı Azərbaycan xalqının yaddaşına həkk olunub.

Bu tarixdə Ali Baş Komandan xalqa müraciət edərək Ermənistanın cəbhəboyu ərazilərimizdə genişmiqyaslı təxribat törətdiyini və nəticədə həm hərbi qulluqçularımız, həm də mülki vətəndaşlarımız arasında itkilərimizin olduğunu bildirdi. Eyni zamanda, Azərbaycan Ordusunun bütün cəbhəboyu əks-hücuma keçdiyini bildirən ölkə başçımız artıq bir neçə kəndin işğaldan azad olunduğu barədə məlumat verdi. Həmin gündən etibarən ölkədə hər bir vətəndaş bütün gündəlik qayğılarını, problemlərini kənara qoyaraq cəbhədən gələn xəbərlərə kökləndi. Gələn xəbərlər isə xalqımızı sevindirirdi. Təsadüfi deyil ki, həmin günlərdə ölkə başçısının tviter səhifəsini yüz minlərlə insan izləməyə başladı. Çünki Prezidentimiz işğaldan azad olunan ərazilərimiz barədə sosial media hesabında məlumat verirdi. Beləliklə, 2020-ci ilin sentyabr-noyabr ayları Azərbaycanın tarixinə xalq-ordu-iqtidar birliyinin ən yüksək təzahürü kimi düşdü. Ölkədə kimliyindən, yaşından, sosial vəziyyətindən, siyasi düşüncəsindən asılı olmayaraq hər kəs bir oldu, Ordusuna, Ali Baş Komandanına dəstək verdi. Əlbəttə ki, bu gözlənilən idi. Çünki Qarabağ bütün Azərbaycanın illərlə həll olunması üçün səbirsizliklə gözlədiyi şərəf məsələsi idi. Bu məqamda Prezident İlham Əliyevin bir fikri yada düşür: "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm!".

Ölkə başçımız təmkinlə, səbirlə ərazi bütövlüyümüzün sülh yolu ilə təmin olunmasına səy göstərdi. Qeyd etdiyimiz kimi, baş verən hadisələr, illərboyu gedən proseslər sonda müharibəni şərtləndirdi. 2019-cu ildə Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə ümumerməni oyunlarında çıxışı zamanı "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı, daha sonra Azərbaycana qarşı irəli sürdüyü qəbuledilməz şərtlər, Ermənistanın sabiq müdafiə naziri David Tonoyanın Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" ilə hədələməsi, Tovuz istiqamətində törədilən təxribat, həmin ilin avqustunda uğursuzluqla nəticələnən diversiya cəhdi və daha bir çox hadisələr sonda səbir kasasını daşırdı və Azərbaycanı əks-hücuma məcbur etdi. Müharibə bütün bu hərəkətlərə ən tutarlı cavab oldu. Sübut olundu ki, Qarabağ Azərbaycandır və nida.

Həmin günlərdə, hətta o torpaqlarda heç vaxt olmayan gənclərimiz belə fəal mübarizə apardı və nəticədə Ermənistan tərəfi ağ bayraq qaldırmağa məcbur oldu. Noyabr ayının 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Beləliklə, Azərbaycan tarixi ədaləti, ərazi bütövlüyünü bərpa etdi, 30 illik zülmə son qoydu. Prezident İlham Əliyev xalqa müraciətində dedi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq".

Bəli, şəhidlərin qanı ilə suvarılmış torpaq əbədi azadlığa qovuşdu. Qarabağ yalnız torpaq deyil – Qarabağ bir millətin qüruru, bir xalqın tarixidir. Hər daşında, hər ağacında bir igidin izləri var indi. Hər il 27 Sentyabrda sükutla dayanırıq. Küçələrdə bayraqlar yarıya endirilir, məktəblərdə, universitetlərdə şəhidlərimizin adları səslənir. Analar göz yaşları ilə oğullarını yad edir, bacılar dualarını göyə göndərir. Amma bu hüznün içində bir iftixar da var – çünki bu torpaq artıq azaddır, çünki bu torpaq şəhid qanı ilə müqəddəsləşib.

Uşaqlar artıq Qarabağı tarix kitablarından deyil, gerçək həyatın özündən öyrənir. Çünki artıq o torpağa ayaq basmaq, o havanı ciyərlərinə çəkmək mümkündür. Və bu mümkünlüyün adı Qəhrəmanlıqdır.

Milli Anım Günü – bu, təkcə ağrının, kədərin deyil, həm də qürurun günüdür. Biz bu gün həm yas tutur, həm də başımızı dik tuturuq. Çünki yalnız xalqı üçün canından keçənlərin ruhu qarşısında baş əymək olar. Azərbaycan xalqı şəhidlərini heç vaxt unutmayacaq. Onların əmanəti olan bu torpaqları daha da abad edəcək, daha da gücləndirəcək.

Qarabağ Azərbaycandır! Bu söz artıq yalnız siyasi bəyanat deyil – bu, şəhid qanı ilə möhürlənmiş həqiqətdir.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" PHŞ-nin

*2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı*

*Ölçü vahidi: manatla*

| AKTİVLƏR | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| *Cari aktivlər;* | | |
| Pul vəsaitləri və onların ekvivalenti | 44 319 567.88 | 57 605 716.00 |
| Bərpa və tikinti üzrə avans ödənişi | 290 944 741.75 | 274 000 000.00 |
| Digər cari aktivlər | 23 435.33 | 1 157.00 |
| Debitorlar | 35 854.87 | |
| **Cəmi cari aktivlər** | **335 323 599.83** | **331 606 873.00** |
| **Uzunmüddətli aktivlər** | | |
| Əmlak, tikili və avadanlıqlar | 2 219 539.57 | 377 868.00 |
| Qeyri-maddi aktivlər | | 1 567.00 |
| **Cəmi uzunmüddətli aktivlər** | **2 219 5539.57** | **379 435.00** |
| **CƏMİ AKTİVLƏR** | **337 543 139.00** | **331 686 308** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Kreditor borcları | 3 990 031.29 | 9 364.00 |
| Gələcək dövrün gəlirləri | 1 174 363.16 | 1 243 580.00 |
| Vergi öhdəlikləri | 366 881.37 | 139 649.00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **5 531 275.82** | **1 392 593.00** |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Bərpa və tikinti üzrə hesablaşmalar | 330 000 000.00 | 330 000 000.00 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **330 000 000.00** | **330 000 000.00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **335 531 275.82** | **331 392 593.00** |
| **KAPİTAL** | | |
| **Nizamnamə kapitalı** | 500 000.00 | 500 000.00 |
| Bölüşdürülməmiş mənfəət | 1 511 863.18 | 93 715.00 |
| **Cəmi kapital** | **2 011 863.18** | **593 715.00** |

**Mənfəət, zərər və digər məcmu gəlirlər haqqında hesabat**

| **Bölmələrin, maddələrin adları** | **Hesabat dövrü üzrə** | **Əvvəlki dövr üzrə** |
|---|---|---|
| **Gəlirlər** | | |
| Kommersiya əməliyyatlarından gəlirlər | | |
| Qeyri-kommersiya əməliyyatlarından gəlirlər | 3 864 577.80 | 873 564.00 |
| Faiz gəlirləri | 1 772 685.22 | |
| **Cəmi gəlirlər** | **5 637 263.02** | **873 564.00** |
| **Xərclər** | | |
| İstifadə edilmiş materialların (iş və xidmətlərin) dəyəri | 462 951.48 | |
| Əməkhaqqı, əməkhaqqına görə ayırmalar və işçilərlə bağlı digər xərclər | 3 956 976.41 | 679 085.00 |
| İcarə xərcləri | 223 665.90 | 27 540.00 |
| Aktivlərin amortizasiya xərcləri | 607 185.92 | 26 853.00 |
| Bank xərcləri | 16 279.95 | 2 976.00 |
| Abadlaşma xidmətləri | 13 605 402.24 | |
| Elmi-tədqqiqat xidmətləri, təcrübə və müayinə xərcləri | 6 217.88 | |
| Ödənilmiş mənfəət vergisi | 23 428.75 | 19 966.00 |
| **Cəmi xərclər** | **18 902 108.53** | **756 420.00** |
| **Mənfəət (zərər)** | | |
| Ümumi mənfəət (zərər) | **(13 264 845.51)** | **117 144.00** |
| Asılı müəssisələrin mənfəətində (zərərində) pay | | |
| **Mənfəət (zərər)** | **(13 264 845.51)** | **117 144.00** |
| o cümlədən sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəət (zərər) | **1 772 685.22** | |
| **Mənfəət vergisi** | **354 537.04** | **23 429.00** |
| **Xalis mənfəət (zərər)** | **1 418 148.18** | 93 715.00 |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| **31 dekabr 2023-cü il tarixə** qalıq | **500 000.00** | **93 715.00** | **593 715.00** |
| 2024-cü il üzrə xalis mənfəət/zərər | | **1 418 148.18** | **1 418 148.18** |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | **500 000.00** | **1 511 863.18** | **2 011 863.18** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | 1 418 148.18 | 117 144.00 |
| Mənfəət vergisindən əvvəlki mənfəətin xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | |
| Faiz gəlirləri | (1 418 148.18) | (117 144.00) |
| Köhnəlmə və amortizasiya xərcləri | 607 185.92 | 26 853.00 |
| Sair | 80 943.38 | |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **688 129.34** | **26 853.00** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | | |
| Bərpa və tikinti üzrə avans ödənişi | (16 944 741.75) | (274 000 000.00) |
| Digər cari aktivlər | (22 278.33) | (1 157.00) |
| Debitorlar | (35 854.87) | |
| Kreditor borcları | 3 980 667.29 | 9 364.00 |
| Gələcək dövrün gəlirləri | (69 216.84) | 1 243 580.00 |
| Vergi öhdəlikləri | 227 232.37 | 116 220.00 |
| Bərpa və tikinti üzrə hesablaşmalar | | 330 000 000 .00 |
| **Əməliyyat fəaliyyətinə yönələn xalis pul vəsaitləri** | **(12 864 192.13)** | **57 394 860.00** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | |
| Əmlak. tikili və avadanlıqlar üzrə ödənişlər | (2 528 233.91) | (404 717.00) |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | | (1 571.00) |
| Fazi gəlirləri üzrə daxilolmalar | 1 418 148.18 | 117 144.00 |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(1 110 085.73)** | **(289 144.00)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | |
| Nizamnamə kapitalının qoyuluşu üzrə daxilolmalar | | 500 000.00 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | **500 000.00** |
| Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması | **(13 286 148.52)** | **57.605.716.00** |
| Pul vəsaitləri və onların ekvivalentlərinin.ilin əvvəlinə | **57 605 716.00** | **0.00** |
| Pul vəsaitləri və onların ekvivalentlərinin.ilin sonuna | **44 319 567.88** | **57.605.716.00** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Laçın Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" - Publik Hüquqi Şəxsin rəhbərliyinə:**

**Rəy**

Biz, **"Laçın Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" - Publik Hüquqi Şəxsin** (bundan sonra – Xidmət) 2024-cü il dekabrın 31-nə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və zərər, məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, əhəmiyyətli uçot siyasətləri və digər izahlı qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

**Bizcə, əlavə edilimiş maliyyə hesabatları xidmətin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə mənfəət və ya zərərini, kapitalda dəyişiklikləri və göstərilən tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz, maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq xidmətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyəti verilmiş şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik xidməti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik xidmətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəalliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər xidmətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**Direktor-Auditor Eldar Təhməzov**

**Azərbaycan Respublikasının Auditorlar Palatası İCAZƏ: AT/238 22.11.2021-ci il**

**2025-ci il 9 sentyabr**

# Tovuzda "Anım Günü"




**27 Sentyabr Vətən müharibəsinin başlanğıc günü, eyni zamanda, xalqımızın yaddaşında əbədi iz buraxan Anım Günüdür. Həmin gün ərəfəsində Azərbaycanın hər yerində olduğu kimi, Tovuzda da şəhidlərin müqəddəs xatirəsi ehtiramla anılır, onların ruhuna dualar oxunur.**

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Yeni Azərbaycan Partiyası Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri bu dəfə Tovuz şəhəri, Cəlilli, Düz Cırdaxan və Bozalqanlı kəndlərində yerləşən şəhid məzarlarını ziyarət etdilər. Hər məzar önündə səssiz, hüznlü duruş, tər güllərin sükut içində soyuq mərmər üstünə ehtiyatla düzülüşü... Əslində bu cür səhnələr vətənpərvərliyin, minnətdarlığın və hüznün tərənnümü kimi yadda qalır.

...Ziyarət zamanı şəhidlərin qəhrəmanlıqlarından, onların keçdikləri döyüş yolundan, xalqın azadlığı naminə göstərdikləri fədakarlıqlardan danışıldı. Onların hər biri bir tarixdir, hər biri bu xalqın azadlıq salnaməsinin canlı səhifəsidir.

Ziyarətdən sonra şəhid ailələrinin üzvləri ilə səmimi və mənalı görüşlər keçirildi. Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxışı zamanı bunları vurğuladı:

"Bu torpaqlar uğrunda canını fəda etmiş igid oğullarımızın hər biri xalqın qürur tarixini yazıb. Onların ruhu qarşısında baş əyirik. Şəhidlərimizin ailələri bizə əmanətdir. Onların hər bir arzusu, hər bir qayğısı bizim üçün vacib və önəmlidir. Dövlətimizin başçısının rəhbərliyi ilə bu müqəddəs yolda xidmət göstərmək bizim həm borcumuz, həm də şərəfimizdir".

Bu səmimi görüşlər zamanı şəhid ailələri övladlarının adlarının əbədiləşdirilməsi, qəhrəmanlıqlarının unudulmaması üçün dövlətin atdığı hər bir addıma görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər.

Belə bir fikir vurğulandı ki, 27 Sentyabr həm hüzn, həm də qürur günüdür. Bu gün biz təkcə şəhidlərimizi xatırlamırıq, biz onların müqəddəs amalını, uğrunda can verdikləri torpağı, xalqı və bayrağı bir daha xatırlayırıq.

Tovuzda keçirilən bu anım tədbiri bir daha sübut etdi ki, şəhidlər unudulmur, unudulmayacaq da. Onların adı tariximizin ən şərəfli səhifələrində yaşayır və gələcək nəsillərə örnək olur.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

## "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC səhmdarlarının nəzərinə!

Bununla, "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" Açıq Səhmdar Cəmiyyəti (Dövlət qeydiyyat №-si (VÖEN) 1904090831) bildirir ki, 27 oktyabr 2025-ci il saat 11.00-da cəmiyyətin iştirakçılarının (səhmdarlarının) növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağı "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC-nin Bakı şəhəri, Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda yerləşən binasında keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

**1.** "Cəmiyyətin səhmdarları sırasından çıxma və çıxan səhmdara məxsus olan səhmlərin cəmiyyət tərəfindən geri alınması haqqında".

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinin materialları ilə cəmiyyətin Bakı şəhəri, Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda yerləşən ofis binasında həftənin iş günləri saat 15.00-dan 17.00-a qədər tanış olmaq mümkündür.

***"Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC-nin baş direktoru Rəşad Rasim oğlu Daşdəmirov***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 206 (30900) 26 sentyabr 2025-ci il, cümə

## İDMAN

### “Kilim”də də xizək yarışları keçiriləcək

**Dövlət Turizm Agentliyinin tabeliyində fəaliyyət göstərən “Şahdağ” Turizm Mərkəzinin daha bir yamacı (Kilim) Beynəlxalq Xizək Federasiyası (FİS) tərəfindən beynəlxalq yarışların keçirilməsi üçün homologasiya (yoxlanışdan keçmə) prosesindən uğurla keçərək sertifikat əldə edib.**



Azərbaycan Qış İdman Növləri Federasiyasından verilən məlumata görə, “Kilim” yamacının ümumi uzunluğu 1897 metrdir.

Sertifikat qeyd olunan yamacda slalom, nəhəng slalom, super nəhəng slalom və paralel disiplinlər üzrə yarışların keçirilməsinə icazə verir.

### “Qarabağ”ın azad şəhərlərimizə ehtiramı

**UEFA Çempionlar Liqasının Liqa mərhələsi çərçivəsində keçiriləcək “Qarabağ” – “Kopenhagen” (Danimarka) oyunundan öncə Tofiq Bəhramov adına Respublika stadionunda bir sıra yeniliklər edilib. Bu barədə “Qarabağ” klubu məlumat yayıb.**




Bildirilir ki, tribunalarda bəzi sektorların yerləri və adları dəyişdirilib. VIP və VVIP sektorlara işğaldan azad olunmuş şəhərlərin (Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Xocalı, Laçın, Kəlbəcər, Ağdam, Şuşa, Xankəndi) adları veriib.

Qarşılaşmanın biletləri dünən saat 15:00-dan satışdadır və azarkeşlər iTicket.az mobil tətbiqi vasitəsilə onlayn biletləri əldə edə bilərlər.

Qeyd edək ki, “Qarabağ” – “Kopenhagen” qarşılaşması oktyabrın 1-də, saat 20:45-də başlayacaq.

### Paraüzgüçümüzün 4-cü medalı

**Azərbaycan paraüzgüçüsü Raman Salei Sinqapurda keçirilən dünya çempionatında növbəti medalını qazanıb. İdmançımız bu dəfə bürünc mükafata sahib çıxıb.**



O, 100 metr məsafəyə sərbəst üsulda 54.01 nəticə ilə üçüncü olub.

Qeyd edək ki, Raman Salei Sinqapurda daha əvvəl qızıl, gümüş və bürünc medal da əldə etmişdi.

*Qabil YUSİFOĞLU*
*XQ*

*“Formula 1”in əks-sədası*

# ABŞ-da Bakıya 1,1 milyon tamaşaçı baxıb



**Bir sıra rekord göstəricilərilə diqqətçəkən Formula 1 Azərbaycan Qran–Prisi yalnız trasdakı dramatik hadisələrlə deyil, həm də dünya mediasında doğurduğu geniş rezonansla yadda qaldı. Beynəlxalq mətbuat bu yarışın müxtəlif aspektlərini işıqlandıraraq həm idman, həm də sosial-iqtisadi mənada əhəmiyyətini vurğuladı.**

Bu il keçirilən Formula 1 Azərbaycan Qran–Prisi ABŞ-da televiziya baxış rekordunu qırdı. Yarışı yayımlayan ESPN telekanalı rəsmi olaraq bildirdi ki, ötən həftəsonu Bakı Şəhər Halqasındakı əsas yarış ABŞ-da 1,1 milyon tamaşaçı topladı. Qeyd etmək lazımdır ki, vaxt fərqi səbəbindən bu göstərici xüsusilə diqqətəlayiqdir: Los-Ancelesdə yarış səhər saat 04:00-da, Nyu-Yorkda isə səhər saat 07:00-da başlamışdı. Buna baxmayaraq, amerikalı azarkeşlər televiziya qarşısına rekord sayda toplaşaraq Bakıda baş tutan mübarizəni izlədilər.

Əvvəlki maksimum nəticə 2021-ci ildə qeydə alınmış və 970 min tamaşaçı təşkil etmişdi. 2024-cü ildə isə bu rəqəm 865 minə enmişdi. Bu dəfə 1,1 milyon göstərici ilə Bakı yarışı tarixdə ilk dəfə olaraq ABŞ-da yeddirəqəmli izləyici kütləsinə çatdı. Ümumilikdə, ESPN, ESPN2 və ABC kanallarında 2025 mövsümündə Formula 1 yarışlarının ortalama izləyici sayı 1,4 milyona yüksəldi ki, bu da əvvəlki rekord – 2022-ci ildə qeydə alınmış 1,21 milyon göstəricini üstələdi.

Beynəlxalq mediada da bu fakt geniş əks-səda doğurdu. APA və “Reuters” yazılarında Bakı yarışının həm idman, həm də tamaşaçı marağı baxımından xüsusi önəm daşıdığını vurğuladılar. “The Guardian”, ESPN və “Motorsport.com” kimi nüfuzlu nəşrlər Bakının artıq Formula 1 təqvimində yalnız “sürprizlərin yarışı” deyil, həm də qlobal auditoriya üçün diqqət mərkəzinə çevrildiyini qeyd etdilər. ABŞ mediası xüsusən ESPN-in rekordunu qabardaraq, F1-in Amerika bazarında nüfuzunun artdığını və bunun gələcəkdə kommersiya tərəfdaşlıqları üçün yeni imkanlar yaradacağını yazdı.

Sosial şəbəkələrdə də Bakı yarışı müzakirələrin əsas mövzularından birinə çevrildi. X (Twitter), “Reddit” və “Instagram” platformalarında həm Maks Verstappenin qələbəsi, həm də Oskar Piastrinin qəzası barədə on minlərlə paylaşım edildi. ABŞ azarkeşlərinin yarışa gecə saatlarında göstərdiyi maraq “Baku GP fandom” kimi yeni onlayn icmaların yaranmasına da təkan verdi.

Beynəlxalq ekspertlər bu tendensiyanı təsadüfi hesab etmirlər. Onların fikrincə, Bakı Qran–Prisi unikal şəhər trası, dramatik hadisələri və tarixi ab-havası ilə F1-in ən çox izlənilən mərhələlərindən birinə çevrilir. ESPN-in rekord göstəricisi həm də Azərbaycanın idman diplomatiyası üçün mühüm siqnal sayılır - ölkənin qlobal imici güclənir, turizm və sponsor bazarına yeni nəfəs gəlir. Eyni zamanda, Bakı Qran–Prisi yalnız idman deyil, həm də iqtisadi və imic baxımından mühüm rol oynadı. Yarış turizmə, yerli biznesə və qonaqpərvərlik sektoruna əlavə gəlir gətirdi, həmçinin Azərbaycanın beynəlxalq idman xəritəsində mövqeyini daha da gücləndirdi.

Beləliklə, Bakı 2025 Qran–Prisi dramatik hadisələri, tarixi nəticələri və qlobal miqyasda böyük rezonansı ilə mövsümün ən yaddaqalan yarışlarından biri kimi tarixə düşdü. Bütün bu reaksiyalar göstərir ki, Bakı Qran–Prisi artıq təkcə Formula 1 təqvimində deyil, həm də qlobal media gündəmində öz yerini möhkəmləndirmişdir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

## Şəhid jurnalistlərin xatirəsinə minifutbol turniri



**Milli Mətbuatın 150 illik yubileyi, eləcə də Müstəqilliyin Bərpası Günü (18 oktyabr) və Zəfər Günü (8 Noyabr) münasibətilə Azərbaycanın şəhid jurnalistlərinin xatirəsinə həvəskar komandalar arasında 4-cü ənənəvi minifutbol turniri keçiriləcək.**

Turnir “Ardanış” Futbol Məktəbinin və Rakus.az saytının təşkilatçılığı, Bakı Tennis Akademiyasının dəstəyi, AzTV, Baku TV, Real TV, AZƏRTAC, APA, Yurd Media agentliklərinin və BAKU.WS portalının informasiya dəstəyi ilə təşkil olunacaq.

Bununla əlaqədar, təşkil olunan mərasimdə şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olunub. Sonra turnir barədə məlumat verilib, qaydalar elan edilib və püşkatma keçirilib.

Bildirilib ki, turnirin məqsədi Birinci və İkinci Qarabağ savaşında canlarını fəda etmiş mərd mübarizlərin xatirəsini anmaq, 44 günlük Vətən müharibəsi iştirakçılarının qəhrəmanlıq nümunələrini yaşatmaq, şəhid jurnalistlər Məhərrəm İbrahimov və Sirac Abışovun timsalında erməni terrorunun qurbanı olan media nümayəndələrimizin – Çingiz Mustafayevin, Kazımağa Kərimov, Osman Mirzəyev, Alı Mustafayev, Fəxrəddin Şahbazov, Arif Hüseynzadə və Salatın Əsgərovanın qəhrəmanlıqlarını bir daha yad edərək yeni nəslin sağlam ruhda vətənpərvər böyüməsinə töhfə verməkdir.

Bu il isə turnirdə 12 komanda – AzTV, Baku TV, Real TV, “Cəmiyyət”, AZƏRTAC, APA, Yurd Media, Baku.WS, “Vətən”, “Veteranlar”, “Zəfər 44”, “Dəmir Yumruq” komandaları mübarizə aparacaq. Medianı 8 komanda təmsil edir.

Sentyabrın 27-də start götürəcək turnir, hər birində 3 komanda olmaqla, 4 qrupdan ibarətdir və noyabrın 1-də başa çatacaq. Dairəvi sistemlə keçiriləcək mübarizə nəticəsində qrupda xal və top hesabına görə 1 və 2-ci yeri tutan komandalar 1/4 finala yüksələcək. Bu oyunlarda iştirak edəcək 8 komandadan qalib gələn 4-ü yarımfinala çıxacaq.

Turnirin razılaşdırılmış qaydasına əsasən, qarşılaşmalar hər biri 25 dəqiqə olmaqla iki hissədən ibarətdir. Yarımfinal və final oyunları zamanı əsas vaxtda qalib müəyyənləşməzsə, penaltilər seriyası olacaq. Bakı Tennis Akademiyasının stadionunda keçiriləcək oyunları AFFA-nın hakimləri idarə edəcək.

İlk oyun sentyabrın 27-də saat 19:00-da Bakı Tennis Akademiyasının stadionunda rəsmi açılış mərasimindən sonra baş tutacaq.

*Q.ƏLİYEV*
*XQ*

## “O qızı axtaran” film 55 yaşa çatdı

**Klassik Azərbaycan detektiv filmi “O qızı tapın” bu il 55 illiyini qeyd edir. Sovet milisinin 50 illiyinə həsr olunmuş ekran əsərinin ssenarisini rejissor Həsən Seyidbəyli yazıb.**

Filmin premyerası 1971-ci il iyulun 5-də Moskvada baş tutub. Bununla belə, ilk nümayiş nazir başda olmaqla Daxili İşlər Nazirliyinin əməkdaşları üçün təşkil olunub və onlar bu ekran əsərinə baxdıqdan sonra filmin yaradıcı kollektivini təbrik edib, peşəkarlıq nöqteyi-nəzərindən onu yüksək qiymətləndiriblər.

Görkəmli Azərbaycan rejissoru və yazıçısı Həsən Seyidbəylinin detektiv janrına keçməsi təsadüfi deyildi. Əvvəlcə onun sənədli esseləri Moskvanın “Sovetskaya militsiya” jurnalında dərc olunub. Sonralar oxucular bu hekayələrilə də tanış olublar. Tezliklə yazıçı-rejissorun qələmə aldığı “Şimaldan Şimala” romanı da çap olunub, məhz bu əsər sonradan filmin ssenarisinə çevrilib.

Filmin quruluşçu operatoru Arif Nərimanbəyov, quruluşçu rəssamı Məmmədağa Hüseynov, geyimlərin tərtibatçısı isə tanınmış mədəniyyət xadimi Bədurə Əfqanlı olub. Filmin musiqisini Azərbaycan SSR Xalq artisti Tofiq Quliyev




bəstələyib. Musiqiləri ifa edən Azərbaycan Dövlət Simfonik Orkestrinə isə SSRİ Xalq artisti Niyazi dirijorluq edib. Mahnıları məşhur estrada müğənniləri Flora Kərimova və Oktay Ağayev ifa ediblər. Filmə 17,5 milyon tamaşaçı baxıb.

Həsən Seyidbəylinin “O qızı tapın” filmi 55 il ərzində bir çox aktyor üçün kinoda uğurlu start olub, sovet dövründə keyfiyyətli detektiv film nümunəsi olmaq hüququnu qazanıb.

*XQ*

## Hava

### Bakıda yağmursuz, rayonlarda yağış və dolu

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək, axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.

Havanın temperaturunun gecə 15-18, gündüz 22-26 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 765 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında hava şəraiti, əsasən yağmursuz keçəcək. Lakin gündüz şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 14-18, gündüz 22-27, dağlarda gecə 3-8, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi redaksiyanın məsul katibi İlqar Rüstəmova dayısı

**GÜLHÜSEYN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi rayonundan Rafil Hüseynov Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidova atası

**MİRHEYDƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi pedaqogika kafedrasının əməkdaşları kafedranın müdiri, professor İramin İsayevə həyat yoldaşı

**İFFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Xalq qəzeti”nin kollektivi redaksiyanın əməkdaşı Pünhan Əfəndiyevə əzizi

**YUSİFİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin biznesin iqtisadiyyatı və menecment kafedrasının professor-müəllim heyəti kafedranın əməkdaşı Aytən Budaqovaya əzizi

**MƏLƏK QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3528
SİFARİŞ 1943
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00